**Hər kəs ədalətli olacaq**

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 29 (6171) 7 avqust 2026-cı il | Qiyməti 40 qəpik


# Köç Xocavəndə qayıdır



**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış davam etdirilir.**

**Adalet.az xəbər verir ki, bu gün Xocavənd şəhərinə, rayonun Qırmızı Bazar qəsəbəsinə və Xocavənd kəndinə növbəti köç karvanı yola salınıb. Xocavənd şəhərinə, rayonun Qırmızı Bazar qəsəbəsinə və Xocavənd kəndinə köç edənlər respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir. Bu mərhələdə Xocavənd şəhərinə 20 ailə - 81 nəfər, Qırmızı Bazar qəsəbəsinə 2 ailə - 9 nəfər, Xocavənd kəndinə isə 5 ailə - 17 nəfər köçürülüb.**

## "MyGov" üzərindən FHN-ə müraciət etmək olacaq



**Fövqəladə Hallar Nazirliyi (FHN) vətəndaşların nazirliyə müraciətinin daha da asanlaşdırılması, vətəndaş məmnunluğunun və xidmətlərin rəqəmsallaşdırılmasının təmin edilməsi məqsədilə növbəti addım atıb.**

Adalet.az xəbər verir ki, bununla bağlı FHN məlumat yayıb. Bildirilib ki, vətəndaşların Fövqəladə Hallar Nazirliyinə və nazirliyin müvafiq qurumlarına müraciətlərinin elektron qaydada təqdim edilməsi məqsədilə "MyGov" platforması üzərindən də müraciət göndərilməsi imkanı yaradılıb.

Vətəndaşlar "MyGov" platformasında "Dövlət qurumlarına rəsmi məktub" bölməsi vasitəsilə Fövqəladə Hallar Nazirliyini və ya nazirliyin müvafiq alt qurumunu seçərək elektron müraciətlərini ünvanlaya bilərlər.

Müraciətin nəticəsi üzrə FHN tərəfindən hazırlanmış rəsmi cavab "MyGov" platforması üzərindən vətəndaşın şəxsi kabinetinə göndərilir.

## Ermənistanın mina terroru nəticəsində 433 azərbaycanlı qurban olub



**2020-ci il Vətən müharibəsindən bəri Ermənistanın əraziləri mina ilə çirkləndirməsi nəticəsində 433 nəfər mina qurbanı olub.**

Adalet.az xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin "X" səhifəsində bildirilib. Son hadisədə daha iki Azərbaycan vətəndaşının minaya düşərək ağır xəsarət aldığını diqqətə çəkən XİN beynəlxalq ictimaiyyəti Azərbaycana minalardan təmizləmə işlərinə daha güclü dəstək verməyə çağırıb. "Bu faciə minaların insan həyatı üçün yaratdığı davamlı təhlükəni və günahsız insanların hər gün üzləşdiyi riskləri bir daha nümayiş etdirir. Minalardan təmizləmə işlərinin sürətləndirilməsi üçün beynəlxalq ictimaiyyətin daha güclü dəstəyinə təcili ehtiyac var. Minalardan azad gələcək dayanıqlı sülhün, inkişafın və insan təhlükəsizliyinin əsas şərtlərindən biridir", - XİN-in məlumatında deyilir.

Qeyd edək ki, Ağdərədə mina partlayıb, 2 nəfər xəsarət alıb.

## Sülh Şurası Netanyahunu Qəzzaya zərbələri dayandırmağa çağırıb

**Qəzza üzrə Sülh Şurasının xüsusi nümayəndəsi Nikolay Mladenov və baş müşaviri Arye Laytstoun İsrailin Baş naziri Benyamin Netanyahu ilə görüşüblər.**

Adalet.az xəbər verir ki, bu barədə jurnalist Barak Ravid "X" sosial şəbəkəsində mənbəyə istinadən məlumat yayıb.

Mənbənin sözlərinə görə, Mladenov və Laytstoun Netanyahuya xatırladıblar ki, İsrail ABŞ Prezidenti Donald Trampın təklif etdiyi 20 bəndlik plana uyğun olaraq Qəzza zolağına zərbələri dayandırmaqla bağlı öhdəlik götürüb.

## Türkiyədə bələdiyyəyə korrupsiya əməliyyatı

**Türkiyənin İzmir şəhərində CHP-nin idarə etdiyi Menderes Bələdiyyəsində rüşvət və korrupsiya iddiaları ilə bağlı aparılan istintaq çərçivəsində polis əməliyyatı keçirilib.**

Türkiyə KİV-inin məlumatına görə, əməliyyat zamanı Menderes bələdiyyəsinin sədri İlkay Çiçək də daxil olmaqla ümumilikdə 21 nəfər saxlanılaraq polis nəzarətinə götürülüb.

Bildirilir ki, saxlanılan şəxslər hazırda polis bölməsində dindirilir.

Faktla bağlı istintaq tədbirləri davam etdirilir.

## Əli Əsədov yeni qərar imzaladı



**Nazirlər Kabineti "Müvafiq bazarda sahələrin təmərküzləşmə səviyyəsinin müəyyən edilməsi Qaydası"nı və "Rəqabət orqanı tərəfindən təmərküzləşmələrin qiymətləndirilməsi Qaydası"nı təsdiq edib.**

Adalet.az xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov yeni qərar imzalayıb.

Qərara əsasən, hər iki qayda Rəqabət Məcəlləsinə uyğun olaraq hazırlanıb. "Müvafiq bazarda sahələrin təmərküzləşmə səviyyəsinin müəyyən edilməsi Qaydası"nda istifadə olunan anlayışlar Məcəllə və digər normativ hüquqi aktlarla müəyyən edilmiş mənaları ifadə edir.

"Rəqabət orqanı tərəfindən təmərküzləşmələrin qiymətləndirilməsi Qaydası" da Rəqabət Məcəlləsinə uyğun olaraq hazırlanıb, bazar subyektləri tərəfindən təmərküzləşmələr haqqında rəqabət orqanına təqdim edilmiş ərizələrə baxılması, habelə rəqabət orqanına məlumat vermədən baş tutmuş və razılıq alınması tələb olunan təmərküzləşmələrin rəqabət orqanının öz təşəbbüsü ilə araşdırılması və təmərküzləşmələrə nəzarət tədbirləri zamanı tətbiq edilir. Qaydaya uyğun olaraq təmərküzləşmələrin qiymətləndirilməsi zamanı iqtisadi nəzəriyyə, empirik və iqtisadi statistika əsaslı təhlillər aparılır, habelə müvafiq bazarla şaquli və üfüqi əlaqəli olan qonşu bazarlarda rəqabət vəziyyəti nəzərə alınır.

## "Hərbi əməliyyatlar dayandırılmalıdır"



**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Rusiya və Ukrayna arasındakı hərbi əməliyyatların ən qısa zamanda dayandırılmasının və beynəlxalq hüququn norma və prinsiplərinə ciddi riayət olunmaqla münaqişənin diplomatik yollarla həllinin vacibliyini bildirib.**

Adalet.az xəbər verir ki, nazir bu barədə Ukrayanaya rəsmi səfəri çərçivəsində ölkənin xarici işlər naziri Andrey Sibiqa ilə genişləndirilmiş görüşündə bəhs edib.

Görüş zamanı Azərbaycanın Ukraynanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyünə ardıcıl dəstəyi bir daha vurğulanıb.

***Əbülfət MƏDƏTOĞLU***

## Sirr olmayan duyğular

Bax:səh-8

## GÜNÜN LƏTİFƏSİ



**Vəli Xramçaylı:** - "Telefonima addım ölçən proqramını yazmışam. Baxıram ki, bir ildə 3326 km. yol getmişəm. Həmin vaxt ərzində hardasa 128 litr araq içmişəm, hesablayıram 100 km-ə təxminən 4 litr "rasxod" düşür.

## Prezident Sərəncamlar imzaladı



**Fəxrəddin İsmayılov Azərbaycan Respublikasının UNESCO yanında daimi nümayəndəsi təyin edilib.**

Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb. Sənədin mətni Azərbaycan Prezidentinin rəsmi internet saytında dərc edilib.

Sərəncama əsasən, Fəxrəddin Nəcəf oğlu İsmayılov Azərbaycan Respublikasının UNESCO yanında daimi nümayəndəsi təyin edilib.

Qeyd edək ki, Fəxrəddin İsmayılov buna qədər Azərbaycan Respublikasının Avropa Şurası yanında daimi nümayəndəsi idi.

Prezident İlham Əliyevin digər Sərəncamı ilə Elman Telman oğlu Abdullayev Azərbaycan Respublikasının UNESCO yanında daimi nümayəndəsi vəzifəsindən geri çağırılıb.

***

**Bəxtiyar Aslanbəyli "Şöhrət" ordeni ilə təltif edilib.**

Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb. Sənədin mətni Azərbaycan Prezidentinin rəsmi internet saytında dərc edilib.

Sərəncama əsasən, Bəxtiyar Əli oğlu Aslanbəyli Azərbaycan neft sənayesinin inkişafında xüsusi xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif edilib.

Qeyd edək ki, Bəxtiyar Aslanbəyli bp-nin Xəzər, Mərkəzi Asiya və Türkiyə regionunda kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidentidir. Bəxtiyar Aslanbəyli 7 avqust 1976-cı ildə Bakı şəhərində anadan olub. 1993-cü ildə Bakı şəhəri 176 saylı orta məktəbi bitirib. 1997 və 1999-cu illərdə Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər və beynəxalq hüquq fakültəsinin bakalavr və magistr pilləsini bitirib. O, hüquq üzrə fəlsəfə doktorudur. (PhD)

Əmək fəaliyyətinə 1998-ci ildə "PricewaterhouseCoopers" şirkətində başlayıb. 2002-ci ildən bp şirkətində çalışır. 2015-ci ildən bp-nin regional vitse prezidentidir. Pedaqoji fəaliyyətə 1997-ci ildən başlayıb. Bakı Dövlət Universitetinin Himayəçilər Şurasının üzvüdür. Bəxtiyar Aslanbəyli kommunikasiya və xarici əlaqələr, vergi və gömrük, etik normalar və tələblərə uyğunluq, habelə biznes xidmətləri kimi sahələrdə bir sıra rəhbər vəzifələrdə çalışıb. O, 2017-ci ildə ölkənin neft və qaz sənayesinin inkişafında xidmətlərinə görə Azərbaycan Prezidenti tərəfindən "Tərəqqi" medalı ilə təltif olunub. Bəxtiyar Aslanbəyli həmçinin Böyük Britaniya Kralı III Çarlz tərəfindən Birləşmiş Krallığın Britaniya İmperiyası Ən Əla Ordeninin fəxri Zabiti (OBE) adına layiq görülüb.

## Prezident İlham Əliyev Gömrük Məcəlləsinə dəyişiklikləri təsdiqləyib

**Prezident İlham Əliyev Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında qanunu təsdiqləyib.**

Sənədin mətni Azərbaycan Prezidentinin rəsmi internet saytında dərc edilib.

Dəyişikliyə əsasən, idxal olunan və barəsində texniki reqlamentlər və istinad edilmiş standartlar qəbul edilmiş mallara dair "Texniki tənzimləmə haqqında" qanuna əsasən tərtib edilən uyğunluq sertifikatı, uyğunluq bəyannaməsi və tanınmış xarici mənşəli uyğunluq sənədləri gömrük orqanlarına təqdim edilməli və gömrük rəsmiləşdirilməsi zamanı yoxlanılmalıdır. Sözügedən tələblər idxal edilən mallara yalnız müvafiq texniki reqlamentlərin və istinad edilmiş standartların hər ikisinin birlikdə qüvvəyə minməsindən 2 il keçdikdən sonra şamil olunacaq. Prezident İlham Əliyev Gömrük Məcəlləsinə dəyişikliklərin tətbiqi barədə Fərman da imzalayıb. Fərmana əsasən, Nazirlər Kabineti 6 ay müddətində gömrük orqanlarının vəzifəli şəxslərinin maddi və sosial təminatı ilə bağlı əlavə haqların, kompensasiyaların, müavinətlərin və başqa ödənişlərin məbləğləri və təyin edilmə qaydası barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir.

# Hikmət Hacıyev "Haber Global"a müsahibə verib

**"Türkiyənin maraqları bizim qırmızı xəttimizdir".**

Adalet.az-ın xəbərinə görə, bu sözləri Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev türkiyəli jurnalistlərin Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondu və Mədəniyyətlərarası Assosiasiya Təşkilatı ilə Azərbaycana səfəri çərçivəsində "Haber Global"a müsahibəsində deyib.

Hikmət Hacıyev Ermənistanla davam edən sülh prosesi məsələsinə toxunub və yekun sülh əldə edilməsi üçün Ermənistan konstitusiyasının dəyişməsinin zəruriliyini vurğulayıb.

Hikmət Hacıyev "Haber Global"a müsahibəsində regionda baş verən hadisələri və Ermənistanla davam edən sülh prosesini qiymətləndirib. O, Azərbaycanın regionda dayanıqlı sülhün əldə edilməsi istəyində olduğunu qeyd edib.

Ancaq bunun üçün Ermənistan konstitusiyasında yer alan Azərbaycana, eləcə də Türkiyəyə qarşı ərazi iddialarını nəzərdə tutan müddəaların çıxarılmasını zəruri olduğunu ifadə edib. Bunun yekun sülh sazişi üçün şərt olduğunu nəzərə çatdırıb.

"Ermənistan konstitusiyasında yer alan Azərbaycana, eləcə də Türkiyəyə qarşı ərazi iddialarını nəzərdə tutan müddəanın çıxarılmasını gözləyirik. Bu xüsusda aldığımız siqnallar da ondan ibarətdir ki, Ermənistanda tezliklə yeni konstitusiyanın qəbul olunması istiqamətində proses başlayacaq. Ola bilsin ki, milli referendum keçirilsin. Preambulada Azərbaycana qarşı ərazi iddiaları da Ermənistan konstitusiyasından çıxarıldıqdan sonra biz sülh sazişinin yekun olaraq imzalanması üçün bir problem görmürük. Amma bunun fövqündə bölgəmizdə artıq de-fakto olaraq real sülh mövcuddur", - deyə o qeyd edib.




Hikmət Hacıyev həmçinin İsrailin 1915-ci il hadisələrinə dair hazırladığı qətnamə ilə də bağlı danışıb. "Bu, Azərbaycanı ciddi şəkildə narahat etdi, çünki qardaş Türkiyənin maraqlarını Azərbaycan həmişə özü üçün prioritet hesab edib və bu bizim üçün həmişə qırmızı xətdir. Bu məsələ ortaya çıxan kimi bununla bağlı Cənab Prezidentimizin təlimatı ilə Azərbaycan da intensiv diplomatiya trafikinə başladı. İsrailə də biz mesajları aydın şəkildə çatdırdıq ki, belə bir qərarın qəbul edilməsi birincisi, ədalətsizdir, tarixi reallığı əks etdirmir və bu qərarın qəbul edilməsini də biz düzgün hesab etmirik. Müsbət bir haldır ki, İsrail tərəfindən də Azərbaycanın bu ismarıcları ciddi şəkildə qəbul edildi və hesab edirik ki, məsələnin daha da irəliləməsinin qarşısı alındı. Biz hesab edirik ki, bu, heç bir halda tarixi reallığı əks etdirməyən, tamamilə ədalətsiz bir addım olardı", - deyə Hikmət Hacıyev qeyd edib.

O, 1915-ci il hadisələrinin Qərb ölkələri tərəfindən Türkiyəyə qarşı bir propaqanda mövzusu kimi istifadə edildiyini də vurğulayıb. Hikmət Hacıyev Türkiyə ilə Azərbaycan arasındakı qardaşlıq münasibətlərinə də diqqət çəkib. İki ölkənin hər zaman bir-birilərinin maraqlarını müdafiə etdiyini və müdafiə etməyə də davam edəcəyini diqqətə çatdırıb:

"Türkiyənin olmadığı masada Azərbaycan vardır, Azərbaycanın olmadığı masada da Türkiyə vardır. Ona görə də ölkəmizin maraqlarına qarşı olan hər bir addıma biz qəti şəkildə cavab veririk və bundan sonra da cavab verəcəyik".

Hikmət Hacıyev həmçinin erməni minalarının təmizlənməsi üçün aparılan işlərlə bağlı son vəziyyəti açıqlayıb:

"İntensiv şəkildə işlərimizi aparırıq, çox böyük əraziləri təmizləmişik və bu məsələ ilə bağlı dərin məlumatlar əldə etmişik. Texnoloji inventarımızı çox artırmışıq, robotlaşdırılmış mina təmizləmə cihazlarımız var və qardaş Türkiyədən də aldığımız cihazlarımız var ki, olduqca effektiv iş həyata keçirirlər".

## Politoloq: "Pekinin qərarı qətidir, Tayvan Çinə aiddir..."

**"İran ətrafında vəziyyət qeyri-müəyyənliyini qoruyur. Bu arada, ABŞ tərəfdaşlarıyla Qəzza planını həyata keçirməyə çalışır. Qərb mənbələri "HƏMAS" qruplaşmasının tərksilah olunmasına razılıq verdiyi xəbərlərini yayırlar. Ancaq bu o halda mümkün olacaq ki, İsrail hərbi birliklərini Qəzza bölgəsindən çəksin".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

O, bildirib ki, Rusiya-Ukrayna müharibəsində isə dəyişən heç nə yoxdur, qarşılıqlı raket və dron atışları davam edir. Vaşinqton İranla müharibəni davam etdirdiyi, Qəzza ilə bağlı planın icrasına başladığı və Rusiya-Ukrayna müharibəsini bitirmək üçün yenidən vasitəçilik təşəbbüslərinə geri dönəcəyi dönəmdə Çini də diqqətdən kənar qoymayıb:

"ABŞ dövlət katibi Mark Rubio "Fox News" telekanalına son müsahibəsində bildirib ki, Vaşinqtonla Pekin arasında istənilən iqtisadi və ya hərbi qarşıdurma bütün dünya üçün böyük fəlakətlə nəticələnə bilər. Rubionun sözlərinə görə, yaranmış mürəkkəb vəziyyət diqqətlə idarə edilməli və ABŞ-nin milli maraqları qurban verilməməlidir. Rubio Pekinlə dialoqa baxmayaraq, ölkəsinin milli və təhlükəsizlik maraqlarından geri çəkilməyəcəyinə də işarə edib. Onun "biz bu prosesləri tənzimləməliyik, ancaq dövlət maraqlarımızdan da əl çəkə bilmərik. Xarici siyasətin ən çətin işi də elə budur" cümləsi də bundan xəbər verir. Rubio bunu deyərkən Tayvanı xatırladıb. Rubio Vaşinqtonun təzyiq və ya məcburiyyət yolu ilə Tayvan ətrafındakı status-kvonu dəyişdirmək üzrə hər hansı cəhdə qarşı çıxdığını bildirib. "Biz hazırkı status-kvoda heç bir dəyişikliyi dəstəkləmirik. Məcburiyyət və təzyiq vasitəsilə status-kvonun hər hansı formada dəyişdirilməsinin əleyhinə olardıq" - deyən dövlət katibi Vaşinqtonun ikitərəfli görüşlər zamanı bu mövqeyi Çin tərəfinə aydın şəkildə çatdırdığını xatırladıb. Rubionun ikibaşlı açıqlaması Pekini rahatlatmaz. Çünki, Rubio bir tərəfdən Pekinlə normal münasibətlərə çalışdığını, digər tərəfdən Vaşinqtonun Tayvan məsələsində qəti mövqeyindən geri çəkilmədiyini bildirib. Halbuki, Pekinin qərarı qətidir: "Tayvan Çinə aiddir və birləşmə prosesinə heç bir dövlət, o cümlədən ABŞ mane olmamalıdır".

Politoloqun sözlərinə görə, Pekin Vaşinqtonun dünyadakı resurslar uğrunda sərt mübarizəsindən də şikayətçidir:

"Süni intellekt sahəsi iki ölkə arasında kəskin rəqabət meydanına çevrilib. Çin özünü dünyaya geniş şəkildə təqdim edilməli olduğunu söyləyən aşağı qiymətli, açıq mənbəli süni intellekt texnologiyasının çempionu kimi təqdim edir. Mövcud durum Ağ Ev administrasiyasını ciddi narahat edir. Tramp administrasiyası hesab edir ki, Çin süni intellekt modellərini tənzimləmək yolunu seçib. Pekin isə əksinə, ABŞ-ni "süni intellekt hegemonluğunda" günahlandırır. Digər tərəfdən Çin hakimiyyəti süni intellekt sistemlərinin sərt senzura filtrləri aşa biləcəyindən narahatdır. Çinin süni intellekt sahəsində ABŞ-ilə rəqabət aparmaq üçün qlobal bir təşkilat yaratmaşı qərarı Pekinin Vaşinqtonu qabaqlamaq istəyindən irəli gəlir. Çinin rəhbərliyi ilə ötən ay qurulan Ümumdünya Süni İntellekt Əməkdaşlıq Təşkilatına (WAICO) 29 ölkə qoşulub. Təsis müqaviləsi Şanxayda keçirilən mərasimdə imzalanıb. Çin süni intellekt sahəsində ətrafına daha çox tərəfdaş toplamaqla Vaşinqtonun "Süni intellekt Fəaliyyət Planı" ilə rəqabətə hazırlaşır. Süni intellektin inkişafı sahəsində geri qalan ölkələr isə bu sahədə daha irəlidə olan ya ABŞ, ya da Çinə qoşulacaqlar".

**Vasif ƏLİHÜSEYN**

## Qarabağda 3 mindən çox yeni abunəçi telekommunikasiya xidmətlərinə qoşuldu



**"AZCON Holding" şirkətlərindən olan "Aztelekom" MMC "Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında rabitə və internet xidmətlərinin genişləndirilməsi istiqamətində fəaliyyətini davam etdirir.**

Adalet.az xəbər verir ki, bu ilin yanvar-iyun ayları ərzində 3,367 yeni abunəçinin (3,195 ev təsərrüfatı və 172 biznes subyekti) xidmətlərə qoşulması nəticəsində Dövlət Proqramının icrasına başlanıldığı vaxtdan cari ilin iyul ayınadək azad edilmiş ərazilərdə telekommunikasiya şəbəkəsinə qoşulanların ümumi sayı 10,495 abunəçiyə (9,951 ev təsərrüfatı və 544 biznes subyekti) çatıb.

Qeyd edək ki, hesabat dövründə işğaldan azad olunmuş ərazilərdə yerləşən 11 şəhər mərkəzi, 34 kənd və qəsəbədə yeni abunəçilərin yüksəksürətli internet və telefoniya xidmətlərinə qoşulması təmin edilib.

"Aztelekom" MMC tərəfindən həyata keçirilən tədbirlər bölgədə mövcud rabitə infrastrukturunun imkanlarının genişləndirilməsinə və əhalinin rəqəmsal xidmətlərə çıxışının artırılmasına yönəlib.



*Könül NURULLAYEVA,*
*Milli Məclisin deputatı*

# Azərbaycan Mərkəzi Asiya dövlətləri üçün əsas tranzit və logistika tərəfdaşıdır

**Prezident İlham Əliyevin Qırğız Respublikasına dövlət səfəri iki ölkə arasında münasibətlərin tarixində keyfiyyətcə yeni mərhələnin başlanğıcıdır.Səfər çərçivəsində imzalanan "Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında Müttəfiqlik münasibətləri haqqında Müqavilə" Bakı ilə Bişkek arasında əməkdaşlığı strateji tərəfdaşlıq səviyyəsindən müttəfiqlik səviyyəsinə yüksəltdi. Bu, həm ikitərəfli münasibətlər, həm də Türk dünyasının inteqrasiyası, Cənubi Qafqaz-Mərkəzi Asiya əməkdaşlığı və Avrasiya geosiyasəti baxımından mühüm əhəmiyyət daşıyır.**

Hazırki geosiyasi şəraitdə Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında əlaqələrin sürətlə inkişafı zərurətə çevrilib. Xəzər dənizi Şərqlə Qərbi birləşdirən strateji körpü rolunu oynayır. Bu baxımdan Prezident İlham Əliyevin Qırğızıstana dövlət səfəri regional əməkdaşlığın yeni istiqamətlərini müəyyənləşdirdi. Dövlətlərarası münasibətlər ən yüksək səviyyəyə qaldırıldı.

Azərbaycan və Qırğızıstan artıq münasibətlərini dostluq və strateji tərəfdaşlıq çərçivəsində, həmçinin qarşılıqlı öhdəliklərə əsaslanan müttəfiqlik formatında inkişaf etdirəcəklər.

Bakı və Bişkek beynəlxalq təşkilatlarda, təhlükəsizlik məsələlərində, iqtisadi əməkdaşlıqda və regional təşəbbüslərdə bir-birinə daha güclü siyasi dəstəyi davam etdirəcək.

Bişkek də Azərbaycanla münasibətləri uzunmüddətli strateji perspektivdə inkişaf etdirmək niyyətindədir. İki ölkə arasında siyasi dialoq artıq ən yüksək səviyyəyə çatıb və qarşılıqlı etimad möhkəm təməl yaradıb.

Səfər zamanı dövlət başçıları Azərbaycan-Qırğızıstan İnvestisiya Fondunun kapitalının 100 milyon dollardan 200 milyon dollara çatdırılması barədə qərar qəbul etdilər. Bu qərar sənaye, kənd təsərrüfatı, logistika, emal sənayesi və turizm kimi sahələrdə birgə layihələrin maliyyələşdirilməsi üçün yeni imkanlar yaradır.

Səfər zamanı İssık-Kul gölünün sahilində Azərbaycanın maliyyə dəstəyi ilə inşa olunan beşulduzlu "Bakı" hotelinin açılışı da rəmzi məna daşıyır. Prezident İlham Əliyev bu layihəni Azərbaycan investisiyalarının dost ölkələrin inkişafına töhfəsi kimi qiymətləndirib. Sadır Japarov isə bu layihənin "xalqlarımız arasında möhkəm dostluğun daha bir rəmzi" olduğunu vurğuladı.

Geosiyasi baxımdan səfərin ən mühüm istiqamətlərindən biri Cənubi Qafqaz ilə Mərkəzi Asiya arasında yeni əməkdaşlıq platformasının formalaşmasıdır. Cənab Prezidentin açıqladığı statistik rəqəmlər də diplomatik fəallığın miqyasını nümayiş etdirir. Belə ki, 2023-cü ilin əvvəlindən Mərkəzi Asiya ölkələrinə 16 səfər, həmin ölkələrin liderlərinin isə Azərbaycana 26 səfəri həyata keçirilib.

Bu gün Orta Dəhliz Avrasiyanın yeni iqtisadi və geosiyasi arxitekturasının əsas elementlərindən biridir. Xəzər dənizi üzərindən keçən marşrutların əhəmiyyətinin artması Azərbaycanı Mərkəzi Asiya dövlətləri üçün əsas tranzit və logistika tərəfdaşına çevirir.

Bu kontekstdə Prezident İlham Əliyevin Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşündə ilk dəfə tamhüquqlu üzv kimi iştirakı da xüsusi siyasi əhəmiyyət daşıyır.

Bu gün Azərbaycanla Mərkəzi Asiya münasibətləri institusional xarakter almaqdadır və regional əməkdaşlıq mexanizmlərində ölkəmizin rolu daha da artır.

**Cənab Prezidentin Qırğızıstan səfəri humanitar əməkdaşlığın dərinləşdirilməsi baxımından da əlamətdar oldu. Qarabağın bərpasında Qırğızıstanın dəstəyi, Ağdamda məktəb inşası, həmçinin Çingiz Aytmatovun irsinin birgə təbliği, qarşılıqlı Mədəniyyət Günlərinin keçirilməsi və dostluq parklarının salınması ortaq türk kimliyinin və mədəni bağların daha da möhkəmləndiyini göstərir.**

*Rüstəm Hacıyev*



# ABŞ İranı yeni hücumlarla hədələyir

***Yaxın Şərqdə vəziyyəti nizamlamaq mümkün olacaqmı?***

***ABŞ prezidenti Donald Trampın İrana qarşı kütləvi hücumları dayandırması, regionda vəziyyəti nisbətən yumşaldıb. Lakin, buna baxmayaraq amerikan lideri Tehranı irimiqyaslı hərbi əməliyyatlarla hədələməkdə davam edir.***

***Ekspertlərin fikirincə, Vaşinqton İran İslam Respublikasında müvəqqəti qeyri-müəyyənlik yaratmaqla, qəsdən "emosional karusel" planını həyata keçirməyə, qəfil hücum etmək üçün şərait yaratmağa çalışır.***

***Donald Tramp İrana kütləvi hücumların dayandırıldığını elan edir, ardıncada "İkinci Dünya müharibəsindən sonra, ən böyük hərbi əməliyyatlara başlayacağını" bəyan edir.***

***ABŞ prezidenti kütləvi hücumların dayandırılmasını İranın Hörmüz boğazını bütün istiqamətlərdə tam açacağını bəyan etməsiylə əlaqələndirib. Rəsmi Tehran isə, Trampın bu bəyanatını təkzib edərək bildirib ki, ABŞ İrana təcavüzü dayandırmayana qədər, İslam Respublikası Hörmüz boğazını açmayacaq.***

***İranın müdafiə nazirinin səlahiyyətlərini icra edən Sərdar Məcid ibn-əl Reza, Trampın sözlərini "koqnitiv müharibədə psixoloji əməliyyat" adlandıraraq, əlavə edib ki, Tehran istənilən halda təhdidlərə ciddi yanaşır və onu qəflətən yaxalamaq mümkün deyil.***

***Qarşılıqlı ittihamlar və inamsızlıq vəziyyəti istənilən vaxt nəzarətdən çıxara bilər. Dünya ictimayyəti artıq bir neçə dəfə atəşkəs elan edilməsinə baxmayaraq, qarşılıqlı kütləvi hücumların şahidi olub. Ona görə də, Trampın İrana qarşı kütləvi hücumların dayandırılması ilə bağlı bəyanatını, "tufan qabağı sükut" kimi qiymətləndirmək olar.***

# Kartlara limit qoyulması ilə bağlı rəsmi açıqlama

**"Azərbaycan Banklar Assosiasiyası" (ABA) və "Azərbaycan Fintex Assosiasiyası" (AzFina) İctimai Birlikləri bankların və elektron pul təşkilatlarının xidmətlərindən sui-istifadə risklərinin minimallaşdırılması məqsədilə ödəniş alətlərinə mədaxil əməliyyatları üzrə risk əsaslı yanaşmanın tətbiq olunması ilə bağlı razılaşma əldə edib.**



Adalet.az xəbər verir ki, bu barədə ABA açıqlama yayıb.

Açıqlamada deyilir:

"Sözügedən yanaşmaya əsasən, ödəniş xidməti istifadəçilərinə məxsus olan hər bir ödəniş aləti üzrə gündəlik olaraq maksimum 5 sayda, aylıq olaraq isə maksimum 20 min manata qədər mədaxil əməliyyatlarının həyata keçirilməsi imkanı nəzərdə tutulur. Bu çərçivədə, həmçinin, banklar və elektron pul təşkilatları tərəfindən ödəniş xidməti istifadəçilərinə onların hər bir hesabına bağlı istənilən maliyyə xidməti məhsulu üzrə yalnız bir ödəniş alətinin təqdim edilməsi nəzərdə tutulur. İndiki mərhələdə, ödəniş alətləri üzrə məxaric əməliyyatları ilə bağlı hər hansı limitin tətbiqi nəzərdə tutulmayıb.

"Bu yanaşma risk əsaslıdır və müştərilərin sağlam xarakterli mədaxil əməliyyatlarının məhdudulaşdırılmasını nəzərdə tutmur. Belə ki, bank və elektron pul təşkilatı müştərilərinin özlərinə və yaxın qohumlarına aid olan ödəniş alətləri üzrə mədaxil əməliyyatları qeyd olunan limitlərin tətbiqindən istisna edilir. Eyni zamanda, müştərilər tərəfindən aparılan əməliyyatlar barədə zəruri məlumatlar təqdim ediləcəyi və həmin əməliyyatların müştərilərin risk profilinə uyğun olacağı hallar üzrə də limitlərin tətbiqi nəzərdə tutulmur. Analoji olaraq, ödəniş xidməti istifadəçiləri tərəfindən müvafiq əsaslandırmalar təqdim ediləcəyi təqdirdə, banklar və elektron pul təşkilatları tərəfindən onlara zəruri əlavə ödəniş alətlərinin təqdim edilməsi təmin olunacaq.

Sözügedən yanaşma sağlam ödəniş əməliyyatı təcrübəsinə malik olan ödəniş xidməti istifadəçiləri üçün hər hansı bir əlavə məhdudiyyət və ya çətinlik yaratmayacaq və onların gündəlik əməliyyatlarına mənfi təsir etməyəcək.

Ödəniş xidməti istifadəçilərinin rəqəmsal ödənişlərin üstünlüklərindən, o cümlədən təsərrüfat subyektlərində quraşdırılmış POS-terminal infrastrukturundan və elektron bankçılıq xidmətlərindən ənənəvi qaydada istifadə edərək öz ödəniş əməliyyatlarını icra etməyə davam edəcəklər", - deyə açıqlamada qeyd olunub.

# "Fondun vəsaitinin 200 milyon dollara çatdırılması sahibkarlar üçün yeni fürsətdir..."



**"Azərbaycan Prezidentinin Qırğızıstana səfəri zamanı əldə edilən razılaşmalardan biri də Azərbaycan və Qırğızıstan Birgə İnvestisiya Fondunun maliyyə imkanlarını ikiqat artıraraq 200 milyon dollara çatdırmaq barədə idi. Azərbaycan Prezidenti mətbuata bəyanatında bunun da son hədd olmayacağını bildirərək əlavə etdi ki, Fondun fəaliyyəti üzrə bizə nümayiş etdirilən təqdimat konkret məzmunla zənginləşir".**

Adalet.az xəbər verir ki, bunu millət vəkili Vüqar Bayramov deyib.

O, 200 milyon dollar hansı istiqamətlərə xərclənəcəyini də açıqlayıb:

"Fondun vəsaitinin 200 milyon dollara çatdırılması sahibkarlar üçün yeni fürsətdir. Çünki, sahibkarlar öz layihələrini təqdim etməklə fonddan maliyyə cəlb edə bilirlər və bu imkan daha da genişlənməkdədir.

Fond tərəfindən artıq bir sıra layihələrin maliyyələşdirilməsi həyata keçirilməkdədir. Mətbuata bəyanatında cənab Prezidentin qeyd etdiyi kimi, Qırğızıstanda həyata keçirilən çoxlu layihə var və onlar birgə istehsal, yeni iş yerləri yaradır, qarşılıqlı fəaliyyətimizin iqtisadi potensialını möhkəmləndirir".

V.Bayramovun sözlərinə görə, bu platforma çərçivəsində Azərbaycan və Qırğızıstan sahibkarlıq subyektlərinin aqrarsənaye kompleksi, energetika, bağçılıq, tekstil, turizm və digər sahələr üzrə prioritet layihələrin maliyyələşdirilməsi həyata keçirilir:

**"Daha öncə, Fond Qırğızıstanda kiçik su elektrik stansiyasının (SES) və müasir tikiş fabrikinin tikintisini maliyyələşdirilməsi barədə qərar qəbul etmişdi. Bütövlükdə, fondun nizamnamə kapitalı Azərbaycan, beynəlxalq maliyyə institutları, xarici hökumətlərin maliyyə təşkilatları tərəfindən, habelə Qırğız Respublikasının qanunvericiliyi ilə qadağan olunmayan digər mənbələrdən formalaşır. Fondun imkanlarının genişləndirilməsi iki ölkə arasındakı strateji tərəfdaşlığı daha da gücləndirir".**

**Sübhan**

# Su yoxdur, amma sayğac işləyir?

**Sosial şəbəkələrdə su borusundan yüksək təzyiqlə hava axınını əks etdirən video paylaşılıb.**



Adalet.az xəbər verir ki, videoda iddia edilir ki, su borusundan hava çıxır, su yoxdur. Hava axını isə sayğacın işləməsinə səbəb olur.

Bəs bu nə dərəcə realdır?

Məsələ ilə bağlı kommunal məsələlər üzrə ekspert Nüsrət Qasımov bildirib ki, su sisteminə tez-tez hava vurulması mümkün deyil. Onun sözlərinə görə, hava yalnız su kəsintisi zamanı və ya yalnız suyun verilişi bərpa edilərkən hava axını daxil olur:

"Müəyyən bir ərazidə su bağlana bilər. Bəzi xidmətlər üçün və ya əlavə xətlər, təmir zamanı əhalidə olan gidrafonlar yeni susovuranlar işə düşür. Borunun içində olan suyu sovurub aparır yerinə hava daxil olur. Bu da küllü miqdarda zərər vurmur. Az miqdarda olan birşeydir. Ərazidə olan mənzillərə sistemli şəkildə paylanır".

Məsələ ilə bağlı ADSEA-dan bildirildi ki, su xətlərinin üzərində xüsusi hava buraxıcılar, vantuslar, quraşdırılır. Bu qurğuların əsas funksiyası boru xətlərində toplanan havanı avtomatik şəkildə xaric etməkdir.



**_Fazil MUSTAFA_**

# Hər kəsin öz seçimi var

**Adam deyir ki, filan şairi və şeirlərini bəyənmirəm. Bəyəndiyim başqa şairlərdir. Nə həmin şairi təhqir edir, nə də şeirini. Dünəndən bəri yüzlərlə xəstə təfəkkürlü əlinə çomaq alıb düşüb adamın üstünə ki, sən kimsən ki, mənim bəyəndiyim şairi bəyənmirsən.**

**Digəri isə deyir ki, belə müqayisə aparmaq tərbiyəsizlikdir. Ən azı mən bilirəm ki, adam hücum çəkənlərin hamısını bir zala yığıb "poeziya nədir, ədəbiyyat nədir" mövzusunda heyrətləndirəcək səviyyədə akademik mühazirə oxuya bilər. Sadəcə adamın "Ədəbiyyat üzrə Nobel mükafatçıları" adlı unikal əsəri ilə tanış olanlar daha çox aydınlanma fürsəti qazanar bilərdilər. Kimsə Səməd Vurğunun, kimsə Bəxtiyar Vahabzadənin, kimsə Rəsul Rzanın, kimsə Ramiz Rövşənin, kimsə Nəriman Həsənzadənin, kimsə də Aqşin Yeniseyin şeirlərini bəyənməz, bu onların mərtəbəsini azaltmaz ki... Bəyənənlər də nuşi-canla buyurub oxumağa, sevməyə davam etsinlər. Burada mübahisəlik, münaqişəlik nə var ki...**



**Plüralizm deyilən, zövq deyilən bir mücərrəd nəsnə var. Belə anlaşılır ki, bu ölkədə müqəddəs yalnız peyğəmbəri elan etməyiblər, hər kəs özünün əlavə müqəddəslərini artıq çoxdan yaradıb, kimsə barədə düşünüləni olduğu kimi söyləmək mümkün deyil. Mən Hüseyn Cavid poeziyasına böyük dəyər verirəm, ötənlərdə zövqünə güvəndiyim insanlardan biri söhbət əsnasında Cavidin şeir üslubunu bəyənmədiyini söylədi və bir neçə inandırıcı nümunələr də gətirdi. Əlbəttə, bu yanaşma mənim fikrimi dəyişmədi və eləcə də həmin şəxsə münasibətimi dəyişmədi. Zövq zorakılığı, düşüncə təcavüzü cəmiyyətimizdə fəlakətli şəkildə yayğınlaşıb. Deyiləsi bir söz qalır: Dünya poeziyası-zadı hamısı yalandır. Azərbaycan şairlərindən böyük dünyada kimsə yox! Haradasa oxuduğum və müəllifini xatırlamadığım bir şairin Sumqayıt haqqında Sovet ideologiyasının coşqusuyla yazdığı şeirin bir bəndi bu məqamda yadıma düşdü:**

**Nə gözəldir axşamüstü**
**Borulardan çıxan tüstü!**

**Allahı sevərsiniz, bu borulardan çıxardığınız tüstülərlə mədəni mühitimzi, düşüncə həyatımızı lütfən kirləndirməyin!**

# "Rusiyanın bu tələbi Paşinyan hakimiyyətinə mənasız təzyiq xarakteri daşıyır"

**"Uzun müddət Ermənistan Rusiyanın Güney Qafqazda forpostu olub. Rusiya Ermənistanda yalnız xarici siyasətin deyil, daxili siyasətin də əsas təsir mərkəzlərindən biri olub. Ermənistanın təhlükəsizlik sistemi, enerji sektoru, iri biznes qrupları, media resurslarının bir hissəsi və siyasi elitanın mühüm seqmenti Rusiya ilə sıx bağlı olub. Bu model Robert Köçəryan və Serj Sarkisyan dövründə xüsusilə gücləmişdi".**

Adalet.az xəbər verir ki, bunu politoloq Qulamhüseyn Əlibəyli deyib.

O, bildirib ki, lakin 2018-ci ildə baş verən hakimiyyət dəyişikliyi bu sistemi ciddi şəkildə sarsıtdı:

"Paşinyan əvvəlki siyasi elitanın mühüm hissəsini hakimiyyətdən uzaqlaşdırdı, yeni idarəçilik komandası formalaşdırdı və dövlət institutlarında Rusiyaya yaxın hesab edilən bir çox təsir kanallarını zəiflətdi. Bu, Kremlin Ermənistanda uzun illər ərzində qurduğu siyasi dayaqlarını əhəmiyyətli dərəcədə zəiflətdi. Bu gün Ermənistan hakimiyyətinin Qərb meylli siyasəti Rusiyanın və ölkə daxilindəki revanşist qüvvələrin ciddi müqaviməti ilə üzləşir. Parlament seçkiləri yolu ilə hakimiyyət dəyişikliyinə nail ola bilməyən Rusiya Ermənistanda daxili siyasətə təsir vasitələrinin əhəmiyyətli hissəsini itirsə də, hələ də müəyyən imkanlarını saxlayır. Bu imkanlar ilk növbədə iqtisadi təsir mexanizmləri ilə bağlıdır".

Politoloqun sözlərinə görə, Ermənistan iqtisadiyyatı, xüsusən də enerji sistemi, xarici ticarətin mühüm hissəsi, əmək miqrasiyası və maliyyə axınları hələ də əhəmiyyətli dərəcədə Rusiya ilə bağlıdır və Rusiya bu sahələrdə təzyiq mexanizmlərini işə sala bilər:

"Ermənistanın kənd təsərrüfatı məhsullarının Rusiya bazarlarına daxil olmasına qadağa qoyulması bu mexanizmlərdən biridir və Ermənistan fermerlərinin hakimiyyətdən narazılığını gücləndirib. Lakin belə addımların siyasi nəticəsi əvvəlcədən proqnozlaşdırıldığı kimi olmaya da bilər. Xarici təzyiq çox vaxt cəmiyyəti hökumətin ətrafında birləşdirən amilə də çevrilə bilər. İkinci istiqamət daxili siyasi qüvvələrdir. Ermənistanın müxalif qüvvələrin əhəmiyyətli hissəsi Rusiya ilə müəyyən dərəcədə bağlıdır, Rusiyapərəst mövqe tutan siyasi partiyalar, ictimai təşkilatlar və nüfuzlu siyasi fiqurlar mövcuddur. Ancaq onların son seçkilərdə geniş ictimai dəstək əldə edə bilməməsi göstərir ki, Kremlin ənənəvi tərəfdaşlarının sosial bazası əvvəlki illərlə müqayisədə xeyli məhdudlaşıb. Üçüncü istiqamət informasiya məkanıdır. Rusiya mediası və rusdilli informasiya resursları hələ də Ermənistan cəmiyyətinin müəyyən hissəsinə təsir göstərir. Lakin son illərdə qərbyönlü media platformalarının və sosial şəbəkələrin təsiri artdığından informasiya üstünlüyü artıq birtərəfli deyil. Bu istiqamətdə maraqlı məsələlərdən biri də artıq tarixə qovuşmuş Qarabağ probleminin vaxtaşırı yenidən qabardılmasıdır. Qarabağ məsələsi hələ də Ermənistan cəmiyyətinin müəyyən bir kəsimində həssas mövzu olaraq qalır və Rusiya rəsmiləri tərəfindən müntəzəm olaraq siyasi təsir vasitəsi kimi istifadə olunur. Dördüncü istiqamət təhlükəsizlik faktorudur".



Q.Əlibəyli deyib ki, Ermənistan ordusunun maddi-texniki təminatı və silah sistemlərinin əhəmiyyətli hissəsi hələ də Rusiya istehsalıdır:

"Bununla belə, son illərdə ABŞ, Fransa, Hindistan və digər tərəfdaşlarla hərbi əməkdaşlığı genişləndirməsi bu asılılığı mərhələli şəkildə azaltmaq niyyətindən xəbər verir. Ermənistanda Rusiyanın hərbi bazasının yerləşməsi, sərhədlərin bir hissəsinin rus hərbçiləri tərəfindən qorunması da təsir mexanizmlərindən biri hesab oluna bilər.Bütün bu təsir mexanizmlərinə baxmayaraq, Paşinyan hakimiyyətinin də müəyyən üstünlükləri var. Ən mühüm üstünlük Paşinyan hakimiyyətinin daxili legitimliyidir". O, deyib ki, Rusiyanın və rusyönümlü müxalifətin bütün cəhdlərinə baxmayaraq baxmayaraq, Paşinyan son illərdə keçirilmiş parlament seçkilərində hakimiyyət mandatını seçki yolu ilə yenidən təsdiqləyə bilib:

"Bu, onun siyasi legitimliyini əvvəlki hakimiyyətlərdən fərqləndirən əsas xüsusiyyətdir. Beynəlxalq ictimaiyyət və xarici dövlətlər üçün seçki yolu ilə legitimlik qazanmış hökuməti zəiflətmək, cəmiyyətin geniş dəstəyini itirmiş hakimiyyətdən daha çətindir. Bütün bunlar göstərir ki, Kreml üçün əsas məqsəd mütləq Paşinyanı hakimiyyətdən uzaqlaşdırmaq olmaya da bilər. Lakin onun manevr və qərar qəbul etmək imkanlarını ciddi şəkildə məhdudlaşdırmaq istiqaməti Kremlin daha real strategiyası kimi görünür. Lakin burada Kremlin də nəzərə almalı olduğu mühüm bir məqam var. Əgər Rusiyanın təzyiqləri Ermənistan cəmiyyətində "xarici müdaxilə" kimi qəbul edilərsə, bu, gözlənilən nəticənin əksinə olaraq, Paşinyanın mövqeyini gücləndirə bilər. Təcrübə göstərir ki, xarici təzyiq çox vaxt daxili siyasi həmrəyliyi artırır. Müasir İran cəmiyyətini buna nümunə kimi göstərmək olar. Bu baxımdan Rusiyanın Paşinyan hakimiyyətini zəiflətməyə hesablanmış hər bir addımı sonuncunun siyasi legitimliyini daha da gücləndirmək riski daşıyır. Məhz buna görə Moskvanın yaxın perspektivdə açıq qarşıdurmadan daha çox, uzunmüddətli və çoxşaxəli təsir strategiyasına üstünlük verməsi daha real görünür.Eyni zamanda qeyd etmək lazımdır ki, Ermənistanın daxili siyasi dinamikası, iqtisadi vəziyyəti və regional geosiyasi hadisələr Rusiyanın seçimlərini və təsir rıçaqlarını dəyişə biləcək amillər olaraq qalır. Bu səbəbdən hər hansı ssenarini qəti nəticə kimi deyil, mövcud tendensiyalar əsasında mümkün inkişaf variantı kimi dəyərləndirmək daha düzgün olardı.Avropa İttifaqı ilə Aİ arasında seçim məsələsinin referendum yolu ilə həll olunmasının vacibliyini məsələsinə gəldikdə isə qeyd etmək lazımdır ki, həqiqətən də Aİnin qaydalarına görə bu təşkilata üzvlük məsələsi referendum yolu ilə həll edilmə-dir. Lakin bu gün üçün Ermənistanın Aİ-na üzvlük məsələsi aktual deyil. Aİ-na və onun tərkibindən çıxmaq üçün isə referendum keçirmək vacib deyil; bu məsələdə Ermənistanın mövqeyi haqlıdır. Ona görə də Rusiyanın bu tələbi Paşinyan hakimiyyətinə mənasız təzyiq xarakteri daşıyır".

**Vasif ƏLİHÜSEYN**

# "Ermənilər Albaniyaya, İran Səfəvilərə sahib çıxmağa çalışır..."



**"Səfəvilər Azərbaycan dövlətidir. Səfəvilər tarixi Azərbaycan imperiyasıdır. Məhz Səfəvilər dövründə bütöv Azərbaycan oldu. Həmçinin xalq olaraq tarixdə imperiya yaratdıq. Şah İsmayılın Bakıda abidəsini cənab prezident İlham Əliyev yenidən bərpa etdirdi. Şah İsmayıl Xətai adına hərbi orden və Bakıda inzibati rayon var. Səfəvilərlə Azərbaycan dövlətçiliyi inkişaf etdi və Azərbaycan xalqının təşəkkülü və inkişafı ən yüksək mərhələyə qalxdı".**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib. O, bildirib ki, Səfəviləri məzhəbə görə İrana bağlamaq Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə və tarixinə qarşı gəlməkdir: "Səfəvilər imperiyası qədim Azərbaycan şəhəri olan Təbrizdə yaranıb. Azərbaycan şəhəri olan Ərdəbildə təşəkkül tapıb. Bu gün Ermənistan, İran Azərbaycanın tarixini olmadığını deyillər. Ermənilər Albaniyaya, İran Səfəvilərə sahib çıxmağa çalışır. Halbuki qədim Albaniyada, Səfəvilərdə Azərbaycan ərazisində yaranıb. Şah İsmayılla başlayaraq zəngin elmi və mədəni mühit formalaşdı. Səfəvilərə qədər Şirvanşahlar dövləti olub. Şirvanşahlar dövlətində ərəb və fars sülalələri hakimiyyətdə olub. Onda deyək ki, Şirvanşahlar ərəb və farsa aiddir?! Səfəvilər imperiyasında hakimiyyətdə isə, yalnız Azərbaycan türkləri olub. Səfəvilər Azərbaycan tarixidi və biz tariximizə sahib çıxmalıyıq. Səfəvilər orta əsrlərdə olub, 21 -ci əsr insanı orta əsrlər kimi düşünə bilməz. Biz Səfəvilərə tariximiz olaraq yanaşırıq".

**Vasif**

# "Hökməli hamının yadından çıxıb, ən geridə qalmış kənddir"

**"Prezident İlham Əliyevin 19 dekabr 2025-ci il tarixli Sərəncamı ilə Abşeron rayonunun Hökməli və Qobu qəsəbələri ərazisində avtomobil yollarının əsaslı təmiri məqsədilə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq 1.4 milyon manat ayrılıb. Sərəncamın imzalanmasından 8 ay keçməsinə baxmayaraq ərazidə heç bir iş görülməyib".**

Adalet.az xəbər verir ki, bunu hərbi ekspert Ədalət Verdiyev deyib.

O, bildirib ki, bu yol əslində bir neçə il əvvəl əsaslı təmir olunmuşdu, amma yolda yağış və kanalizasiya kollektorunun olmaması, yuxarıda yerləşən obyekt və evlərdən çirkab suların yola axıdılması nəticəsində yol qısa müddət ərzində sıradan çıxdı:



"Amma texniki nəzarətçilər yolu istismara qəbul etdilər. Hazırda yol bərbaddır, çirkab sular həm Araz market, həm də Meqastore istiqamətindən yola axıdılır. Tədbir görən də yoxdur. Ümumiyyətlə Hökməli kəndi ən geridə qalmış kənddir. Kənddə bir dənə olsun su, yol, nornal.marsrut, park, əyləncə yeri yoxdur, İcra hakimiyyəti və deputat xanım isə bu kənd ilə qətiyyən maraqlanmır. Son 15 ildə kənddə bələdiyyə tərəfindən bir zibil yeri tikilib, kəndin daxili yolları da bərbaddır. Ceyranbatanı gözlə görürük, amma suyundan içə bilmirik. Kənd əhalisi daim bu problemlər barədə mənə şikayət edir, mən də haqlı narazılığa qurumlardan və deputat xanımdan cavab ala bilmirəm, buna görə də problemi şəbəkədə işıqlandırmağa məcbur oluram. Hökməli hamının yadından çıxıb".

**Sübhan**

## "Prezidentin Qırğızıstan səfərinin mühüm mahiyyəti ondan ibarətdir ki..."



**"Rusiyanın Ukraynaya hücumundan sonra Mərkəzi Asiya ölkələri üzünü çevirib Çinə. Çünki bölgənin Rusiyadan savayı, alternativ kimi baxdığı İran, həmçinin Əfqanıstan və Pakistanda son dörd ilə vəziyyət daha da pisləşib, Beynəlxalq bazarlara rahat çıxış axtaran Mərkəzi Asiya ölkələri Avropa ilə ticarəti inkişaf etdirmək üçün Əfqanıstan və Pakistan üzərindən keçən Cənub Dəhlizinə, eləcə də İrana ümid bəsləyirdilər".**

Adalet.az xəbər verir ki, bunu politoloq Əziz Əlibəyli deyib.

Onun sözlərinə görə, məcbur qalan Mərkəzi Asiya ilk dəfə 2022-ci ildə Pakistan limanları vasitəsilə Hindistana yük göndərdi, amma bu yol heç vaxt tam işə düşmədi:

"Ukrayna müharibəsi zamanı dəstəyi ən çox artan yol Trans-Xəzər və ya Orta Dəhliz oldu. Avropa İttifaqı buna 12 milyard avro ayırıb. Çin də bu yolu özünün "Bir kəmər, bir yol" layihəsinə daxil edib.

ABŞ Çinlə ticarət münaqişəsinə və Çin təchizat zəncirlərindən asılılığı azaltmaq istəyinə baxmayaraq, Rusiyadan yan keçən digər yollarla yanaşı Orta Dəhlizin inkişafını da dəstəkləyir.

Orta Dəhlizin yük tranzitindəki payı hələ də təxminən 6 faizdir və kiçik görünür. Amma 2022-2024-cü illərdə bu yolla daşınan yüklərin həcmi üç dəfə artıb və artmaqda davam edir. Bu arada, mart ayında ABŞ və İsrailin İrana qarşı başladığı müharibə fonunda Tehran Hörmüz boğazını bağladı. ABŞ isə İranın Mərkəzi Asiya ilə ticarət üçün ən vacib iki limanı olan Bəndər Abbas və Çabahar da daxil olmaqla İran limanlarını blokadaya aldı. Proseslər Orta Dəhliz də zərərsiz ötüşməyib".

Politoloq bildirib ki, İranın Azərbaycanın anklavı olan Naxçıvandakı hava limanına zərər vurması və Xəzər dənizindəki İrana aid infrastrukturların hədəfə alınmasına baxmayaraq, indi Azərbaycan və Ermənistandan keçməsi planlaşdırılan tranzit yolu ilə bağlı ümidlər əvvəlki illərdən daha artıq real və cəzbedicidir:

"Prezident İlham Əliyevin Qırğızıstan səfərinin mühüm mahiyyəti ondan ibarətdir ki, artıq türk respublikaları dünyanın taleyini həll etmək üzrədir və yekun nöqtədəki həlledici gücün Azərbaycan olması faktı yeni xəttin bölgə və dünya üçün nəfəslik rolunu oynayacağı qaçınılmazdır".

**Vasif**

## Kimlərə gələn aydan kompensasiya ödəniləcək?



**Prezident İlham Əliyevin imzaladığı "Qeyri-neft-qaz malları üzrə ixracın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmana əsasən, ixrac rəsmiləşdirilmə xərclərinə görə sahibkarlara kompensasiyaların ödənilməsinə başlanacaq.**

Adalet.az xəbər verir ki, sənəd Azərbaycan mənşəli qeyri neft-qaz mallarını ixrac edən mikro, kiçik və orta sahibkarlıq subyektlərinin ixrac zamanı ödədikləri gömrük rəsmiləşdirilməsi xərclərinin dövlət tərəfindən kompensasiya edilməsini nəzərdə tutur.

Milli Məclisin deputatı Vüqar Bayramov bildirib ki, gələn aydan ödənilməyə başlanılacaq kompensasiyalar mənşə sertifikatı ilə müəyyənləşdiriləcək və vəsaiti Azərbaycan mənşəli malların ixracatını həyata keçirən mikro, kiçik və orta sahibkarlar ala biləcək:

"Bu zaman ixrac olunmuş qeyri neft-qaz mallarına görə gömrük rəsmiləşdirilməsi xərclərinin bir hissəsi dövlət tərəfindən qarşılanacaq".

Kompensasiyanın məbləğinə gəldikdə isə deputat qeyd edib ki, gömrük dəyəri üzrə tətbiq edilən yığım hədlərinə görə fərqli olacaq. 2026-cı il sentyabrın 1-dən 2031-ci il sentyabrın 30-dək həyata keçiriləcək ixrac əməliyyatlarına görə hesablanacaq kompensasiyalarda hər bir ixrac bəyannaməsi üzrə yuxarı hədd müəyyən ediləcək və ödənişlər ona əsasən veriləcək:

**"Kompensasiyaların verilməsi ixrac həyata keçirən mikro, kiçik və orta sahibkarların dövlət tərəfindən daha yaxından dəstəklənməsinə imkan verəcək. Bu, həmçinin qeyri neft-qaz ixracının strukturunun dəyişməsinə və bazarlar üzrə şaxələnməsinə də şərait yaradacaq".**

# "Hibrid savaş açan xarici qüvvələr də xurafat aşiqlərindən daha asan istifadə edə bilər"

**"Ənənəvi dinlə bərabər ənənəvi xurafatlar da yaşayır. Xurafatlar dini öz içində elə əridib ki, böyük əksəriyyət məhz onu din hesab edib inanır, hətta əməl də edir.Xurafatlar virus kimidir. Dini öz içindən məhv edir. Elə İslamın meydana çıxma səbəbi də əvvəlki inancların xurafat sayəsində təhrif olunması idi. Təsəvvür edin ki, xurafat uzun əsrlik kök salmış bütöv bir dini sistemi məhv edib əsas mahiyyətini dəyişə bilir.Ən dəhşətlisi də odur ki, hazırda xurafatçılığın din kimi təqdim olunmasına böyük səy göstərənlər var".**

Adalet.az xəbər verir ki, bunu ilahiyyatçı Tural İrfan deyib.

O, xarici dairələrin niyə dinin deyil də xurafatın yayılmasında maraqlı olduqlarını belə izah edib:

"Çünki xurafatda fanatizm, oxumaq - araşdırmaq əvəzinə sadəcə kor-koranə inanmaq var. Çünki xurafatda təqlidçilik, inadkarlıq, ekstremizm, istənilən istiqamətə yön vermək xüsusiyyətləri var. Xarici maraqları din yox, din adı sırınmış xurafat və mövhumat altında daha asan yeritmək olur. Həm də dində gərək ən azı Quranı oxuyasan, namazı, ibadətləri biləsən, əmrlərə, qaydalara riayət edəsən. Bu prinsiplərin əksəriyyəti də digər firqələrlə eynidir. Ona görə çox da dərinə getməmiş adam üçün din vasitəsi ilə bölücülük, təfriqə, nifaq, ədavət yaratmaq o qədər də asan deyil. Lakin xurafatın adını din, tarixi hadisələrin adını məzhəb, mövhumatın adını "eşq" qoyub meydana girəndə bircə şey lazım olur qara paltarı geyib kütləyə qoşulmaq. Bu zaman nə namaz, nə elm, nə kəlimeyi - şəhadətə ehtiyac qalmır.

Bu kütləyə qoşulanlar da, arxasında çoxluq arzulayan ruhanilər tərəfindən təqdir olunanda ləzzət alır, daha emosional şəkildə rol alırlar. Çünki dində məsuliyyət, mükəlləfiyyət, sərhədlər var. İbadət, əxlaq, ictimai davranış qaydaları, elm öyrənmə, Quranı oxuma və əməl etmə yükü var. Lakin xurafat səni bütün bu yükdən azad edir. Ömrü boyu bu şeylərdən uzaq ol, ömründə bircə dəfə istismarçı fedoal molaların tələsinə düş, kütləyə qoşulub dövrə vur, yallı get, sinənə vur, kifayətdir. Artıq sənin dərəcən "aşiqlik" dərəcəsidir



ki, heç bir elm oxuyan, ibadət edən o "ali zirvəyə" daha doğrusu "məqama" qalxa bilməz".

İlahiyyatının sözlərinə görə, hibrid savaş açan xarici qüvvələr də xurafat aşiqlərindən daha asan istifadə edə bilər:

"Xurafat bir qaranlıq, din isə nurdur. Düşmənə nur lazım deyil. Çünki məqsədini icra edərkən başqalarını tanıtmaq, aldatmaq, gözə görünməmək üçün məhz zülmət lazımdır. Xurafat və mövhumatın din pərdəsi altında təbliğatı Əfqanıstan, İran deməkdir. Əfqanıstanda artıq ərin arvadını həbs edib döymək "hüququ" bərpa edildi. Din adı ilə vüsət alan xurafatın çevrəsi bir qədər də böyüsə belə "hüquqların" tanınmasını tələb edən səsləri biz də eşidə bilərik. Mövhumat gizli, xurafat isə açıq xəstəlik kimidir. Biri içəridən, biri həm içəridən həm də çöldən, hərtərəfli məhv edir hədəfi.

Din, inanc azadlığı var, bu lazımdır. Bəs mövhumat və xurafat azadlığı necə? Bunun sərhədləri, doğurduğu təhdidlər, dünyəviliyə, sivil cəmiyyətə verdiyi zərər necə ölçülür? Dinin xurafatdan ayrılması üçün hansı meyarlar var?

Yoxsa elə xurafatı, mövhumatı da din hesab edib, adını azadlıq, tolerantlıq qoyub başını buraxmışıq? Bu cür olarmı?Həm peyvənd həm də virusun yayılmasına zəmin yaratmaq nə dərəcədə uyğun və uğurlu sayıla bilər?".

**Sübhan**

# Qarşıdurmadan konstruktiv dialoqa: Azərbaycanın yeni siyasi modeli

**"Dəfələrlə qeyd etmişəm, müxalifət dövlətin siyasi dayaqlarını möhkəmləndirmə vəzifəsini daşıyan bir sistem olmalıdır. Azərbaycanı Zəfər ölkəsinə çevirmək üçün yeni siyasi sistemə daxil olmaqla, ölkəmizin müasir şəraitinin tələblərinə uyğun gələn siyasi modelə ehtiyacı var idi və İlham Əliyev həmin modeli yaratdı. Humanizm prinsiplərinə söykənən konstruktiv dialoq mühiti yaratmaqla siyasi sabitlik və davamlı inkişaf prioritet olaraq qəbul olundu".**

Bunu Adalet.az-a açıqlamasında "Yeni Xətt" Siyasi Tədqiqatlar Mərkəzinin rəhbəri Ramil Hüseynov deyib.

Onun sözlərinə görə, müasir dövrdə bəlli oldu ki, sabitlik yalnız rəqabətlə deyil, həm də əməkdaşlıq, qarşılıqlı hörmət mədəniyyəti ilə möhkəmlənə bilir:

"Bu baxımdan, humanizm prinsiplərinə əsaslanan konstruktiv dialoqa təşviq edən yeni siyasi modelimiz iqtidar, müxalifət və xalq arasında yeni mərhələnin yaranmasını nəzərdə tuturdu. Beləliklə, biz bu sistemi yaratdıq.

Və bu siyasi modelin əsas ideyası siyasi qüvvələrin bir-birinə düşmən deyil, fərqli baxışlara malik tərəfdaş kimi qəbul olunmasıdır. Təbii ki, iqtidar bu prosesdə ciddi məsuliyyət daşıyır, çünki dövlətin inkişaf strategiyasına və idarə edilməsinə cavabdehdir. O məsuliyyətin arxasında dövlət və dövlətçilik durur".

Politoloq bildirib ki, Müxalifət isə sağlam alternativ ideyalar ilə siyasi sistemi möhkəmləndirə, ölkənin si-



yasi dayaqlarını gücləndirən təklif və ideyalara töhfə verməlidir: "Yaranan siyasi sistemin ayrılmaz hissəsi olaraq dövlətə və dövlətçiliyimizə xidmət göstərməliyik. Bu siyasi modeli qururuq.

Xalqımız bu münasibətlərin mərkəzində dayanaraq hadisələri izlədi, nəzarət etdi, tərəqqini və tənəzzülü müdafiə edənləri aşkarladı, tərəqqiyə, humanizmə, konstruktiv mövqeyə və müdrikliyə müdrikcəsinə etimad göstərdi.

Bu siyasi prosesin mahiyyətini, fəlsəfəsini dərk edənlər həmin yeni modelə daxil oldu, dəstəklədi və ölkədə siyasi etimadı, ictimai modeli gücləndirdi. Dövlət idarəçiliyində şəffaf və səmərəli qərarların qəbul olunması, müxtəlif siyasi baxışları dinc və hüquqi müstəvidə həll etməklə milli maraqlar ətrafında daha geniş siyasi konsensusun formalaşdırılması, daxili sabitliyin və uzunmüddətli inkişaf üçün yaradılan mühitin möhkəmləndirilməsi ilə fundamental konseptual model konsepsiyası ərsəyə gəldi. Bu, Azərbaycan modelidir.

Bunun arxasında milli-mənəvi dəyərlər, keçmişi unutmadan gələcəyə böyük işıq saçan milli ideologiya ortaya qoyuldu.

Bütün bunlar cəmiyyətin inkişafı naminə, xalqımızın rifahı naminə, dövlətimizin qüruru naminə həyata keçirildi. Fərqli baxışlar hamının qəbul etdiyi dövlətçiliyə xidmət yolunda uzlaşdı. Ölkədə hüquqi və siyasi sistem fərqli baxışları dövlətin və cəmiyyətin ortaq məqsədlərinə xidmətə hədəfləyən yeni bir sistem nəzəriyyəsinə nail oldu. Təəssüflər olsun ki, bu prosesdə öz düşmənçiliyini davam etdirən satqın tiplər və yeni modelə müxtəlif variantlardan istifadə edərək özünü daxil edən, lakin ayaqaltı qazanlar, vaxtilə öz "siyasi müəllimləri" tərəfindən üfürülüb şişirdilən, əslində isə çox kiçik və cılız olanlar da var. Amma artıq siz tanınırsınız, görünürsünüz. Çox kiçik və cılız olduğunuz xalqa bəllidir. Onlarla xalq məşğul olur, olacaq da".

R.Hüseynov deyib ki, dövlətimizin, bu vətənin, şanlı Azərbaycanın xidmətində durmaq ən şərəfli bir peşədir: "O peşənin yeni akademiyasını yaradan möhtərəm Prezidentə təşəkkürlər. Bu, heç də asan başa gəlməyib, çoxlu əziyyət hesabına başa gəlib. Bu akademiya hamının üzünə açıqdır. Amma ora daxil olmaqla deyil, orada Vətən və dövlət üçün yazılan siyasi kitablara, nəzəriyyələrə yiyələnmək, onlara töhfə vermək lazımdır.

O siyasi nəzəriyyələri təcrübəyə çevirən, həmin akademiyada böyük əziyyət və fədakarlıq göstərən bütün şəxslərə, dövlətçiliyimizin möhkəmlənməsi naminə çalışan hər kəsə, hüququn aliliyini təmin edən, qanunun keşiyində qətiyyətlə dayanan, satqın və xəyanətkarları layiqli cəzaya məhkum edən hüquq-mühafizə orqanlarına, bu yolda zəhməti olan bütün dövlət qulluqçularına, təhlükəsizlik və asayişin qorunması üçün gecə-gündüz xidmət göstərən əməkdaşlara, ölkəmizin inkişafı və dövlətçiliyimizin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən siyasətə görə möhtərəm Prezident cənab İlham Əliyevə səmimi təşəkkürlər.Hər şey Vətən, hər şey Azərbaycan üçün!".

**Vasif**



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Çox adam dərmanla yaşayır...

**Bir dostum var, gec-gec görüşürük! Görüşəndə soruşuram ki, nə var, nə yox?! Deyir ki, çox sağol, yaxşıyam, dərmanla yaşayıram! Bax, indi "dərmanla yaşayıram" söz birləşməsini çox adamdan eşitmək olar! Heç elə adam var ki, ona dərman da kömək eləmir. Ona görə də adam naşükür olmaz! Əgər dərmanla yaşaya bilirsənsə, buna da şükür! Amma,vallah, sovet dönəmində belə deyildi. Ən azından bu qədər xəstəlik və xəstələr yox idi.**

**Amma indi kimi dindirirsən, deyir ki, ağrıyıram, xəstəyəm, dərmana oturmuşam. Və orası da var ki, o vaxtlar səhiyyə indiki kimi inkişaf eləməmişdi. İndi az qala, müasir tibbin və texnologiyanın hesabına ölü adamı dirildərlər. Pulun varsa, ən ağır xəstəlikdən, hətta onkoloji xəstəlikdən belə xilas ola bilərsən. Açıq və qapalı ürək əməliyyatı, ürək, böyrək, qara ciyər köçürülməsi çox asanlaşıb. Yetər ki, sənin buna maddi imkanın çata! Əlbəttə, o imkan hər adamda yoxdu.**

**İndi qayıdaq dava-dərmanın üstünə! Dünyanın heç bir yerində (bəlkə də var) Azərbaycandakı kimi dərmanlar baha deyil! Türkiyədə 30 manata satılan dərman ölkəmizdə 130 manata satışa çıxarılır. Üstəlik dərmanın keyfiyyətinə də bir o qədər etibar yoxdu. Bir dərmandan xeyli atırsan səhhətində müsbət dəyişiklik hiss eləmirsən! Niyə? Nə üçün? Bax bunu başa düşmək olmur! Amma xaricdən gətirilən dərmanı qəbul eləyən kimi, bir neçə gündən sonra vəziyyətin yaxşılaşır. Bizdə bilirsiniz dərmanlar niyə bahadır! Çünki hər sahədə olduğu kimi, dərman biznesində də monopoliya var! Hamı da çox yaxşı bilir ki, ölkəmizə dərmanı kim gətirir.**

**Qoy gətirsinlər! Ancaq bir şirkət deyil, çoxlu sayda dərman şəbəkəsi bu işlə məşğul olsa, belə bahalıq olmaz! Və insanlara ən bahalı dərmanı almaq əlçatan olar! Ailə tanıyıram ki, hər ay dərmana 600 manatdan çox pul verir. Özü də imkansız ailədir ha! Heç yeməyə o qədər pul xərcləmir! Amma neyləsin, çıxış yolu yoxdur. Düzdür, bəzi imtiyazlı xəstələrə dərmanlar pulsuz verilir. Ucuz dərmanlar pulsuzdur! Ona görə də gələcəkdə baha dərmanlar da o siyahıya salınsa, daha yaxşı olar! Dövlət bu sahədə əhalinin xeyrinə müəyyən adamlar atır, amma bəzi bürokratik qüvvələr buna əngəl törədir. Bax, qeyd etdiyimiz bu məsələlər də aidiyyəti qurumlar tərəfindən aradan qaldırılmalıdır!**

**Dünyanın məşhur dərman firmasında çalışmış xarici bir biznesmen deyir ki, insanları dərmana oturtmaq bizim əsas vəzifəmiz olub. Və biz istəməmişik ki, kimsə xəstəlikdən ölsün. Amma biz istəmişik ki, milyardlarla insan dərmandan asılı vəziyyətdə olsun və bundan biz milyardlarla dollar əldə edək! Bax bu gün dərman biznesi ilə məşğul olanlar insanları belə mövcud durumda saxlamaq istəyirlər. Qoy olsun və təki insanlar o dərmanları qəbul edəndən sonra sağalsınlar! Və bizim ölkəmizdə də dərman monopoliyasının qarşısı alınmalıdır ki, dərmanlar ucuzlaşsın və hər pasiyent o dərmanı ala bilsin! Öncə hər bir insana cansağlığı arzulayırıq ki, heç o dərmana ehtiyacı olmasın! Olarsa, həmin dərmanı ucuz alsın!!!**

## Elə gün olmur ki...



**Yay mövsümü gələndə çoxları sevinir ki, dənizə , çaya, gölə gedib doyunca çiməcəm. Və çimirlər də! Ancaq elə adam var ki, üzməyi bacarmadığı halda suyun dərinliyinə baş vurur. Bu zaman o ya burulğana , ya da başqa təhlükəli yerə düşür və boğulur.**

Əgər yaxınlıqda xilasedicilər, eləcə də üzməyi bacaran adam varsa, suda boğulan insana kömək edir və onu ölümün pəncəsindən qurtarır.Allah eləməmiş bunu bacaran yoxsa, həmin insan suda boğularaq ölür. Çox təəssüf ki, aparılan maarifləndirmə işlərinə baxmayaraq, bir çox insanlar xilasedicilərin tövsiyələrinə əməl eləmir, onların dediklərini qulaqardına vururlar! Artıq ölkə ərazisində bu il suda boğulub ölənlərin sayı yüz nəfərə yaxınlaşır. Bu, fakt çox narahatedici hadisədir. Hər gün eşidirik ki, kimsə suda batıb.

Özü də suda batanların 99 faizi xilasedicilərin nəzarət etmədiyi yerlərdir! Hətta son vaxtlar Sumqayıt çimərliyində bataraq dünyasın dəyişən hüquq -mühafizə orqanlarının əməkdaşıdır. Hansı ki, həmin şəxs kifayət qədər savadlı və dünyagörüşlü bir insan olub. Sadəcə olaraq qanuna əməl etmək və məsuliyyətli olmaq lazımdır. Dəniz bilmir ki, sən kimsən, nəçisin. Bir sözlə, çoxlarımız üzməyi bacarmırıq. Yəni üzməyi öyrənib, sonra dənizə, çaya , gölə çimməyə getmək lazımdır.Əks- təqdirdə yay mövsümündə dənizdə çimərkən kiminsə , boğularaq öldüyü xəbərini eşidəcəyik.Bu, özümüz və doğmalarımız da ola bilər! Allah bizi o faciəli gündən qorusun!!!

**Emil FAİQOĞLU**

## Haqqı yeyilən adamlar...



**"Qurani-Kərim" də buyurulur ki, qulun təri soyumamış onun halallığın almaq lazımdır. Çünki haqqa girmək ən böyük günahlardan sayılır. Dünyada o qədər haqqı yeyilən adamlar var ki! Bax , onların ahı gec- tez o tamahkarları tutacaq .**

İntəhası bunun gecitezi var! Allah Üzeyir Hacıbəyliyə rəhmət eləsin! " O olmasın, bu olsun" filmində bu məsələni bir daha yada salır. Məşədi İbad bütün adı bəy özü geda olan dələduzlar pul verir, amma belini şikəst elədiyi hambala bir abbasi vermir. Hambal da pul istəyəndə ya özünü eşitməzliyə vurur, ya da hambalın başına bir qapaz vurur!

Bir usta deyir ki, varlı adam məni altı ay eşşək kimi işlətdi, altı min manat pulumu vermədi.Pul verməməyi cəhənnəm, axırda da mənim döydü. Hara getdim şikayətimə baxmadılar, onu müdafiə elədilər.

Əlacım hər yerdən üzüləndən sonra Allah şıkayət etdim. Villasının dəyəri bir milyondan çox olardı. Bir gün eşitdim ki, həmin villa yanıb , kül olub. O varlı adam axtarıb məni tapdı və pulumu artıqlaması ilə ödədi. Dedi ki, sənin qarğışın məni tutdu!

İndi cənab vəzifəli adamlar, insanların alın təri ilə qazandıqları pulu həmin adamlara verin və onların haqlarına girməyin! Çünki onlar qarqış edər və qarqış sizi tuta bilər! Və haqqa girməkdən qorxun!!

## Sosiska və kolbasalara yaxın durmayın...



**Bu gün çox adam sosiska və kolbasalardan uzaq durur. Ən azından ona görə ki, onların keyfiyyəti bir o qədər də yaxşı deyil.Çünki kolbasa alırsan içindən dəmir qırıntısı, eləcə də digər əşyalar çıxır. Yediyin kolbasadan başqa nə dadı desən verir.Bununla yanaşı, heç bilmirsən ki, həmin məhsullar nə ətindən hazırlanır. Belə sosiska və kolbasaların çoxu mənşəyi bilinməyən ətdən hazırlanır.**

Mənşəyi bilinməyən ətlər isə ölmüş iribuynuzlu, xırdabuynuzlu heyvanların, eləcə də at və eşşək ətidir. Hüquq -mühafizə orqanları dəfələrlə bazarlarda , müxtəlif avtomobillərin yük yerində at və eşşək əti aşkarlayıb. Hətta bir dəfə bir dələduz iş adamının həyətində soyuducuda və sexdə tonlara mənşəyi bilinməyən ət müəyyən edilib. Onlar ən yaxşı halda cərimə edilir və bir müddət keçəndən sonra yenə bu işlə məşğul olurlar.

Belə ki, həmin dələduzlar rayonları kəndbəkənd gəzib ölmüş heyvan leşlərini maşına yığaraq onu ya yeməkxanalara, ya da sexlərə təhvil verirlər. Bir tanışım deyir ki, heyvanım ölmüşdü, onu gəlib məndən yüz manata aldılar. Dedim ki, bu heyvan leşin neynirsiniz?

Dedilər ki , kolbasa sexinə verəcəyik. Mal ətinin bir kiloqramı 17-18 manatdır. Amma kolbasanın bir kilosu 6 manat! İndi nəticə çıxarın!

Deməli, əksər supermarketlərdə satılan kolbasa və sosiskalar mənşəyi bilinməyən ətdən hazırlanır! Biz də bunu bilə - bilə yenə kolbasa, sosiska alırıq! Ona görə də bütün günahları özümüz də axtarmalıyıq!!

## Məhsuldarlıq çox aşağı olub



**Bu il əksər fermerlər və kənd adamları minlərlə hektar sahədə taxıl əkmişdi. Onlar düşünürdülər ki, ötən ildəkindən də yüksək məhsuldarlıq əldə edəcəklər. Amma hər şey gözlənilənlərin əksinə olub!**

Çünki bir çox fermerlər 2025- cı ildə hər hektar sahədən 32- 35 sentner taxıl götürüblər! Bu da maya dəyəri çıxarmaqla yanaşı, əlavə gəlir əldə etmək deməkdir.2026- cı ildə məhsuldarlığın aşa əsinə səbəb fasiləsiz və leysan yağışların, eləcə də dolunun yağmasıdır.

Qeyri - sabit hava şəraiti təbii ki, taxılçılığa çox böyük ziyan vurub. Bununla yanaşı, kombaynların vaxtında biçməməsi də , bu və ya digər formada məhsuldarlığa mənfi təsir edib.Belə qeyri-sabit hava şəraitində əksər fermerlər heç əkdikləri toxumun maya dəyərin çıxara bilməyiblər.

Ötən il Füzuli rayonunda bir fermer hər hektar taxıl sahəsindən 35 sentner taxıl götürdüyü halda,bu il 10 sentner taxıl əldə edib! Bu isə heç məhsulun maya dəyərin eləmir, o ki, qala qazanc qazanasan! Deməli, bir də hər şey hava şəraitindən asılıdır! Hava şəraiti imkan versəydi, heç şübhəsiz ki, yüksək məhsuldar nəticə qazanmaq olardı! Amma heyf ki, hava şəraiti buna imkan vermədi!!!

## Motosiklet az qalmışdı...



**Bu barədə çox deyilib və çox da yazılıb. Amma təəssüf ki, heç bir şey dəyişməyib. Yol polisi az qala hər gün motosiklet, velosiped və skuter sürənlərə xəbərdarlıq edir, onlar arasında maarifləndirmə işləri aparır, lakin yenə faydası olmur ki, olmur.**

Bakıda və rayonlarda bu nəqliyyat vasitələrini idarə edənlər tez- tez qəzalar yaradır. Belə ki, onların əksəriyyəti yol hərəkəti qaydalarına əməl etmir, yolun əks istiqaməti ilə hərəkət edir, digər avtomobilləri sağdan və soldan keçirlər. Üstəlik də onlar bu nəqliyyat vasitələrini yüksək sürətlə idarə edirlər. Bir neçə gün bundan əvvəl biz Füzulidən Bakıya qayıdanda magistral yolunun Qaradağ rayon ərazisində keçən hissəsində motosiklet digər avtomobilləri ötüb keçir və yol hərəkəti qaydalarını teztez pozurdu.Bakı- Qazax yolunun həmin istiqamətində sürət həddi saatda 90 kilometrdir. Ancaq sürücü motosikleti 120- i ilə sürürdü. Bu isə hər qəza deməkdir.Bütün belə hallar cəmiyyəti və yol polisin çox narahat edir.

Çünki yol hərəkəti qaydalarının belə kobud surətdə pozulması həmin sürücülərin ölümü deməkdir. Bununla bərabər bu, həm də digər hərəkət iştirakçılarının da həyatını təhlükə qarşısında qoyur!!! Bu yaxınlarda səkidə hərəkət edən qonşumu az qalmışdı motosiklet vursun. Belə ki, sürücü motosikleti avtomobil yolunda deyil, səkidə idarə edirdi. Hadisələr göstərir ki, motosiklet, velosiped və skuter sürücüləri barədə daha ciddi tədbirlər görülməlidir. Çünki indiyə qədər görülən tədbirlər mövcud problemləri tamamilə həll edə bilməyib! Görünən odur ki, bu nəqliyyat vasitələrinin iştirakı ilə hər gün ağır qəzalar baş verir. Ona görə də birmənalı olaraq kompleksi şəkildə həll edilməlidir. Ki, həmin sürücülər bir dərs alsınlar və başqalarının həyatı üçün təhlükə yaratmasınlar!!!

## Küləkli hava fəsadlar yaratdı



**Həmişə küləkli hava şəraiti olmamışdan öncə hidrometeoroloqlar əhaliyə xəbərdarlıq edir və bu barədə bütün qurumlara məlumat verilir. Bununla yanaşı, Fövqəladə Hallar Nazirliyi də təhlükəli hava şəraiti ilə bağlı insanları maarifləndirir və onları diqqətli olmağı bildirir.**

Əfsuslar olsun ki, bu məlumatlara və xəbərdarlıqlara baxmayaraq , bir çox insanlar həmin günü deyilənlərə əməl eləmir. Belə ki, onlar güclü külək edərkən avtomobilləri hündür və qurumuş ağacların altında saxlayır, yüksək mərtəbəli binaların yanından keçərkən öz həyatlarını laqeyd yanaşırlar. Məhz bunun nəticəsidir ki, iyulun 26 və 27-də Bakıda güclü külək əsərkən bir neçə avtomobil aşan ağacın altında qalıb, binalardan düşən daş parçaları insanlar xəsarət yetirib.Həmin günlər neçə- neçə insan xəsarət alaraq müxtəlif xəstəxanalara yerləşdirilib.

Xoşbəxtlikdən ölüm hadisəsi qeydə alınmayıb. Bir faktı da xatırladaq ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin aidiyyəti qurumları Bakıda qurumuş ağacları vaxtında mövcud olduğu yerdən götürməyib. Belə də olanda istər-istəməz bax qurumuş ağaclar güclü külək nəticəsində kökündən çıxır , avtomobilləri əzir, insanlara xəsarət törədir! Ona görə də belə ağaclar vaxtında həmin yerdən kəsilib götürülməli və mövcud təhlükə aradan qaldırılmalıdır!!!

**Emil FAİQOĞLU**



# Vəzifəli şəxslər həbs edildi

**Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən dövlət orqanları ilə birgə vəzifəli şəxslərin qanunsuz əməllərinin qarşısının alınması və aşkar edilmiş faktlara qarşı mübarizə istiqamətində kompleks, sistemli və ardıcıl tədbirlərin görülməsi davam etdirilir.**

Adalet.az xəbər verir ki, bu barədə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti birgə məlumat yayıb.

"Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin vəzifəli şəxslərinin qanunsuz hərəkətləri ilə bağlı həmin Xidmətdən daxil olmuş məlumat əsasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırma aparılıb və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.



İlkin istintaq və əməliyyat-axtarış tədbirləri ilə DVX-nin Bakı şəhəri Operativ vergi nəzarəti və uçotun təşkili baş idarəsinin Sahə təhkimçiliyi idarəsinin rəis müavini Mirzəyev Rüstəm Əbil oğlu və həmin İdarənin 4-cü şöbəsinin rəisi Məmmədov Kənan Yadigar oğlunun 2026-cı ilin may ayında Bakı şəhərində yerləşən ticarət mərkəzlərindən birində fəaliyyət göstərən çoxsaylı sahibkarlardan vergi yoxlamasının keçirilməməsi, cərimə tətbiq edilməməsi və digər bu kimi məqsədlərlə ümumilikdə 200 min manat pul vəsaitini rüşvət qismində almalarına əsaslı şübhələr müəyyən edilib. Toplanmış ilkin sübutlar əsasında Rüstəm Mirzəyev və Kənan Məmmədova Cinayət Məcəlləsinin 311.3.1 və 311.3.3 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən külli miqdarda rüşvət alma) maddələri ilə ittiham elan edilib, istintaq orqanının vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin qərarı ilə barələrində həbs qətimkan tədbirləri seçilib.

Hazırda cinayət işi üzrə zəruri istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilməklə qanunsuz əməllərin törədilməsində iştirak etmiş digər şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi təmin ediləcəkdir", - deyə məlumatda qeyd olunub.

# «Gələcəkdə psixiatrik xidmətlərə müraciət edən şəxslərin...»

**"Son onilliklərdə informasiya-kommunikasiya texnologiyalarının, xüsusilə sosial media platformalarının sürətli inkişafı insanların davranış modellərində nəzərəçarpacaq dəyişikliklər yaratmışdır. Bu dəyişikliklərin ən diqqətçəkən istiqamətlərindən biri fərdin daim görünmək, diqqət çəkmək, izlənilmək və öz varlığını ictimai şəkildə nümayiş etdirmək istəyinin güclənməsidir. Rəqəmsal platformaların alqoritmik mexanizmləri bu ehtiyacı daha da stimullaşdıraraq bəyənmə, paylaşım və izləyici sayı üzərindən psixoloji mükafat sistemi formalaşdırır. Nəticədə görünürlük artıq sadəcə ünsiyyət vasitəsi deyil, bir çox insanlar üçün sosial təsdiqin əsas mənbəyinə çevrilir".**

Adalet.az xəbər verir ki, bunu "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova deyib.

Ekspert bildirib ki, bu tendensiyanın ən təhlükəli təzahürlərindən biri "təhlükəli selfi" fenomenidir:

"Daha çox baxış, bəyənmə və paylaşım qazanmaq məqsədilə insanlar həyatlarını riskə atan davranışlara əl atır, yüksək binalarda, dəmir yolu xətlərində, qayalıqlarda və digər təhlükəli məkanlarda foto və videolar çəkirlər. Dünya üzrə aparılan tədqiqatlar göstərir ki, bu cür davranışlar artıq tək-tək hadisələr deyil, qlobal ictimai sağlamlıq problemi kimi qiymətləndirilir. Lakin mühüm sual yaranır, bu davranışlar psixi xəstəlik hesab edilməlidirmi? Mövcud beynəlxalq diaqnostik təsnifatlarda "görünürlük sindromu" və ya "selfi sindromu" adlı rəsmi psixiatrik diaqnoz



mövcud deyil. Bununla belə, bu davranışlar narsisistik xüsusiyyətlər, impulsivlik, davranış asılılıqları, sosial təsdiq ehtiyacı, emosional tənzimləmə çətinlikləri, aşağı özünəqiymət və bəzi şəxsiyyət xüsusiyyətləri ilə əlaqəli ola bilər. Başqa sözlə, görünürlük davranışı özlüyündə psixi xəstəlik deyil, lakin müəyyən hallarda daha dərin psixoloji və ya psixi problemlərin göstəricisi ola bilər".

M.Zeynalovanın sözlərinə görə, son dövrlərdə məcburi psixiatrik müalicəyə yerləşdirilən şəxslərlə bağlı məlumatların artması da ictimai narahatlıq doğurur:

"Bu isə yeni suallar meydana çıxarır. Rəqəmsal mühitin insan davranışına təsiri sistemli şəkildə monitorinq olunurmu? Sosial media alqoritmlərinin psixi sağlamlığa uzunmüddətli təsirləri hansı səviyyədə qiymətləndirilir? Bu istiqamətdə milli və beynəlxalq monitorinq mexanizmləri kifayət qədər effektivdirmi? Davranış pozuntusunun aradan qaldırılması üçün hər zaman psixiatrik müalicə yeganə və ya ilk seçim hesab edilmir. Müasir klinik yanaşmaya əsasən müdaxilə pilləli şəkildə həyata keçirilməlidir. Erkən mərhələdə psixoloji qiymətləndirmə, psixoedukasiya, ailə ilə iş, davranış terapiyası, koqnitiv-davranış terapiyası, rəqəmsal media istifadəsinin tənzimlənməsi və sosial dəstək proqramları daha effektiv nəticələr verə bilər. Psixiatrik müalicə isə yalnız klinik diaqnozun mövcud olduğu, şəxsin özünə və ya ətrafdakılara real təhlükə yaratdığı, yaxud digər müalicə üsullarının səmərə vermədiyi hallarda tətbiq olunan tibbi müdaxilə olmalıdır".

O, deyib ki, əgər cəmiyyətdə rəqəmsal görünürlük naminə riskli davranışlar nəzarətsiz şəkildə artmağa davam edərsə, bu, təkcə fərdi psixi sağlamlıq deyil, həm də ictimai təhlükəsizlik baxımından ciddi nəticələr doğura bilər: "Gələcəkdə psixiatrik xidmətlərə müraciət edən şəxslərin sayının artması, sosial adaptasiya problemləri, əmək bazarında çətinliklər, ailə münasibətlərinin pozulması, stiqma və psixi sağlamlıq xidmətlərinə etimadın azalması kimi uzunmüddətli sosial nəticələr meydana çıxa bilər.Bu baxımdan problemin həlli yalnız tibbi müstəvidə axtarılmamalıdır. Rəqəmsal savadlılığın artırılması, sosial media platformalarının etik məsuliyyətinin gücləndirilməsi, alqoritmlərin psixoloji təsirlərinin elmi monitorinqi, məktəblərdə və ali təhsil müəssisələrində rəqəmsal davranış mədəniyyətinin formalaşdırılması, valideynlərin və müəllimlərin maarifləndirilməsi, psixoloji dəstək xidmətlərinin əlçatanlığının artırılması və multidissiplinar yanaşmanın tətbiqi problemin qarşısının alınmasında daha davamlı nəticələr verə bilər. Müasir dövrdə əsas müzakirə mövzusu insanların görünmək istəyinin özü deyil, bu ehtiyacın rəqəmsal texnologiyalar tərəfindən necə manipulyasiya edilməsi, hansı psixoloji mexanizmlərlə gücləndirilməsi və fərdi davranışın hansı həddə qədər dəyişdirilməsidir. Məhz bu səbəbdən rəqəmsal görünürlük fenomeninin psixologiya, psixiatriya, hüquq, informasiya texnologiyaları və sosial siyasətin kəsişməsində kompleks şəkildə öyrənilməsi müasir elmin qarşısında duran aktual və strateji vəzifələrdən biri hesab edilməlidir".

**Vasif ƏLİHÜSEYN**

# "Yer 7 saniyəlik çəkisiz qalacaq" iddiasına rəsmi cavab

**Son günlər sosial şəbəkələrdə və bəzi internet resurslarında 2026-cı il avqustun 13-də Yerin qravitasiya qüvvəsinin müvəqqəti olaraq (7 saniyəlik) yox olacağı, insanların isə qısa müddət ərzində çəkisizlik vəziyyəti yaşayacağı barədə müxtəlif iddialar yayılır.**

BDU-nun Astrofizika kafedrasından Adalet.az-a bildirilib ki, bu məlumatların heç bir elmi əsası yoxdur.

Qeyd edilib ki, onlar müasir fizikanın fundamental qanunlarına tamamilə ziddir:

"Yerin cazibə qüvvəsi onun kütləsi ilə müəyyən olunur. Nyutonun Ümumdünya cazibə qanununa əsasən, Yerin cazibə qüvvəsi onun kütləsi və radiusu ilə müəyyən edilir. Qravitasiya qüvvəsinin qəfil yox olması yalnız Yerin kütləsinin birdən-birə yox olması və ya təbiətin fundamental qanunlarının dəyişməsi kimi fiziki cəhətdən mümkün olmayan hadisələr nəticəsində baş verə bilər. Hazırda belə bir hadisənin baş verəcəyini göstərən heç bir elmi əsas yoxdur.

Sosial şəbəkələrdə yayılan bəzi məlumatlarda bu hadisənin səbəbi kimi qravitasiya dalğaları və ya qara dəliklərin toqquşması göstərilir. Əslində isə qravitasiya dalğaları fəzazamanda son dərəcə kiçik dəyişikliklər yaradır və onların Yer səthində insanların hiss edə biləcəyi və ya Yerin cazibə qüvvəsini dəyişdirə biləcəyi təsiri yoxdur:

"Bəzi paylaşımlarda adı çəkilən, guya NASA tərəfindən hazırlanmış "Project Anchor" adlı hesabat da rəsmi elmi sənəd deyil və etibarlı elmi mənbələr tərəfindən təsdiqlənməyib. Həmin tarixdə əslində hansı astronomik hadisələr baş verəcək?



-Perseid meteor yağışının maksimumu - 13 avqust tarixində müşahidə olunacaq. Bu, ilin ən zəngin meteor yağışlarından biridir və Bakıdan da əlverişli şəraitdə izlənilə bilər,

- 12 avqust tarixində tam Günəş tutulması baş verəcək. Tam tutulma əsasən Qrenlandiya, İslandiya və İspaniyanın şimal hissəsindən görünəcək. Azərbaycandan isə müşahidə olunmayacaq.

Bu hadisələrin heç biri Yerin qravitasiya sahəsinə təsir göstərmir. İnsanlara astronomiya ilə bağlı məlumatları yalnız rəsmi elmi təşkilatların, rəsədxanaların və etibarlı beynəlxalq elmi qurumların açıqlamalarına əsasən izləmək tövsiyə olunur. Astronomik hadisələr maraqlı və möhtəşəm olsa da, onların ətrafında yayılan sensasiya xarakterli, lakin elmi əsası olmayan məlumatlara tənqidi yanaşmaq vacibdir.

13 avqust 2026-cı ildə Yerin qravitasiya qüvvəsinin yox olması və ya insanların çəkisizlik vəziyyəti yaşaması ilə bağlı yayılan iddialar heqiqəti əks etdirmir. Yer öz adi fiziki rejimində fəaliyyətini davam etdirəcək və planetimizin cazibə qüvvəsində heç bir dəyişiklik baş verməyəcək".

## Aİ-də süni intellektdən istifadəyə dair yeni qaydalar hazırlandı



**Avropa İttifaqında (Aİ) Süni İntellekt Aktının (AI Act) şəffaflıq tələblərini nəzərdə tutan yeni müddəaları qüvvəyə minib. Bununla da süni intellektdən istifadə zamanı məzmunun mənşəyinin açıqlanması və istifadəçilərin məlumatlandırılması ilə bağlı yeni öhdəliklərin tətbiqinə başlanılıb.**

Adalet.az xəbər verir ki, Avropa Komissiyasının yaydığı məlumata əsasən, yeni qaydalar vətəndaşların süni intellekt texnologiyalarına etimadını artırmaq, dezinformasiyanın qarşısını almaq və süni intellekt sistemlərindən məsuliyyətli istifadəni təmin etmək məqsədi daşıyır.

Qaydalara əsasən, istifadəçilər süni intellekt sistemi ilə qarşılıqlı əlaqədə olduqları barədə məlumatlandırılmalıdır. Generativ süni intellekt vasitəsilə hazırlanan məzmunun tanınması təmin edilməli, xüsusilə "deepfake" materiallar, eləcə də ictimai maraq doğuran mövzular üzrə süni intellekt tərəfindən yaradılmış mətnlər aydın və görünən şəkildə işarələnməlidir.

Məlumatda, həmçinin bildirilib ki, süni intellektin sürətlə inkişaf etdiyi bir dövrdə istifadəçilərin hansı məzmunun insan, hansının isə süni intellekt tərəfindən yaradıldığını ayırd edə bilmələri şəffaflığın və fundamental hüquqların qorunmasının mühüm şərtidir.

Yeni tələblərin həm də manipulyasiya və yanlış məlumatların yayılması riskini azaltmağa xidmət edəcəyi vurğulanır.

**Qeyd edək ki, "AI Act" dünyada süni intellekt sahəsində qəbul edilmiş ilk hərtərəfli hüquqi tənzimləmə hesab olunur. Risk əsaslı yanaşmaya söykənən sənəd müxtəlif AI sistemləri üçün fərqli tələblər müəyyənləşdirir, yüksək riskli tətbiqlər üçün ciddi öhdəliklər formalaşdırır, insanların təhlükəsizliyi və hüquqları üçün qəbuledilməz hesab olunan bəzi süni intellekt təcrübələrini isə qadağan edir. Aİ hesab edir ki, yeni hüquqi çərçivə innovasiyanın inkişafı ilə yanaşı, süni intellektdən təhlükəsiz, şəffaf və insanyönümlü istifadəni də təşviq edəcək.**



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# Sirr olmayan duyğular

## Onu sizə çatdırmaqda xalq şairi Nəriman Həsənzadənin şeirindən yararlandım

Əslində hər məqamın, elə hər məclisin özünün də ovqatı olur. Həmin o məclis də, o məqam da sənin öz ovqatının içərisində rahatlamağa, şəraitə uyğunlaşdırmağa, bir sözlə, özünə tabe etməyə çalışır. Təbii ki, burda bir nüans var, o da sənin məclis, məqam adamı olub-olmamağındı. Bunu ona görə deyirəm ki, adətən məclis adamları yerindən, zamanından asılı olmayaraq, həmin o məclisin nəbzini tuta bilirlər. Amma...

Elə adamlar da var ki, (onlardan biri də mənəm - Ə.M.) məclisə uyğunlaşmaq onlar üçün çox çətin olur. Xüsusilə də tanımadıqları, münasibətləri olmadığı şəxslərin iştirak etdiyi məclisdə vaxt darıxdırıcı, ovqat cansıxıcı olur. Özünü məclisə yamaq hesab edirsən. Hətta o an üçün içindən bir " artıq adamın" ağrısı gəlib keçir. Ona görə də tez durub getmək, bu məclisi tərk etmək, özünü öz rahatlığına qovuşdurmaq hissi səni tərk etmir.



Amma etik qaydalar, məclisə dəvət edənə sayqı səni dayanmağa, dözməyə məcbur edir. Bax, belə məqamda cingildəyən badələrin səsi bir qıcıq yaradır. Özü də tanımadığım və bəzən də boğazdan yuxarı pafoslu nitqlər, təriflər, yumşaq desək adamın "ətini tökür". Buna da dözürsən və dözə-dözə də növbə gəlib çatır sənə. Şərəfinə badə qaldırılır, sağlıq deyilir. İnanın ki, bu məqamda (əlimi ürəyimin üstünə qoyub tam səmimi deyirəm - Ə,M,), söylənən sözlər nə qədər içdən gəlsə də, nə qədər təbii və səmimi olsa da ovqat məclis ovqatı olmadığından o da yapışmır sənə. Bir növü yükə çevrilir, ağrıdır səni və sən də dözürsən, dinləyirsən...

Bax, bütün bu yazdıqlarımı hərə bu və ya digər formada yaşayır. Həmin o yaşanan zamanın, duyğuların içində sən öz dünyandan ayrılmadığına görə ikili bir zaman yaşayırsan. O zamanın biri sənin özünə aiddi, biri isə məclisdən qaynaqlanır. Bax, mən bu fikri diktə edərkən masamın üstündə olan xalq şairimiz Nəriman Həsənzadənin "Sirr deyil" şeirinin təsiri altındayam. Hələ 1973-cü ildə yazılmış bu qəribə şeir mənim iç dünyamı bir növü ələdi. Yadıma nələri, kimləri saldı. Xatirələrimin yuxusu qaçdı. Nəriman müəllim yazıb ki:

*Mənim sağlığıma içdilər dünən,*
*Dedi arzuna çat bir nəfər, dünən,*
*Siz çatın, mən amma çatmayacağam,*
*Mən heç vaxt arzuma çatmayacağam.*

Bəli, sağlıq deyəndə xoş diləklər səsləndirəndə heç kim qarşısındakının nələr çəkdiyini, nələr yaşadığını bilmir, görmür, onu yalnız Allah bilir və bir də sevdiyim. Çünki sağlığa badə qaldırmaq, sağlıq bağışlamaq deyil, arzudu, diləkdi. Neynəyim ki, arzu, diləklə nə sağlıqla ala bilirsən, nə də olan sağlığı qoruyub saxlaya bilirsən. Çünki hər iki halda sağlığın bir sahibi var. O da Allahdı. O sağlığı Allah sevdiyinə, sevgiyə həsr etmək üçün verib sənə. Sənin boynuna düşən isə veriləni, yəni əmanəti ünvanı üçün xərcləmək, sərf etməkdi. Ona görə də bir gerçəyi heç vaxt yaddan gərək çıxarmayasan. Unutmayasan ki, arzuya çatmağın yolu həm də sevdiyindən keçir. Onun dəstəyindən, yəni təbəssümündən, səsinə səs verməyindən, səninlə bərabər olmağından...

Bax, mən bunların içərisində özümü arayıb-axtaranda hiss edirəm ki, hələ də o sevgini, yəni səni bir zirvə, bir ucalıq, bir dünya kimi bütünlüklə fəth edə bilməmişəm.

Ona görə də:

*Mən indi çıxıb gedəcəm,*
*Gedəcəm sizdən ayrılıb.*
*Özgələri ətrafımda -*
*Görəcəm bir də ayılıb...*

Əslində heç getmək istəmədiyim, heç ayağımın üz tutmaq istəmədiyi yerlər, ünvanlar o qədərdi ki. Belə götürəndə dünya böyükdü, amma Nəriman müəllimin təbirincə desəm, mənim arzum hara, getmək istədiyim yer hara, getməyə məhkum olduğum yer hara... Bax, ürəyimə ox kim sancılan da, kürəyimdən vurulan zərbə də bu suallardan qaynaqlanır, bu yaşamdan qidalanır. Bütünlüklə, arzumun, istəyimin ətəyinə çatmayan əlimin sızıltısını, göynərtisini yaşayıram. Və yenə də üz tuturam böyük şairimiz Nəriman Həsənzadəyə:

*Mənim arzum hara, daha mən hara,*
*Xatirə söyləsəm...bu bir yığındır.*
*Mən arzuma çatsam bədbəxt olaram,*
*Bəlkə xoşbəxtliyim, çatmamağımdır.*

Həqiqətən böyük məntiqdi. Özü də həyatın hər üzünü göstərən məntiq.! Çünki mənim xoşbəxt olacağım an da, yer də mənim xoşbəxt olmağımı qəbul etməyənin özündən, varlığından keçir. O, bir fərd olaraq, bir varlıq olaraq məntiqli bir sual qoyur ortaya. Sual da belədi:

Sənin xoşbəxtliyinə görə mən niyə öz xoşbəxtliyimdən imtina etməliyəm? Bəli, sual da gerçəkdi, haqlıdı, sual verən də. Amma cavab da gerçəkdi, cavab eşidən də. Burda bircə yol qalıb. O da Allahın iradəsinə söykənib bəxt deyiləni yaşamaq, özü də sevə-sevə. Əvvəlkindən də, həmişəkindən də çox sevə -sevə yaşamaq. Hara getməyindən, harda olmağından asılı olmayaraq. Küsmədən, bezmədən, yorulmadan SEVMƏK!

Bax, onda bu misralar mənim dilimdə yenə təkrarlanacaq:

*Bu getmək heç gəzmək deyil,*
*Küsmək nə də bezmək deyil.*
*Dözməyim də - dözmək deyil,*
*Eləcə dözmək sayılıb.*

Doğrudu, fikirlərimə şərik çıxmayan da olacaq. Yazdıqlarımı pafoslu bir çıxış kimi də qiymətləndirən olacaq. Bunu qəbul edirəm və təbii sayıram. Ona görə ki, hər kəs öz baxış bucağı ilə, öz sevgisi ilə, öz ürəyi ilə, öz əxlaqı ilə və nəhayət öz ruhu ilə mövcuddu bu yer üzündə. Və deməli hər kəsin də sevgisi özü kimidi, özünə layiqdi. Ona görə də kimin nə deyəcəyi, kimin susacağı önəmli deyil. Önəmli odur ki:

*Kim isə, bəlkə də burda susacaq,*
*nə deyim,*
*yox, o da müqəssir deyil...*
*Xoşbəxt olmaq ilə - arzuya çatmaq*
*mən sizi bilmirəm, məncə bir deyil.*
*Bu da sirr deyil.*

Bəli, bu misralar indiki anımda məni divara söykəyib üzümə oxunan ittiham kimidir. Gerçəkliyin ittihamı. Orda hər şey deyilir. Susmaq da, danışmaq da, indi heç nəyi deyişmir. Çünki mənim xoşbəxtliyim sənin xoşbəxtliyin deyil... Bu da bütün mənalarda sənin halal haqqındı. Çünki sən öz xoşbəxtliyinin uğrunda, öz inacının və inamının uğrunda israrlısan. Və bu da sənin öz həyat kredondu. Mən isə öz günahını özü çəkməyə məhkum edilmiş bir bəndə. Və bu günah özünün cizgilərini heç harda axtarmayacaq, hardan gəldiyinin izinə düşməyə vaxt sərf etməyəcək. Çünki bu günahın adı da SEVGİDİ! Və o sevgi üçün bütün cəzaları çəkməyə hazıram. Bu kənardan necə görünür, görünsün, birmənalı qərarımdı:

*Günah gəzməyin izimdə*
*Hər şey yazılıb üzümdə.*
*Qalmışam dərya üzündə -*
*Kənardan üzmək sayılıb.*

Hə, Allah ömür versin, xalq şairimiz, gözəl poetik duyğuların müəllifi Nəriman Həsənzadəyə. Onun "Sirr deyil" şeirinin təsiri ilə bilgisayara diktə etdiyim bu yazımda mən də öz hislərimin sirr olmadığını ifadə etməyə çalışdım. Necə alındı bilmirəm, amma ürəyim və ruhum bir balaca sirkələndi. Sanki onların üzünə bir damcı şeh düşdü.. .

***P.S.*** *Bu yazını 2022 -inci ilin sentyabrında yazmışdım... Ustadın Cənnətə köçü məni də xatirələrə çəkib apardı... Arxivimdə ilk qarşıma çıxan bu yazım oldu. Bu şəkil Azad Şuşada - Vaqif poeziya günlərində 2021-ci ildə çəkilib.*

## Bakı Qızlar Universitetinin tələbələrinin və işçilərinin taleyi necə olacaq?




**Bakı Qızlar Universitetinin təhsil fəaliyyətinin dayandırılması ilə əlaqədar sözügedən ali təhsil müəssisəsinin tələbələri ilə bağlı müvafiq tədbirlərin icrasına başlanılıb.**

Bu barədə Adalet.az-a Elm və Təhsil Nazirliyindən məlumat verilib.

Qeyd edilib ki, universitetin təhsil fəaliyyətinin dayandırılması nəzərə alınaraq, 2026/2027-ci tədris ili üzrə Bakı Qızlar Universitetinə ali təhsilin həm bakalavriat, həm də magistratura səviyyələri üzrə tələbə qəbulu yerləri müəyyən edilməyib.

Universitetdə təhsil alan 1568 tələbədən 1513-ü ali təhsilin bakalavriat səviyyəsində 11 ixtisas, 55-i isə magistratura səviyyəsində 2 ixtisas üzrə təhsilini davam etdirir. Bu tələbələrin Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilmiş qəbul imtahanlarında topladıqları bal, təhsil aldıqları ixtisas, təhsil səviyyəsi, təhsilalma forması, tədris ili, təhsil dili, dövlət sifarişi və ya ödənişli əsaslarla təhsil almaları, habelə digər zəruri meyarlar nəzərə alınmaqla təhsillərinin Bakıda yerləşən digər özəl ali təhsil müəssisələrində davam etdirilməsi məqsədilə köçürülməsi nəzərdə tutulub.

Bununla yanaşı, akademik məzuniyyətdə olan, təhsilini müvəqqəti dayandırmış, eləcə də müxtəlif əsaslarla ali təhsil müəssisəsindən xaric edilmiş şəxslər barədə məlumatlar dəqiqləşdiriləcək və onların sonrakı təhsil hüquqlarının qanunvericilikdə nəzərdə tutulmuş qaydada təmin edilməsi istiqamətində müvafiq tədbirlər görüləcək.

Nazirlik diqqətə çatdırıb ki, Bakı Qızlar Universitetinin fəaliyyətinin dayandırılması bu ali təhsil müəssisəsi tərəfindən əvvəllər verilmiş təhsil haqqında dövlət sənədlərinin (diplomların, arayışların) hüquqi qüvvəsinə heç bir təsir göstərmir. Universitet məzunlarının təhsil haqqında dövlət sənədləri etibarlı və tanınmış olaraq qalır.

Cari tədris ilində Bakı Qızlar Universitetini bitirən məzunlara qanunvericiliklə müəyyən edilmiş qaydada təhsil haqqında dövlət sənədləri təqdim olunacaq.

Bildirilib ki, Bakı Qızlar Universitetində 110 nəfərdən çox şəxs pedaqoji fəaliyyətə cəlb olunub. Tədrisə cəlb olunan şəxslərin yarısından çoxunun elmi dərəcəsi yoxdur. Eyni zamanda, onların əksəriyyətinin əsas iş yeri digər ali təhsil müəssisələridir. Bu səbəbdən universitetin təhsil fəaliyyətinin dayandırılması həmin şəxslərin əsas iş yerlərinin itirilməsi ilə nəticələnməyəcək. Universitetin ştatında çalışan əməkdaşlar isə digər təhsil müəssisələrində mövcud vakant vəzifələr üzrə müraciət edə bilərlər. Elm və Təhsil Nazirliyi də öz növbəsində məsələ ilə bağlı müvafiq ali təhsil müəssisələrinə tövsiyə verəcək.

## İspaniyaya miqrant axınının səbəbləri



**Son günlər Mərakeşdən İspaniyanın Seuta və Melilya anklavlarına qeyri-qanuni miqrasiyanın kəskin artmasının səbəbləri açıqlanıb.**

Adalet.az "Hespress" nəşrinə istinadən xəbər verir ki, Mərakeş Daxili İşlər Nazirliyi hazırda dünyanın gündəmində olan bu məsələ ilə bağlı bəyanat yayıb.

Bildirilib ki, miqrant axını bir neçə səbəbdən baş verib.

Krallığın hakimiyyət orqanları hesab edir ki, əsas amillər sosial şəbəkələrdə yalan məlumatların yayılması və insan alveri ilə məşğul olan qruplaşmaların fəaliyyəti olub. Daha bir səbəb isə İspaniyada məhkəmə qərarlarının yanlış təfsir edilməsidir. Mərakeş DİN-in məlumatına görə, məhkəmə qərarlarının yanlış şərhi miqrantlarda Avropaya çatmağın asanlaşdığı təəssüratı yaradıb. Bu, həmçinin insanlarda sərhədin qanunsuz keçilməsinin minimal hüquqi nəticələrə səbəb olacağı barədə yanlış fikir yaradıb.

Nazirlik təxminən 40 min nəfərin Seuta ərazisinə, təxminən 1135 nəfərin isə Melilya ərazisinə keçməyə cəhd etdiyini açıqlayıb. Melilya anklavına daxil olmağa nail olmuş bütün şəxslərin geri qayıtdığı bildirilir.

Qeyd edək ki, iyulun 30-da Mərakeşin Fenidek sahillərindən minlərlə miqrant İspaniyaya məxsus Seuta və Melilya anklavlarına üzərək və ya piyada keçməyə cəhd edib. Bundan sonra İspaniya hökuməti bölgəyə əlavə hərbi qüvvələr göndərərək sərhəd təhlükəsizliyini gücləndirib. İspaniya ərazisinə keçməyə çalışarkən 90 nəfərin həlak olduğu bildirilir. Daha 1149 miqranta isə tibbi yardım göstərilib. Avqustun 1-nə olan məlumata görə, miqrantlardan təxminən 69 min 500 nəfəri Mərakeş ərazisinə geri dönüb.

# Yaşanan sevginin CÖVHƏRİ

**Sükut həyatımın mənasına, ifadəsinə çevrilib. Yəni hamıdan uzağa çəkilmək, dörd divar arasında oturmaq və yalnız xəyallarla, şəkillərlə baş-başa qalmaq məni özünə o qədər çəkib ki, ətrafımda baş verənlər, necə deyərlər, heç halıma da təsir etmir. Bu, laqeydlik deyil, bu, karlıq, korluq deyil. Sadəcə olaraq mənə hakim olan güc, istək, sevgi məni elə bil ki, tilsimləyib, gipnoz edib və mən də könüllü şəkildə təslim olduğum tilsimin içərisində özümü daha rahat hiss edirəm. Çünki o mühitə, o dünyaya bir nəfərin daxil olmaq, baş çəkmək şansı var. Bir az da fikrimi sadələşdirsəm, mənim dünyama yalnız bir nəfərlik buraxılış vəsiqəsi yazılıb. O da sənə aiddi. Sən isə...**

Bəli, mən öz sığındığım məkanda, öz komamda, öz köşəmdə bir sükutun diktəsini o qədər rahatlıqla dinləyirəm ki, onu Allahdan başqa heç kim eşitmir. Əslində dinlədiyim səs sənə aiddi. Mən bu illər ərzində yaddaşıma sənin səsini yazmışam və sənin səsin mənim üçün sükutun özünü də ayağa qaldırır. Onu da dilləndirir. Və belə olan halda hardasa bir az bədii formada ifadə eləsəm, sükutun səsinin dinləyicisinə çevrilirəm...

Hə, dinlədiyim sükutun səsi o qədər aydındır ki, eşitməmək, dərk etməmək mümkün deyil. Hətta hansısa bir sözə, vurğuya görə sorğu etmək, sual vermək də mənasızdı. Ona görə ki, dediyim səs, dinlədiyim nitq göz yaşından da durudu. O dupduru səsi sükut içərisində dinlədikcə ruhum da təzələnir, yaddaşım da təzələnir, xatirələrim də təzələnir. Olmuşlar və olacaqlar da gözümün önündən gəlib keçir. Bax, beləcə sükutun səs amirliyi hakim olur mənə...

Kimsə kənardan baxa bilər, görə bilər və mən onun gözünə dəli kimi, natamam adam kimi görünə bilərəm. Olsun, bu məni heç narahat etmir. Ona görə ki, mənim görüntüm Allahdan başqa hər kimdə nə yaradır-yaratsın, nə əks-səda doğurur-doğursun, son nəticə səninlə birlikdə olmağımdı. Sənin səsinin kölgəsində, dizinin dibində oturmağımdı!..

Bax, elə bu təsvir etdiyim reallığın pərdə arxasında o səs sığal görür, ülfət hiss edir, özünü doğma yerdə, doğma məkanda, doğma varlığın içində görür. Bu da ruhumu silkələyir, ayağa qaldırır. Bax, ayaqlanmış, ayaqda durmuş səsin mənə görünən üzündə yazı var. Pıçıltılardan qaynaqlanan yazı. O mənim indi hamıya demək istədiklərimin ixtisar olunmuş və yazılı variantıdı. Yəqin ki, oxumusan və bilirsən ki:

*Yastığını qucaqlama gecələr*
*Qoy qolların yol gözləsin, mən gəlim.*
*Deyirsən ki, işıq düşər, görərlər -*
*Yaxşı, onda dönüb olum çən, gəlim!*

*Səhər mehi, çəmən şehi, quş səsi*
*Qoy sındırsın ürək sıxan qəfəsi.*
*Qatmaq üçün nəfəsinə nəfəsi -*
*Sünbül kimi vağanayıb, dən gəlim!*

*Xoş qismətdi anlamaq da, anmaq da,*
*Sonuncuyam sevdiyimi danmaqda.*
*Sənin üçün dirigözlü yanmaqda -*
*Çətin ki, mən Əbülfətə tən gəlim!*

Hərdən mənə elə gəlir ki, hərəkət etmək gücünü itirirəm. Çünki əlim, ayağım sözümə baxmır və hərdən də elə bilirəm ki, kimsə çiyinlərimdən üzü aşağı basır - torpağa tərəf!..

Özü də elə böyük güclə, təzyiqlə bunu edir ki, mən heç tərpənə də bilmirəm. Həmin anda yadıma böyüklərimin, indi haqq dünyasında olan doğmalarımın dediyi sözlər, fikirlər düşür. Rəhmətliklər deyirdi ki, belə olanda adamın üstündən saat ötür. Mən də gülürdüm. Dərk edə bilmirdim ki, saat adamın üstündən necə ötə bilər. Amma zaman göstərdi, həyat təsdiq etdi ki, həqiqətən elə məqamlar olur ki, bir an və yaxud iki an sən özündə olmursan. Elə bil ki, cismin burda oturur, için, ürəyin, ruhun, nəfəsin harasa çıxıb gedir. Özü də elə bir sürətlə gedir ki,



onu tutmaq, dayandırmaq mümkün olmur. Az qala bu an zəlzələni xatırladır, silkələnmə baş verir, ruh bədəndən ayrılır və ... və qayıdır yerinə. Bax, onda anlayırsan, dərk edirsən baş verənləri. Və bir də xatırlayırsan böyüklərin dediyini. Yadına düşür ki, üstündən saat keçib. Gör nə vaxtdır öz içimdə təkliyin, sükutun iradəsini yerinə yetirirəm və düşüncəm də, ağlım da, hətta hərəkətlərim də yalnız mənə hakim olan gücə tabedi - o, Sevgi adlanan gücün iradəsini yerinə yetirir.

Mən də könüllü şəkildə, özü də köhnə kişilər demiş, heç nəyi və heç kimi yaxın qoymadan həmin yaşantının, həmin həyata bağlılığın qırılmaz tellərini qorumağa cəhd göstərirəm.

Elə bilirəm ki, üstümdən təkcə saat yox, hətta bütün zaman gəlib keçsə belə həmin sevgi yaşadacaq, sənə qovuşmaq, sənin yanında olmaq üçün güc verəcək, yardımçı olacaq. Mən bu cür düşüncənin hakimliyini qəbul etmişəm və bunu da təzələmək, dəyişmək fikrim, niyyətim yoxdur. Xüsusilə ona görə ki, dediyim o ilahi güc, yəni o sevgi elə Allahın özündən gəlir. Üstümdən saat keçsə də yanımdan heç vaxt sənin sevgin ötüb gedə bilməz. O mənə hopmuş, mənim havama, suyuma, ruhuma, qanıma çevrilmiş Allah payıdı, Tanrı hədiyyəsidi. Ona görə də:

***Allah, mənim üstümdən***
***Deyəsən saat keçib...***
***Hardasa ləngimişəm -***
***Gün ötüb, saat keçib...***

***Dedin sel ol! - axdım da***
***Nə var mənim baxdımda?***
***"Xəbərlər"in vaxtında -***
***Gün bitib, saat keçib!..***

***Dəyirmanla dən yarı,***
***Səni sevdim, sən yarı!!!***
***Bu vaxtacan tən yarı -***
***Gün itib, saat keçib...***

Bu şeirdə mən bir az hisslərə qapılaraq, iynə ucu boyda etiraf da etmişəm. Sənə xatırlatmaq istəmişəm ki, üstümdən keçən saat itirdiyim günlərin göz dağıdı. Mənə başa salır ki, ömür keçir, gün keçir, itirmə, geri qaytara bilməyəcəksən keçən günləri, illəri. Bax, mən də dolayısı ilə bunu sənə də deyirəm, sənə də ünvanlayıram.

Gözlərinin dərinliyindəki kədəri, kirpiklərinin ucundakı nəmi özümə köçürtmək, nəfəsimlə durultmaq istəyimi gizlətmirəm. Amma neynəyim ki, bu təkcə mənim varlığımın diləyidi, istəyidi. Bunun üçün mən sənə pərvanə oluram, amma... Amma sən bir az qürurlu, bir az soyuqqanlı, bir az da tərəddüdlü davranırsan. Mən də bu davranışın qurbanlığı olmağı qəbul edə-edə bir şeyi də fikirləşirəm. Düşündüyüm, fikirləşdiyim budur ki, doğrudanmı, sənin üçün sevgi yoxdu, mövcud deyil və yaxud sevmək çətindi, yaxud sevgi təhlükəlidi.

Deyəsən birnəfəsə dediyim suallar elə mənim özümün özümə ittihamım kimi səsləndi. Amma sən heç reaksiya vermədin. Elə bil ki, bütün baş verənlər o qədər adi və gərəksizdir ki, ona vaxt ayırmağı özün üçün qəbahət hesab edirsən. Əsl həqiqətdə isə mən səni o qədər dəqiq görür, oxuyur və davranışlarını izləyib birmənalı olaraq müəyyən etmişəm ki, sənin iç dünyan ən pak, ən dürüst, ən gerçək sevginin ünvanıdı. Sən o sevgi ilə nəfəs alırsan. Lakin onu o qədər pünhan, onu o qədər gizli saxlayırsan ki, səni görənlər düşünürlər ki, son dərəcə laqeyd və soyuqqanlısan. Təbii ki, bu sənin üçün nə qəbahətdi, nə də günah. Çünki sənin daxilin sənə aiddi. Ancaq onu da bilmək lazımdı ki, bütün sevgilər gün işığıdı. Nə qədər gizləsən də mütləq və mütləq üzə çıxacaq və çıxır da. Mən buna Allaha inandığım kimi inanıram. Deməli, gizlətdiyin sevgi mənim sükutumun səsi, mənim tənhalığımın özü və həyatımın gerçək mənasıdı. Sən gizlətsən də Allah onu məndən gizlətmir və mən də bütün çətinliklərə, bütün ağrı-acılara, bütün tərki-dünyalığa baxmayaraq yanındayam. O sevgi ilə birlikdə:

***Nə çətin oldu sevmək***
***Məni bu yaşda, gülüm!***
***Düşmür bizə sevinmək***
***Məni bağışla, gülüm!***

***Çiçək qönçəsində şeh***
***Didədə yaş kimidir.***
***Mənə yük olan ürək***
***Üzüksüz qaş kimidir.***

***Dağa qalxan dumantək***
***Sevinc ötür üstümdən...***
***Daşa dönüb bu ürək***
***Gəlib götür üstümdən.***

***Qoyma qalsın ortada***
***Gözü yaşlı bir bəndə!***
***İlahi eşq dünyada -***
***Bir səndədi, bir məndə!***

**Hə, elə bilmə ki, biz ayrı-ayrı dünyalarıq. Elə düşünmə ki, biz bir-birinə əks olan qütbləri̇k. Elə düşünmə ki, biz paralel yol gedirik. Xeyr, biz bir-birimizin içindəyik, bir-birimizin dünyasındayıq. Biz əslində bir-birimizə baxa-baxa, bir-birimizi düşünə-düşünə bir sevgini yaşadırıq! - əbədi bir sevgini.**

**Əbülfət MƏDƏTOĞLU**

## Bakcell rouminqi ilə yay tətilində dünyanı kəşf et




**Yay mövsümündə xaricə səyahət edənlərin sayının artdığı bir dövrdə Bakcell abunəçilərinə dünyanın müxtəlif ölkələrində rahat və fasiləsiz ünsiyyət imkanı yaradan rouminq xidmətlərini təqdim edir.**

Adalet.az xəbər verir ki, səfərlər zamanı abunəçilərin üstünlük verdiyi seçimlərdən biri "hamısı daxil" rouminq paketləridir. Bu paketlər mobil internet, zəng və SMS xidmətlərini bir arada təqdim edir. Həftəlik paketi aktivləşdirmək üçün *125*550# qısa kodunu yığmaq kifayətdir.

Səfərdən əvvəl istifadəçilər Bakcell-in rəsmi saytında və ya Bakcell tətbiqində gedəcəkləri ölkəni seçərək həmin istiqamət üzrə mövcud rouminq paketləri və tarifləri ilə tanış ola, ehtiyaclarına uyğun paketi əvvəlcədən aktivləşdirə bilərlər. Bu isə mobil rabitə xərclərini əvvəlcədən planlaşdırmağa və səfər boyu ünsiyyətdə qalmağa imkan yaradır.

Rouminq xidmətləri və paketləri barədə ətraflı məlumatı şirkətin rəsmi saytı, Bakcell tətbiqi və Müştəri Xidmətləri mərkəzlərindən əldə etmək mümkündür.

**Bakcell haqqında**

Bakcell Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda şirkət üç milyondan çox müştərini yüksəkkeyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Ölkə iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biri olan Bakcell süni intellekt əsaslı innovativ həllərlə Azərbaycanın dayanıqlı inkişafına töhfə verir.

Bakcell müxtəlif ölkələrdə və sahələrdə fəaliyyət göstərən NEQSOL Holding beynəlxalq şirkətlər qrupunun tərkibində olan Azerconnect Group-a daxildir.

## Səhərlər acqarına bunu etmək faydalıdır, yoxsa zərərlidir?

**Səhərlər acqarına edilən bəzi vərdişlər sağlamlıq üçün faydalı hesab olunsa da onların hər biri bütün insanlar üçün eyni dərəcədə uyğun deyil. Mütəxəssislər bildirirlər ki, acqarına qəhvə içməkdən tutmuş idman etməyə qədər bir çox vərdişin təsiri insanın yaşı, sağlamlıq vəziyyəti və həyat tərzindən asılı olaraq dəyişə bilər.**

Adalet.az xəbər verir ki, dietoloqlar günə bir stəkan su ilə başlamağın orqanizmin maye balansını bərpa etdiyini və gecə ərzində itirilən mayenin əvəzlənməsinə kömək etdiyini bildirirlər. Onların sözlərinə görə, bu vərdiş maddələr mübadiləsinin normal fəaliyyətini də dəstəkləyə bilər.

Mütəxəssislər acqarına qəhvə içməyin isə hər kəs üçün uyğun olmadığını vurğulayırlar. Xüsusilə qastrit, reflüks və ya mədə həssaslığı olan insanlarda bu mədə turşusunun artmasına, yanma hissinə və narahatlığa səbəb ola bilər. Sağlam insanlarda isə belə təsirlər daha zəif hiss oluna və ya ümumiyyətlə müşahidə edilməyə bilər.

Endokrinoloqlar səhər yeməyini uzun müddət təxirə salmamağı tövsiyə edirlər. Onların fikrincə, zülal, sağlam yağlar və liflə zəngin səhər yeməyi qan şəkərinin sabit qalmasına kömək edir, eyni zamanda gün ərzində enerji səviyyəsinin qorunmasını dəstəkləyir.

İdman mütəxəssisləri qeyd edirlər ki, acqarına yüngül gəzinti və ya aşağı intensivlikli fiziki fəaliyyət bəzi insanlar üçün faydalı ola bilər. Lakin ağır məşqlər halsızlıq, başgicəllənmə və fiziki performansın azalması ilə nəticələnə bilər. Xroniki xəstəlikləri olan şəxslərin isə idman proqramını həkimlə məsləhətləşərək müəyyənləşdirməsi tövsiyə edilir.

Ekspertlər onu da xatırladırlar ki, bütün vitamin və dərmanlar acqarına qəbul edilməməlidir. Bəzi preparatlar yalnız acqarına, digərləri isə mütləq yeməkdən sonra qəbul olunmalıdır. Buna görə də istifadə təlimatına və həkimin tövsiyələrinə əməl etmək vacibdir.

Mütəxəssislərin ümumi qənaətinə görə, səhərlər acqarına edilən hər hansı vərdişin faydalı və ya zərərli olması fərdin sağlamlıq vəziyyətindən asılıdır. Hər hansı narahatlıq yarandıqda isə özbaşına qərar vermək əvəzinə həkimə müraciət etmək tövsiyə olunur.

## Amerikada 152 milyard dollarlıq nəhəng xəzinə tapıldı

**ABŞ-nin Nevada ştatında ölkənin ən böyük volfram yatağı kəşf edilib.**

Adalet.az xəbər verir ki, bu barədə "Financial Times" qəzeti "3 Proton Lithium" (3PL) dağ-mədən korporasiyasının hesabatına istinadən məlumat yayıb.

"Railroad Valley Minerals" layihəsindəki resursların ümumi dəyəri təxminən 152 milyard dollar qiymətləndirilir.

Qəzetin yazdığına görə, yataq ərazisinin üçdə birindən çoxunu NASA-nın peyk sistemlərinin kalibrlənməsi üçün istifadə etdiyi zona təşkil edir.

"3PL" şirkəti isə öz növbəsində NASA-ya məxsus bu ərazidə faydalı qazıntıların kəşfiyyatı və hasilatına qoyulmuş qadağanın ləğv edilməsinə nail olmağı planlaşdırır.

# QORXULU OYUNCAQ



*Əlisəfa AZAYEV*

(Hekayə)

Axşam qatarının yola düşməsinə hələ bir neçə dəqiqə vardı. Elşad maşın almaq üçün şəhərə gedirdi. Yanında bir dəstə pul vardı. Özü də hamısı yüzlük. Onları dəstələmə halında cəmləmiş, sonra da ortadan rezinlə bağlamışdı ki, tərpənməsinlər. Ancaq hərdən narahat olur, pulu çıxarıb baxır, yerini tarazlayırdı.

**- Olarmı?**

**- Buyurun...**

**- Sizin də yeriniz buradadı?**

**- Hə...**

Hər ikisi yumşaq yerli vaqonun aşağı mərtəbəsində yer almışdı. Qızın çox da yaşı olmazdı. Yerini rahatlaya-rahatlaya ona qıyğacı, nəzərlə baxmaqda idi. Olduqca kök, dolu, gonbul bir qız idi... Onunla gün keçirmək olardı. Qız onunla maraqlananda dedi:

**- Nişanlıyam...**

**- Bəs siz?..**

**- Mən altı ayın gəliniyəm... Ərim həbsxanadadı. Elə indi də onun yanına gedirəm.**

**- Bu çox pis...**

Qızın bu sözləri ona pis təsir elədi. Arada düşüb stansiyadan yol üçün ondan-bundan da aldı. Qıza təklif etdi:

**- Buyurun...**

**- Oy...- Qız adamın qəlbinə nüfuz edən bir səslə əzildi-büzüldü, - nə əziyyətdi çəkmisiniz?.. Özüm ondan-bundan götürmüşdüm...**

**- Nolar ki?!. Bunu da yeyin...**

**- Görürəm, xeyirxah adama oxşayırsınız. Bəlkə, sonra...**

**- Dönərdi... Sonra soyuyacaq, yeməli olmayacaq...**

**- Nə yaxşı... Elə ürəyim istəyirdi...**

**- Elə isə lap yaxşı...**

Beləcə bir-biriləri ilə söhbətləşməyə başladılar. Qız dönər yeyə-yeyə dedi:

- Ancaq daha özün bilərsən... Mənimlə yaxın olmaq heç də yaxşı deyil.

- Niyə?! - Oğlan təəccübləndi.

- Ərim qatil... Özüm də xatalı oyuncaq...

Seyfəl dərin fikrə getdi:

- Ərin kim öldürüb ki...

- Qonşunu...

- Bəs sən niyə özünü belə adlandırırsan?

- Başsız qadınam da... Həyat məni çox erkən yaşımda ehtiyac içində qoydu, pis yola saldı...

Oğlan yenə də qızın bu iki başlı danışığından, söhbətindən bir şey anlaya bilməsə də dedi:

- Yox, heç də pis qıza oxşamırsınız.

- Bir az qəddaram...

- Bu hamıda az-çox var da...

- Məndə xüsusilə...

Qız, həqiqətən də, yaşına görə deyildi. Hiss olunurdu ki, öz söz-söhbəti ilə oğlanı daha da özünə yaxınlaşdırır, çəkirdi... Bir sözlə, əsl qadın gözəlliyi, zərifliyi, cazibəsi qələbə çalmaqda idi... Oğlan ona yaxın əyləşəndə dedi:

- Sizin adınızı heç bilmədim.

- Elə bilməsəniz yaxşıdır. Onsuz da bir neçə saatdan sonra ayrılacağıq.

- Yox, adınızı deyin...

- Üz vurmayın...

- Bu olmadı ki...

- Daha niyə inciyirsən?! Adım Lamiyədi.

- Gözəl addı... Sanki bir şirinlik hiss edirsən...

- Hə... Nənəm qoyub. Hamı belə deyir.

Əslində isə qız heç öz adını deməmişdi. Oğlan da bunu haradan biləydi ki... Adını soruşmaması isə onu lap heyrətləndirsə də, daha bir söz deməmişdi. Bunu qızın əsil-nəcabətliliyi ilə yozdu, xarakterizə elədi, onu ağır qız bildi. Ancaq bir azdan onun dediyi sözlər oğlanı diksindirən kimi oldu:

- Əlini bəri ver, baxım...

- Nəyinə?..

- Elə içinə, cizgilərə...

- Bunlar bəyəm bir şey deyirmi?

- Əlbəttə ki...

Qız zərif əlləri ilə oğlanın bir qədər cod, qabarlı əllərini tutmuş, hərədən onları lap ovxalayır, sığallayırdı... Oğlan üçün onun bu hərəkətləri xoş olsa da,həm də narahatçılıq yaradırdı... Qonşu arakəsmədən kiçik bir oğlan uşağı hərdən onlara tərəf baxır, gülümsəyirdi.

Bu ara qatar tərpəndi... Uzun, yorucu yol başladı. Arada bələdçi hərəyə bir dəst təmiz ağ verdi, çay təklif elədi... Bütün hallarda qız birinci olmağa çalışdı, səy göstərdi... Sanki bu hərəkəti ilə oğlanı daha da özünə yaxınlaşdırır hipnoz edirdi. Hətta bayaq yediyi dönərin, içdiyi suyun da pulunu hesaba alıb qaytarmağa səy göstərdi:

- Siz haradan qazanırsız ki?

- Taksi sürücüsüyəm...

- Bilmirik bu pulu hansı əziyyətlə qazanırsınız?!

- Olsun da...

- Yox...

- Daha bu olmadı ki...

Qızın hesablayıb, stolun üstə qoyduğu pul hələ də orada idi. Hərdən açıq pəncərədən külək vuranda az qalırdı ki, onu göyə qaldırıb aparsın. Oğlan dilləndi:

- Götürün bu beşliyinizi...

- Höcətlik etməyin.

- Bir də ki, onların pulu heç bu qədər deyil.

- Olsun da... Onda pulun qalığını qaytararsınız.

- Deyəsən, siz lap xırdaçılın birisiniz.

- Hə də pulunun qədrini bilən. Bütün milyonerlər belə varlanıblar da. Kasıbı kasıb edən elə onun parakəndəliyi, israfçılığı, dəqiqsizliyidi.

- Siz iqtisadçısız?

Qız gülümsədi:

- Elə ələbir şeydi... Mühasibatlığı qurtarmışam.

Oğlan ona baxdıqca xoşhal olurdu. Qız, həqiqətən, gözəl idi. Düşünəndə ki, o cəmi altı ayın gəlini olub, neçə aydı ərsizdi... Onun qəlbi döyünür, varlığını həzin bir narahatçılıq bürüyür, qanı coşurdu... Bir anda hərarəti xeyli qalxmış, yanaqlar qızarmışdı. Qız soruşdu:

- Nə pörtmüsən belə?!

- Qatar... İçəri istidi...

- Qatar yox, vaqon... Bizə məxsus bu vaqon...

- O birilər sərindi?

- Bəlkə də... Kim bilir...

Bu söhbətdən sonra sanki aralarında bir uçurum, sərinlik yarandı. Bir müddər susub qaldılar. Qız ədalı kimi görünür, öz arqumentlərini diqtə edirdi. Bu da oğlana xoş gəlməyən kimi oldu. Səsləndi:

- Bir papiros çəkim...

Yerindən qalxanda qız dedi:

- İstəsəniz elə buradada çəkə bilərsiniz... Mənə maneçiliyiniz yoxdur.

- Nə danışırsınız?!. Yox... Tamburda çəksəm yaxşıdı...

Qatar bələdçisi bu arada pürrəngi çay gətirdi. Qız oğlanı səslədi:

- Ey... Oğlan... Gəl...

Bəlkə də, qız onun adını soruşmamasına indi peşman idi. Gələndə dedi:

- Adınız nə oldu?

- Seyfəl...

- Bir ad deyil...

Oğlan bir söz demədi. Tutqun kimi idi. Elə bil ki, gözəl bir qızın onunla beləcə məzələnməsi, bu qədər yaxına buraxıb, sonra da uzaqlaşması onu əzən kimi olmuşdu. Özü dilləndi:

- Yaxşı, heç demədiniz... Əllərimin cizgiləri sizə nə dedi?..

- Çox şey...

- Məsələn...

- Siz ki, bunlara inanmırsınız...

- Siz deyin də...

- Allahın böyüklüyünü, varlığını, vahidliyini anlamayan bir adama dərs verməyin nə adı?!. Oğlan incik halda dilləndi:

- Məni təhqir etməyin... Siz özünüz nə peşə, sənət sahibisiniz?

- Mən çox... Dərzi, modelyer, cizgiçi.

- Pəh-pəh... Əcəb peşələrin var.

- Məni lağ edirsən?..

- Yox... Elə-belə deyirəm də... Sən məni təhqir eləmədin?!.

- Səni elə yaralayaram ki, ömrü boyu yeri sağalmaz...

- Bax ha...

- İstəyirsən yerimi dəyişim...

- Gözüm aydın, dəyişirsən dəyiş də...

Oğlan gedib bələdçi ilə danışdı. Razılığa gəldilər. Çantasını götürüb getmək istəyəndə qız, onun əlini tutdu, dilləndi:

- Kişi ol, ə...- dedi, - sənin hələ nə yaşındı... İndidən hər sözdən beləcə incik düşürsən...

Qız bu an gülümsər halda ona elə yaxın dayandı, ona elə baxdı, əlini elə istiqanlılıqla sığalladı ki... Canına sanki isti bir od düşdü, yanıb-yaxılmağa, istilənməyə, hərarətlənməyə başladı. Hətta dedi:

- Sənə soyuq olub...Bu gecə səni ovxalayaram...

- Zəhmət çəkməyin... Ehtiyac yoxdur...

- Görürəm də... Beləcə qızarmısız, pörtmüsüz... Bu da soyuqdəymənin əlamətlərindəndi də...

- Yox...

- Bəs sizə nolub onda belə?

- Heç özüm də bilmirəm.

Qız sanki bütün arzularına çatmışdı. İstədiyi nə idi, o da olurdu. Əlindəki telefona baxa-baxa gülümsədi:

- Bax, sizə dedim... Xəbərdarlıq etdim də... Mənimlə ehtiyatlı olun... Xatalı oyuncağam...

Qızın elə gözəl, təravətli sifət, yaraşıqlı gözləri, zərif, lətafətli dodaqları vardı ki, hər dəfə ona tərəf baxanda udqunur, köks ötürürdü... Oğlan istərəməz dilləndi:

- Xatalı oyuncaq...

- Hə... Mən beləyəm... Gördüz sizi bir anda necə haldan çıxardım.

- Deməli, bütün bunları qəsdən elədiz?

- Yox...

- Bəlkə, elə əriniz də belə haldan çıxartmısınız, gedib qonşunu öldürüb...

- Ola bilər... Bəlkə də... Ancaq xahiş edirəm, bu barədə danışmayaq...Təsirlənirəm... Mənə pis təsir edir.

- Təsir edər də...

Arada qız o qədər telefona baxıb güldü ki, oğlan da onun yanına keçəsi oldu:

- Qoy mən də baxım...

- Əyibdi...

- Necə olur?!. Siz baxırsız əyib olmur, mən baxanda əyib olur.

- Yaxşı, bax da... Nə deyirəm ki?!

Telefonda seks mənzərələri göstərilirdi. Bu vaxtı qızın əli oğlanın əlinə toxundu... Bir-birilərinin əllərini sıxdılar... Sığallaşdılar...Arada imkan tapıb yaxınlaşdılar... Nəfəs-nəfəsə qaldılar...Öpüşdülər... Qız dedi:

- Sənin hələ çətin günlərin qarşıdadı. İstəsən hər şeyi sənə öyrədərəm?

- Nəyi?!.

- Elə qadınla, qızla davranış qaydalarını... Hələ, çox kalsan... Yetişməmiş meyvə kimisən.

Oğlan incik halda pıçıldadı:

- Harda?.. Burada?.. Yorğan altında?

Qız onu ərkəyana qapazladı. Çox da güclü yox, elə-belə əda ilə. Sanki demək istəyirdi ki, o, artıq hər şeyə hazırdı. Ancaq oğlan üçün hələ də sirr idi ki, belə bir qız niyə beləcə tezcə təslim olur. Yenə də bunu gəlinin ərsizliyi, nə vaxtdan bəri tək qalması ilə bağladı.

Saat on ikidən sonra artıq onlar yatmışdılar... Özü də bir yerdə... Qızın hərdən pıçıltısı eşidilirdi:

- Yavaş... Ehtiyatlı ol... Ora yox...

- Bəs hara?..

- Sən nə korafəhimsən... Belə çətin evlənərsən... Sənə biri lazımdı elə... Təcrübə keçsin...

- O da sən...

- Bir neçə saatdan sonra ayrılacağıq.

- Ünvan verərsən.

- Çətin... Deyəsən içmisən.

- Hə... Bir az... Bayaq restoranda.

- Kişilər hamısı belədi də. İt iyi vursan... Həm papiros,həm də spirt...

- Çaxır içmişəm...

- Olsun da...

Səhərə yaxın qonşu arakəsmədən baxan oğlanın səsi eşidildi:

- Ata... Mən qorxuram...

- Nədən?

- Oradakı adamın dört ayağı var.

Atası onu sakitləşdirdi:

- Sakit ol oğlum. Qatarda belə tərbiyəsizlər olur... Yerlərini dəyişik salıb, başqalarına ortaq olurlar... Birlikdə yatırlar...

Onlar bu sözlərdən pərt halda ayıldılar. Bir-birlərinə xoş olmayan nəzərlə baxaraq səsləndilər:

- Bu sözlər sənə deyilir...

- Yox, sənə...

Qız incik halda çantasını götürüb gedəndə, oğlan ciblərinə nəzər saldı. Pulları yerində yox idi. Səsləndi:

- Dayanın... Mənim pulum.

- Başdanxarab! - deyə qız onu qınadı, - sənin pulun kimə lazımdı?!.

Söz-söhbətə, səs-küyə qatar polisi də gəldi. Araşdırma, yoxlama aparanda, pul sumkadan çıxmadı. Qız səsləndi:

- Həddiniz bilin! Sizin mənə toxunmağa haqqınız yoxdur.

Oğlan dilləndi:

- Görürsüz də... Elə bundan şübhələnmişəm...

Bələdçi bir qız çağırıb onu bütünlüklə yoxlasalar da, oğlanın pulları tapılmadı. Polis leytenantı bir daha soruşdu:

- Nə qədər pul idi?..

- İyirmi beş ədəd yüzlük... Maşın almağa gedirdim.

- Bu barədə qıza bir söz demişdin?

- Yox...

- Elə isə qızlıq bir iş yoxdur.

Sonra da ona işarə etdi ki, gedə bilər. Oğlana isə göz elədi ki, yerindən tərpənməsin. Öz peşəsinin sirli qəribəliklərinə baş vurdu. Qızı sərbəst buraxmaqla istədiyinə nail olmaq istədi və düşündü: "Pulu o götürübsə, gizlədibsə, indi arxayın halda götürər...Qoy tələsməsin, götürsün, onu bir də yoxlayarıq..."

Qatarın mənzil başına az qalmış baş leytenant qızın olduğu istiqamətə addımladı. İlahi, o, yerində yox idi. Ancaq tələsik getdiyi üçün döşək çevrikmiş halda qalmışdı... Yanı, tikiş yerləri də sökülmüş halda... Sanki oradan tez-tələsik nəsə götürülmüşdü.

Baş leytenant sanki həyəcan siqnalı verdi:

- Qız aradan çıxıb... Qatar dayananda gözdə-qulaqda olun... Mən qatar rəisinə də bildirim...

Qatar stansiyaya daxil olanda, dayananda hamı əl-ayağa düşdü. Yerli polis də köməyə gəlmişdi. Bu an Seyfəlin həyacanlı səsi eşidildi:

- Baxın! Odur!... Tələsir!.. Xatalı oyuncaqdı! Tutun onu!..

Həqiqətən də, pullar qızdan çıxdı. Bu dəfə elə yerinə qoymuşdu ki, həqiqətən də, ora kişi əli ilə nüfuz etmək etikaya zidd idi. Bələdçi qızlar köməyə gəldi. Qız utanmadan dilləndi:

- Yerə düşmüşdü... Götürdüm...

Həyasızlığı lap son həddə çatdı:

- Havayı verməyib ki... Mən də onun qulluğunda olmuşam...

Baş leytenantın susduğunu görüb, dedi:

- Bir işdi olub da, yola verin... Ərim də həbsdədi...

Ərinin həbsdə olması vəziyyəti bir qədər yüngülləşdirsə də, etdiyi əməl, hərəkətləri ürəkaçan deyildi: Onlar da cəncəl yaratmaq istəmədilər. Ziyan çəkən yox idi, pul bütünlüklə qaytarılmışdı. Baş leytenant yazmaq istədiyi protokolu hirslə kənara tulladı. Oğlandan soruşdu:

- Sənin necə, bir incikliyin yoxdu ki?

- Hələ bir olsun da...

Sonra isə qız baş leytenanta tərəf baxaraq dedi:

- Çox sağ olun... Sizin necə... Könlünüz şirin şey... Buterbrod istəmir ki?!.

Bu an zabit özünü saxlaya bilməyib onu vurdu. Qız şapalaq dəyən üzündən əli ilə yapışaraq dilləndi:

- Kaş elə vaxtında bu şillələrdən mənə çox dəyəydi. Yoxsa indi belə bəd əməllərimə görə ortalıqda qalmazdım. Ərim yazığın da təqsiri yox idi. Onu oğurluğa mən şirnikləndirdim. Araya qan düşdü, o, həbs olundu...

## Küçələrə xüsusi boya çəkildi: Temperatur 10 dərəcə düşdü

**Əks etdirici örtük günəş şüalarının bir hissəsini geri əks etdirir və səthin istiləşməsini azaldır.**

Los-Ancelesin ən isti ərazilərindən biri olan Pakoimedə 65.000 kvadrat metrdən çox asfalt sahəsi xüsusi əks etdirici boya ilə örtülüb.

Adalet.az xəbər verir ki, təcrübənin məqsədi həddindən artıq istilər zamanı yollarda, dayanacaqlarda, oyun meydançalarında və digər asfaltlanmış səthlərdə istilik yığılmasını azaltmaq olub.

Araşdırma, işlənmiş sahələrin adi asfaltla müqayisədə xeyli az istilik keçirdiyini müəyyən edib. Həddindən artıq isti dövrlərdə səth temperaturu təxminən 10 dərəcə aşağı düşüb.

Tünd rəngli asfalt günəş işığını aktiv şəkildə udur və sonra yığılan istiliyi buraxır və şəhərin "istilik adası" effektini artırır. Digər tərəfdən, əks etdirici örtük günəş radiasiyasının bir hissəsini geri əks etdirir və nəticədə səthin istiləşməsi xeyli azalır.

Təcrübə zamanı alimlər təmizlənmiş küçələri səki örtüyünün istifadə edilmədiyi qonşu ərazilərlə müqayisə ediblər. Məlum olub ki, normal günəşli günlərdə fərq azdır, lakin həddindən artıq istilər zamanı təsir daha çox nəzərə çarpır.

Lakin mütəxəssislər vurğulayırlar ki, bu texnologiya şəhərlərin həddindən artıq istiləşməsi probleminə universal bir həll yolu deyil. Səth soyusa da, əks olunan günəş radiasiyası yaxınlıqdakı insanların üzərindəki istilik yükünü artıra bilər.

Bundan əlavə, örtüyün davamlılığı şübhə altındadır. Sıx nəqliyyat axını, çirk və müntəzəm yol baxımı səbəbindən boya zamanla əks etdirici xüsusiyyətlərini itirə bilər. Buna baxmayaraq, tədqiqatçılar hesab edirlər ki, bu cür texnologiyalar böyük şəhərlərdə həddindən artıq istiliyin təsirləri ilə mübarizə aparmağın bir yolu ola bilər.

## Yanğınlar Avropaya 3 milyard avro ziyan vurub

**Avropada baş verən anormal istilər və sonrakı meşə yanğınları Avropa ölkələrinə 3 milyard avrodan çox ziyan vurub.**

Adalet.az xəbər verir ki, bu barədə "Financial Times" qəzeti məlumat yayıb.

Nəşr bildirir ki, "Fransa, İspaniya və Avropanın digər hissələrini bürüyən meşə yanğınları və istilər bu il artıq 3 milyard avrodan çox ziyana səbəb olub" .

Nəşrin hesablamalarına görə, yanğın mövsümünün ilk iki ayında təxminən 0,5 milyon hektar ərazi yanıb və bu da ən çox zərər çəkən beş Aİ ölkəsinə 3,1 milyard avro ziyan vurub.

Lakin məqalədə qeyd olunur ki, təsirlənən ölkələrdə daşınmaz əmlaka, kənd təsərrüfatına və turizmə dəyən ziyan hələ hesablanmamayıb.



*Qafar CƏFƏRLİ*

# KƏRƏM VƏ ƏSLİ

(Novella)

-Bayaqdan bir-birimizi tərifləyirik. Əslində, düz edirik. Kimsə bizi təifləməyə borclu deyil. Bu günə şükür. Bundan sonrasını isə Allah bilər. İlk badəni elə öz sağlığımıza içək. Var ol Vəzir.- Və gülə-gülə: - Padşahdan-zaddan da olmadın ki, biz də bir gün görək.

-Neyləyim... Mənim də talehimə vəzirlik düşüb. Doğulanda gərək padşah doğulasan. Buna da şükür, qardaşım. - Bu sözləri əlindəki qədəhi Mirişin qədəhinə vurub cingiltisini eşitmək üçün adəti üzrə qulaqlarını şəkləyən Vəzir dedi.

Miriş də vərdişinə sadiq qalaraq qədəhdəki arağı əvvəlcə burnuna tutub iylədi, gözlərini yumub başına çəkdi. Hər ikisi sirkəyə qoyulmuş kələmdən bir çimdik ağıza qoyandan sonra nimcədəki kababdan götürüb dişləməyə başladılar...

Günəşin rəngi saralmağa doğru gedirdi. Havanın buludlu olması özü ilə bir sərinlik gətirmişdi deyə yayın istisi hiss olunmurdu. Necə deyərlər, əsil ”yemək-içmək havası” idi. Dostlar, hər dəfə olduğu kimi bu həftənin bazar gününə də şəhər kənarında, iri palıd ağaclarının əhatəsində olan ”Görüş” kafesində son verməyə gəlmişdilər. Bu yeri də qürbətdə yaşadıqları illərin nostalji hisslərinin xətrinə seçmişdilər ki, bir azdan bundan xəbər tutarsız.

...Mirişlə Vəzir şəhərdə məhəllə uşağı idilər, uzaq qohumluqları da çatırdı.Evlərini bir market və üç ev ayırırdı. Uşaqlıqdan hərbi xidmətə gedənə qədər günləri bir yerdə keçmişdi. Təvəllüdləri eyni olduğundan eyni ildə məktəbə getmiş və eyni ildə də bitirmişdilər. Vəzirin dediyinə görə Miriş şanslı adam idi. Əsas da ona görə ki, hərbi xidmətə Miriş Moskvaya, Vəzir isə Kamçatkaya düşdü. Bir ay fərqlə xidmətdən qayıtdılar. Mirişin yenidən Moskvaya qayıtmaq istəyini ilk öncə elə Vəzir bildi. Həm də onu bildi ki, hərbi xidmətin sonuna üç ay qalmış Miriş orada, ayaqqabı fabrikində direktor işləyən, yaşı 50-yə yaxın olan İrina Mixaylovna adlı bir rus qadını ilə ”Vstreça” kafesində tanış olub münasibət qurmuşdu. İndi isə həmin dul xanım onu öz yanına dəvət edirdi. Miriş söhbətə necə şirinlik qatmışdısa Vəzir də yoldan çıxmışdı. Onsuz da rayonda qalıb neyləyəcəkdilər ki? İşləməyə yer yox, o üzdən də bekarçılıq, avaraçılıq... Və günlərin birində iki dostun Moskvaya oxumağa getməsi xəbəri məhəllədə bir müddət söhbət mövzusu oldu.

Miriş fabrik direktorunun evində yaşamağa başladı. Həm də fabrikdə alış-veriş işlərində fəal iştirak edirdi. Vəziri də həmin fabrikdə ekspeditel, yəni mal aparıb-gətirən işinə götürdülər. Hətta direktorun eyni yaşda olan rəfiqəsi ilə də aralarını düzəltdilər ki, mehribançılıq olsun. Dostların vəziyyəti get-gedə qaydaya düşürdü. Evi yıxılmış Qorbaçovun ”yenidənqurma”sı hər şeyə, ən əsası isə o boyda nəhəng dövlətin axırına çıxdı. Bundan sonra elə Moskvanın özündə də dərəbəylik başladı. Amma bu dərəbəyliyin bir çoxlarına, elə dostlara da xeyri dəydi. Qısa bir müddət fabrik bağlansa da xanım direktor Miriş,Vəzir daxil dostları ilə fabriki alayarımçıq da olsa işlətməyə başladılar. Anbarda qalan ehtiyat mal-material hesabına bir ilə yaxın bir müddətdə məhsul buraxdılar, yaxşı pul da götürdülər. Bu arada hər iki dost evlərinə dönüb elə bir sinifdə oxuduqları qızlarla: Miriş Səbinə adlı qızla, Vəzir isə Pəri ilə evləndilər, amma Moskvadakı qarmaqarışıqlığa görə arvadları rayonda saxladılar.

Mirişin evlənməsi xəbərini xanım direktor səs-küysüz qarşıladı. Onu çox istədiyindən, həm də itirməmək üçün bu söhbətin üstünə getmədi. Amma Mirişin Moskvada ona son dərəcə sadiq olduğuna xanım tam əmin idi.

Fabrik yenidən bağlanandan sonra dostlar özlərinə market açıb ticarətlə məşğul olmağa başladılar. Qazancları da pis deyildi. Yeltsinin hakimiyyətinin son illərində kriminal aləmin fəallaşması və bütün ticarət obyektlərindən yüksək ”dolya” tələb edilməsi vəziyyəti dəyişdi. Qazancın yalnız gündəliyə bəs etdiyi bir zamanda orda qalmağın mənasız olduğunu dostlar tez başa düşdülər və obyektlərini satıb olan-qalan pul-paralarını da götürüb vətənə döndülər. Hərəsi özü üçün şəhərin müxtəlif yerində minimarket açdı. Mirişin marketində ərzaq, Vəzirin marketində isə ətriyyat,hədiyyələr satılırdı. Əldə etdikləri qazanc ailələrinin dolanışığına qismən də olsa bəs edirdi.

Hə, yadımdan çıxdı deyəm ki, oxumaq bəhanəsi ilə Moskvaya getdiklərini dostlar sonradan heç vaxtı dilə gətirmədilər, heç onlardan bunu soruşan da olmadı...

Vəzir növbəti sağlıq üçün qədəhi əlinə götürdü.

-Miri, cəddinə qurban.

Bu sözdən hər ikisinin siması təbəssümə qərq odu. Yanaqları qıp-qırmızı olan Mirişin üst çənəsindəki qızıl dişləri bərq vurdu. Vəzir sözünə davam etdi:

-Amma Miri olmağın Moskvada daha çox karımıza gəlirdi, nəinki burda. Hamı səni Allah adamı kimi qəbul edir, hörmətini saxlayırdı. Vallah, ruslar bizlərə nisbətdə daha çox inanclıdırlar.

Miriş gülə-gülə başını tərpədərək: -Bizdə ”ş” hərfi işləri korlayır, - dedi. Vəzir ciddi görkəm alıb sözünə davam etdi.

-Nə isə... Allah, İrina Mixaylovnanı rəhmət eləsin. Onun hesabına bir az pul qazandıq. On il olar ki, burdayıq. Gündəlik çörəyimiz çıxır, çox şükür. Amma bütün bu əziyyətlər, çabalamalar balalara görə idi. Sənin iki oğlun, mənim də iki oğlum, bir qızım var. Allah onları xoşbəxt eləsin . Gəl uşaqlarımızın sağlığına içək.

Vəzirə baxıb Miriş də görkəminə ciddilik qatıb sözə başladı.

-Vəzir, qardaşım. Bu gün sabah 55 yaşımız tamam olacaq.Körpəlik dövrünü çıxsaq hardasa 54 ildir ki, bir yerdəyik. Bütün xeyir-şərimiz bir olub. Uşaqlarımız bir yerdə böyüyüblər. Sevincin sevincim, kədərin də kədərim olub. Sən də bu cür olmusan. Oğlum Kərəm dünyaya gələndə necə sevindiyini indi də xatırlayıram. Bir ildən sonra qızın Sənəm də doğulanda mənim sevincim yerəgöyə sığmırdı. Sonradan mənim oğlum Qeys, sənin oğlanların: Habil və Zabil dünyaya gəlişləri ilə bizi sevindirdilər. Şükürlər olsun ki, uşaqlarımız təhsil aldılar, rayonda özlərinə iş də tapdılar. Zabil oğlumuz da bu il universitetə girib bizi sevindirəcək. Uşaqlarımız bizə heç vaxtı peşmançılıq yaşatmayıblar. Allah toylarını qismət eləsin. İçək qardaş, içək.

Vəzir badələrin cingiltisini eşidəndən, Miriş isə arağın iyini burnuna çəkəndən sonra eyni vaxtda qədəhi başlarına çəkdilər və dərhal da turş kələmdən götürüb ağızlarına qoydular. Miriş kababdan bir diş vurub sözünə davam etdi:

-Vəzir, Kərəm üçün Allah bir halal südəmmiş yetirsəydi, dərdim olmazdı. Birinci uşaqdı, istəyirəm ki, onun ailəsi o biri uşaqlara da nümunə olsun.

Vəzir gülə-gülə dişlədiyi çörəyi boşqaba qoydu.

-Halal süd əmmişə söz vermirəm, amma layiqli bir qızla onu evləndirərik.

-Hələ ki, bu barədə bir kəlmə söz belə qulağıma dəyməyib. Bu sakitlik isə məni narahat edir. Artıq 26 yaşı tamam oldu. Əsil evlənməli vaxtıdır. Demişəm, dostdan, qohumdan qız aldı yoxdur. Dost dostdur, qohum da qohumdur da... Təzəsini tapmaq lazımdır ki, əhatə genişlənsin. Onu da demişəm ki, mən bilməmiş qız sevdi də yoxdur. Xəbər edər, qızın ailəsini ətraflı öyrənərəm, sonra: ”hə, yox”-cavabı olacaq. Yoxsa gedib bir haramzadənin, nə bilim əsli-nəsli bilinməyən birinin ailəsindən yapışacaq, qalaram başıma döyədöyə.

Vəzir ağzındakı tikəni udub:- Səninlə tam razıyam,-dedi.

Mirişin səsində bir yumşaqlıq, bir sevinc hiss olundu.

-İnan ki, ən böyük arzum uşağımı 24-25 yaşında evləndirmək idi. Artıq gecikirəm.

-Özünü darıxdırma. Kərəm ağıllı oğlandır. Bir də gördün ki,...

Bu vaxt gələn zəngin titrəyişindən Mirişin mizin üstündə olan mobil telefonu sürüşməyə başladı. Miriş tez telefonu götürdü. Əvvəlcə ekrana baxdı, sevincək: ”Səbişdir”- deyib telefonu qulağına qoydu.

-Bəli, komandir, eşidirəm.

Arağın təsirindənmi, yoxsa həyat yoldaşının zəngindən, əhvalına qayğı göstərməyindənmi Mirişin keyfi ala buludlarla seyrə çıxmışdı. Arada ”Sağ ol, həyatım” deməyi də buna sübut idi. Birdən Mirişin qaşları düyünləndi, rəngi qaraldı. Sağ əlində olan telefonu sol əlinə verdi. Gözləri böyüsə, ağzı açıq qalsa da danışa bilmirdi. Dodaqları əsirdi. Telefon tutan əli də titrəyirdi. Ciddi hadisənin baş verdiyini anlayan Vəzir tələm-tələsik :

-Miri, nə olub?- deyib stuldan durdu. Miriş telefonu stolun üstünə atıb üzgün halda Vəzirə baxmağa başladı. Hövsələsi daralan Vəzir onun qolundan tutub silkələdi:

-Nə olub? Bir söz desənə.

Mirişin iniltili səsi eşidildi:

-Kərəm qız qaçırıb.

-Necə?- Vəzir stula çöküb başını aşağı əydi. Maşın qapısının bərk çırpılmağından diksinən Vəzir yalnız onda Mirişi maşına minən gördü. Əvvəl nə edəcəyinə qərar verə bilməsə də özünü tez ələ aldı. Hövlnak ayağa durub indicə kafeyə müştəri gətirən taksiyə yaxınlaşdı, oturan kimi: ”Tez ol, ağ BMV-nin arxasıyca,”- dedi...

... Həyət qapısında arvadı Səbinənin qarşıladığı Mirişə çırtma vursaydılar qan fışqırardı. Ərinin xasiyyətini bildiyindən Səbinə təbəssümlə: ”Əzizim, bir az sakitləş”- sözlərini deyə bildi. Amma Mirişin böyüyüb hədəqəsindən çıxan, qıp-qırmızı qızarmış gözlərindən qorxub dərhal da kənara çəkildi. Miriş iti addımlarla evə doğru getdi. Yerində donub qalmış Səbinə həyacanla Mirişə baxırdı. Birdən ayılan kimi oldu və Mirişin arxasınca götürüldü. Mirişin bağıraraq:”Hardadı bu şərəfsiz”- deməsindən canına üşütmə gəldi. Bədbəxt hadisə ola bilmə qorxusu onun bütün varlığını bürüdü.

Otağın qapısını açıb Kərəmi içəridə görən Miriş arxaya çönüb Səbinəyə: ”Sən gözlə” - deyib qapını örtdü. Səbinə qapının alçəyindən tutsa da açmağa ürək eləmədi. Otaqdan gələn səsləri isə açıqaydın eşidirdi.

-Kərəm , bu nə işdir, eləmisən?

-Ata bir dəqiqə səbr elə, otur, mən hər şeyi başa salaram.

-Demək mən qanmazam da, mən axmağam da, məni başa salmaq istəyirsən.

-Ata o cür demirəm. Əsəbini cilovla, mən baş verənləri sənə danışım.

-Mənə nə danışacaqsan? Sənə deməmişdim ki, mənim xəbərim olmadan bu evə qız gətirmirsən? Demişdim, ya yox?

-Demişdin.

-Bəs, niyə dediyimi etmədin? Niyə hardansa tapdığın, əsli-nəcabəti bilinməyən bir qızı evimə gətirmisən? Niyə cümüyümüzü hansısa bir şərəfsizin sümüyünə calaq edirsən?

Mirişin qışqırıq səsindən nə edəcəyini bilməyən Səbinə ayaq səsinə çevriləndə Vəziri qarşısında gördü. Əvvəl duruxdu, üzünə bir qızartı gəldi. Bilmədi, gülsün, ya ağlasın. Vəzir onun halını dərhal tutdu və: ”Narahat olma, mən onu sakitləşdirərəm”- deyib qapını açıb içəri keçdi.

Miriş əsəbi görkəmdə səsə çevriləndə Vəziri gördü və hirsindən bir az da coşub-daşdı:

-Buyur qardaş. Gör sənin qardaşının ali təhsilli oğlu nə böyük qəhrəmanlıq edib. Kişi qız qaçırıb, evlənmək istəyir. Bilmirəm hansı şərəfsizin, qızını qoruya bilməyən hansı qurumsağın qızını qaçırdıb gətirib evimə. Daha böyüyüb, atasını adam yerinə qoymur.

Vəziri görəndə Kərəm bir anlıq çaşıb başını aşağı dikdi. Belə hallarda Vəzir hövsələli idi. Mirişin çığırıb-bağırıb, hay-küy saldığı çox məqamlarda Vəzirin səbrli hərəkəti hər dəfə məsələni qaydaya qoymuşdu.

Mirişi sakitləşdirmək üçün Vəzir aram səslə dilləndi:

-Qardaş, bir səbirli ol. Səsin aləmi götürüb başına. Kərəm ağıllı oğlandır, amma gərək atasının sözünə qulaq asaydı. İndi, neyləyək, öldürək onu. Bir səhvdir, edib. Lazım olsa, o qurumsağın qızını özüm aparıb evlərinə təhvil verərəm.

Bu sözlərdən Mirişin halına bir sakitlik gəldi. Səsi də kövrəldi.

-Gör oğlum başıma nə oyun açır. Bu nə biabırçılıqdır. Sənə qız qaçırtmaq yaraşarmı? Atasından, anasından xəbərsiz qaçan qızda nə tərbiyyə gözləyirsən?

Elə bu vaxt otağın sağ tərəfindəki ara qapı açıldı və Vəzirin qızı Əsli otağa daxil oldu. Kərəm başını aşağı dikdi. Mirişin və Vəzirin təəccübü bir neçə saniyə çəkdi. Miriş sevincək dilləndi:

-Qızım, yaxşı gəlmisən. Gəl bu əmin oğlunu başa sal ki, axmaq iş görüb. Ailəmizə hörmət gətirməyən hərəkət edib.

Vəzirin də siması təbəssümə qərq oldu.

-Qızım, nə yaxşı gəlmisən? Mirişin səsindən bütün məhəllə ayaq üstədir də. Gəl qızım, gəl, əmin oğlun bəlkə səni eşidib öz hərəkətindən peşman oldu.

Miriş əlinin işarəsi ilə Əsliyə boş stulu göstərdi:

-Gəl otur, bunu başa sal. Gətirdiyi qızı da apar yiyələrinə təhvil ver.

Əsli stulda oturub başını aşağı dikdi. Elə bu vaxt Səbinə də otağa daxil oldu. Əslinin yanında oturub belinə sığal çəkdi. Əsli başını astaca qaldırıb əvvəlcə atasına, sonra isə Mirişə baxdı. Yanaqları allandı. Utancaq bir səslə:

-Miriş əmi, Kərəmi bağışla. Elə məni də bağışla.

Mirişin və Vəzirin təəccüb və nigaran dolu baxışlarını üstündə hiss edən Əsli sözünə davam etdi:

-Sizin evə gəlin gələn mənəm.

Miriş və Vəzir əvvəlcə qulaqlarına, sonra gözlərinə inanmadılar. Heyrət və təəccüb dolu baxışlarla gah bir-birinə, gah da Kərəm və Əsliyə baxırdılar. Otağa elə bir sükut çökdü ki, milçək vızıltısı belə eşidilərdi. Miriş Səbinəyə tərəf çevrildi. Səbinənin üzündə artıq həyəcandan əsər-əlamət belə qalmamışdı. Sevincdən gözləri alışıb-yanırdı. Səbinə tez Əslini qucaqladı, başını sinəsinə sıxdı. Mirişin üzündə təbəssüm işartıları görünməyə başladı. Vəzir isə baş verənləri hələ də beynində çözməyə çalışırdı. Təəccüblə gah qızına, gah da Kərəmə baxırdı.

Yaranan sükutu Səbinə pozdu.

-Əslini sevdiyini bilsəm də hər dəfə atasının: ”Qohumdan qız almaram,”- sözlərini Kərəmin yadına salırdım. Amma işin bu həddə çatacağını gözləmirdim.

Düşdüyü şokdan artıq ayılan Miriş ayağa durdu, əvvəlcə Əslinin, sonra isə Kərəmin alnından öpdü. Bayaqkı gərginlikdən əsər-əlamət qalmamışdı. Hamı sevincək idi. Bu dəm Səbinənin həlim səsi hər kəsin ürəyinə yağ kimi yayıldı:

-Əsli ilə Kərəmin kəbini həm yerdə, həm də göydə kəsilib. Təki talehləri oxşamasın. Xoşbəxt olun balalarım.

Mirişin gur səsi eşidildi.

-Allah xoşbəxt eləsin.Uşaqlarımız bizdən ağıllı çıxdılar. İndi isə... - Səsindəki sevinci, doğmalığı hər kəs hiss etdi.- İndi isə Əsli evinə gedib elçilərimizi gözləsin.- Üzünü Vəzirə tutdu:- Quda, biz də gedək, yarımçıq qalan məclisimizi davam etdirək.

**Lürən kəndi Masallının əhalisi elə də çox olmayan orta yaşayış məskənlərdən biridir. Doğrudur, bu məkan elə balaca olmasa da hər halda Ərkivanla, Boradigahda, Alvadıyla, Əurmandalıyla, Qəriblərlə müqayisədə kiçik guşədir. Həm əhalisi, həm də ərazisi. Lakin 2025- 2026 - cı tədris ilində F. Şükürov adına kənd məktəbinin məzunu Rəvan Cəbiyev əməlli - başlı təkcə öz adına deyil, eləcə də bu təhsil ocağının adına əməlli - başlı şan - şöhrət gətirib. Tələbə İmtahan Komissiyasının IV qrupunda imtahan verən Rəvan 670 bal toplayaraq məktəbin şərəfli tarixində rekordçu məzun olmuşdur.**

Çox təvazökar və utancaq təsir bağışlayan gənc artıq Tibb universitetinin tələbəsidir. Onun öz uğurları barədə fikirləri maraqlıdır:

-Yüksək nəticəmə görə ilk növbədə doğma müəllimlərimə və valideynlərimə minnətdaram. Çünki həmişə yaxşı oxumuşam. Buraxılış imtahanında 273 bal, qəbul sınaqlarında ilk cəhddə 383 bal, ikinci cəhddə isə 397 bal topladım. Beləliklə, ümumilikdə 670 balla qiymətim dəyərləndirildi.

# Lürən məktəbinin məzunu rekord qırıb



Xoşbəxtəm. Axı, mən həmişə fənn olimpiadaların qalibi kimi Masallıda finalçı olmuş, fəxri fərman, diplom almış, birincilik qazanmışam. Bakı şəhərində keçirilən yarışlarda mükafatçı olmuç, kənd məktəbinə ölkə birinciliklərin, qalibi qismində qayıtmışam. Bax, indiki uğurumun kökündə bu amillər durur.

Onu da deyək ki, Rəvan Cəbiyev ziyalı ailəsində yetişmişdir. Atası həkim, anası isə tərbiyəçi pedaqoqdur. Necə deyərlər, bütün ailələri müəllimliklə çörək tapıb. Hər iki babası, nənəsi, əmisi və başqa qohum - əqrəbaları. Əlbəttə, bu ənənəvi kömək təsirsiz ötüşməyib. Rəvan əmisi Tural müəllimi ayrıca qiymətləndirir. Çünki bu peşəkar fizik öz fənninin dərin bilicisidir və qardaşı övladını da vacib dərsindən yaxşı hazırlayıb. Rəvan çətin fizika fənnindən heç vaxt büdrəməyib, həmişə ən yüksək hədəflərə çatmağı bacarıb. Belə bir diqqətin və qayğının sayəsində Rəvan mütəmadi suretdə Lənkəran - Astara Regional Təhsil İdarəsində keçirtdiyi, Zəfər - olimpiadalarının hər il ardıcıl qalibidir.

İndi Masallıda hər kəs vaxtilə görkəmli pedaqoq Ələbbas Talıblının direktorluq etdiyi Lürən kənd məktəbinin rekordçu məzunundan ürəklə danışır, o kişinin ruhuna rəhmət oxuyur. Təhsil müəssisənin inkişafında sonrakı nəslin qabaqcıl nümayəndəsi İltimas Nəzərovun da xidmətləri danılmazdır. İndi meydan Rəvan kimi yeniyetmə gəncindir. Yəqin ki, on illər boyunca yuxusuz gecələr keçirən Rəvan gələcəkdə ən yaxşı həkim kimi el- obasının da sevimlisinə çevriləcək, tanınmış mütəxəssis olacaq. Buna şübhə ola bilməz. Nəticə respublikada yüksək sayılır.

Bizə isə bu sözləri demək qalır: Uğurların bol olsun, rekordçu məzun, Rəvan bala!

**Ağacəfər HƏSƏNLİ**

## *AQTA-dan vətəndaşlara çağırış*

**Yay mövsümündə havanın temperaturunun yüksəlməsi qida məhsullarında mikroorqanizmlərin sürətlə çoxalmasına şərait yaradır və qida zəhərlənməsi riskini artırır. Bu səbəbdən istirahət və ya piknikə gedərkən qida təhlükəsizliyi və şəxsi gigiyena qaydalarına riayət etmək vacibdir.**

Bu barədə Adalet.az-a Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyindən (AQTA) məlumat verilib.

Mütəxəssislər tövsiyə edirlər ki, piknik zamanı tez xarab olmayan və daşınması rahat qida məhsullarına üstünlük verilsin. Çiy ət daşındıqda portativ soyuducudan istifadə olunmalı, çarpaz çirklənmənin qarşısını almaq məqsədilə isə ət digər qidalardan ayrı və soyuducunun alt hissəsində saxlanılmalıdır.

Turizm və ictimai iaşə obyektlərində qidalanarkən masaların, qab-qacağın və istifadə olunan avadanlıqların təmizliyinə diqqət yetirilməlidir.

Eyni zamanda, qida obyektlərində sanitariya-gigiyena tələblərinə əməl olunması və işçilərin şəxsi gigiyena qaydalarına riayət etməsi vacibdir.

Piknik zamanı qidalar təmiz səth və ya örtük üzərində saxlanılmalı, bişirilmiş yeməklər isti hava şəraitində iki saatdan artıq otaq temperaturunda qalmamalıdır. Əks halda, qidalarda bakteriyalar sürətlə çoxalaraq qida mənşəli xəstəliklərin yaranmasına səbəb ola bilər.

Sadə qida təhlükəsizliyi və şəxsi gigiyena qaydalarına əməl etməklə yay mövsümündə sağlam və təhlükəsiz istirahət etmək mümkündür.

# Azərbaycan Dövlət Pedaqoji Kollecindən ABŞ-a uzanan uğur yolu

## Sərhədlər xəritələrdədir, biliyin isə sərhədi yoxdu

**İnsan ömrünün əsl dəyəri təkcə qazandığı uğurlarla deyil, yetişməsinə şərait yaratdığı insanların taleyində qoyduğu izlə ölçülür. Cəmiyyətə xidmət etməyin ən ali forması isə gənclərə yol göstərmək, onların bilik, bacarıq və dünyagörüşünün inkişafına töhfə verməkdir.**

Mən də 34 illik peşə fəaliyyətim ərzində, xüsusilə son səkkiz ildən artıq müddətdə Azərbaycan Dövlət Pedaqoji Kollecinin Sosial Məsələlər və İctimaiyyətlə Əlaqələr üzrə direktor müavini kimi məhz bu amal uğrunda çalışmışam. Xalqıma, dövlətimə və çalışdığım təhsil ocağına faydalı olacaq gənclərin yetişməsi naminə bütün imkanları səfərbər etmiş, hər bir tələbənin inkişafı üçün əlimdən gələni əsirgəməmişəm. Çalışmışam ki, tələbələrimiz yalnız Azərbaycanda deyil, ölkə hüdudlarından kənarda da öz layiqli yerlərini tutsun, bilik və bacarıqları ilə ölkəmizi ləyaqətlə təmsil etsinlər.

Son səkkiz ildən artıq müddətdə sosial məsələlər və ictimaiyyətlə əlaqələr sahəsində fəaliyyət göstərərək tələbələrin inkişafına yeni imkanlar qazandırmağı, onların gələcəyinə işıq salacaq layihələrin həyata keçirilməsini özümə mənəvi borc hesab etmişəm. Mənim üçün uğur yalnız şəxsi nailiyyət deyil, çalışdığım Kollecin inkişafına töhfə vermək, onun nüfuzunu daha da yüksəltmək və tələbələrimiz üçün yeni üfüqlər açmaqdır.

Məhz bu məqsədlə "Humayun" Sosial Problemlərin Həllinə Kömək İctimai Birliyi ilə mütəmadi və səmərəli əməkdaşlıq qurmuşam. Eyni zamanda həmin ictimai birlikdə tələbə gənclərlə iş üzrə koordinator kimi fəaliyyət göstərirəm. Təşkilatın təsisçiləri ilə apardığımız müzakirələr və ortaq baxışlarımız nəticəsində belə qənaətə gəldik ki, kollecdə təhsil alan gənclərin beynəlxalq təcrübə qazanması üçün yeni imkanların yaradılması zəruridir.



Bu təşəbbüs çərçivəsində kollecdə "İnklüziv təhsil", "Ailə və ev təhsili", "Məktəbəqədər təhsil" və digər ixtisaslar üzrə təhsil alan tələbələrin beynəlxalq təlim proqramlarına cəlb olunması nəzərdə tutuldu. Məqsədimiz onların üç aylıq peşəkar hazırlıq proqramı vasitəsilə müasir bilik və bacarıqlara yiyələnməleri, beynəlxalq təcrübə qazanmaları, daha sonra isə Vətənə qayıdaraq əldə etdikləri bilik və bacarıqları ölkəmizdə tətbiq etmələri, xalqımıza və dövlətimizə layiqli mütəxəssislər kimi xidmət göstərmələri idi.

İnanıram ki, gənclərə yaradılan hər bir imkan gələcəyə qoyulan ən qiymətli sərmayədir. Çünki bu gün onların qazandığı bilik və təcrübə sabah ölkəmizin inkişafına xidmət edəcək, Azərbaycanı beynəlxalq müstəvidə daha layiqincə təmsil edən peşəkar mütəxəssislərin yetişməsinə mühüm töhfə verəcəkdir.

Azərbaycan gənclərinin beynəlxalq təhsil məkanında qazandıqları uğurlar ölkəmizdə həyata keçirilən məqsədyönlü təhsil islahatlarının və beynəlxalq əməkdaşlığın real nəticəsidir. Xarici ölkələrdə təcrübə proqramlarında iştirak edən tələbələr yalnız peşəkar bilik və bacarıqlarını inkişaf etdirmir, eyni zamanda, Azərbaycanı beynəlxalq mühitdə layiqincə təmsil edirlər. Bu baxımdan ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin əldə etdiyi son nailiyyət xüsusi diqqətə layiqdir.

Belə ki, Azərbaycan Dövlət Pedaqoji Kolleci tarixində ilk dəfə tələbələrin ABŞ-da keçirilən beynəlxalq inklüziv təcrübə proqramına qəbul olunması təhsil müəssisəsinin beynəlxalq əlaqələrinin genişləndirilməsi istiqamətində atdığı məqsədyönlü addımların məntiqi nəticəsidir. Uzun illər aparılan sistemli hazırlıq, könüllülük fəaliyyətinə verilən önəm və müxtəlif qeyri-hökumət təşkilatları ilə qurulan səmərəli əməkdaşlıq bu uğurun əsasını təşkil etmişdir.

Müasir təhsil yalnız auditoriyada verilən nəzəri biliklərlə məhdudlaşmamalıdır. Tələbələr beynəlxalq mühitdə fəaliyyət göstərməli, müxtəlif ölkələrin təcrübəsini öyrənməli və əldə etdikləri bilikləri məhz öz Vətənlərində gələcək peşə fəaliyyətlərində tətbiq etməlidirlər. Məhz bu məqsədlə kollec uzun illərdir müxtəlif beynəlxalq təşkilatlar və qeyri-hökumət qurumları ilə səmərəli əməkdaşlıq əlaqələri qurur və bu ardıcıl şəkildə genişləndirir.

Xüsusilə qeyd etmək istəyirəm ki, kollecin tarixində ilk dəfə həyata keçirilən bu beynəlxalq uğurun əldə olunmasında mənim də əməyim və təşəbbüsümün olması qürurvericidir. Bu təşəbbüs mənim üçün böyük fəxarət, kollecin gələcək beynəlxalq inkişafı üçün isə yeni və işıqlı yolun başlanğıcıdır.

Bu əməkdaşlığın ən mühüm nəticələrindən biri tələbələrimizin ABŞ-da fəaliyyət göstərən Camphill Village USA beynəlxalq proqramına qəbul olunmasıdır. İlk dəfə olaraq kollecin tələbələri bu nüfuzlu proqram çərçivəsində üç aylıq beynəlxalq peşəkar təcrübə keçmək imkanı əldə ediblər.

Bu uğura aparan yol isə könüllülük fəaliyyətindən başlayıb. Cari tədris ili ərzində kollecin "İnklüziv təhsil", "Məktəbəqədər təhsil", eləcə də "Ailə və ev təhsili" ixtisaslarında təhsil alan tələbələr "Humayun" Sosial Problemlərin Həllinə Kömək İctimai Birliyi ilə əməkdaşlıq çərçivəsində həyata keçirilən "Yurdum" Sosial Eko-Kənd layihəsində könüllü kimi fəaliyyət göstəriblər. Xüsusi qayğıya ehtiyacı olan insanlarla çalışan tələbələr bu müddətdə həm peşə bacarıqlarını inkişaf etdirib, həm də sosial məsuliyyət, empatiya və humanist dəyərlər baxımından zəngin təcrübə qazanıblar.

Könüllülük fəaliyyətində fərqlənən "İnklüziv təhsil" ixtisasının III kurs tələbələri Firuza Bayramova və Aida Hüseynova beynəlxalq seçim mərhələlərini uğurla keçərək ABŞ-da keçirilən proqramda iştirak etmək hüququ qazanıblar. Onlar artıq viza prosedurlarını tamamlayaraq ABŞ-a yola düşüblər.

Proqram çərçivəsində tələbələr ABŞ-ın Nyu-York ştatında yerləşən Camphill Village USA icmasında yaşayır və fəaliyyət göstərirlər. Burada onlar Daun sindromlu, autizm spektr pozuntusu olan, serebral iflicli və digər inkişaf fərqlilikləri yaşayan şəxslərlə birlikdə çalışır, onların sosial adaptasiyasına, gündəlik həyat fəaliyyətinə və əmək bacarıqlarının inkişafına dəstək göstərirlər. Bununla yanaşı, inklüziv təhsil, sosial pedaqogika və sosial iş sahəsində dünyanın qabaqcıl təcrübəsini öyrənərək gələcək peşə fəaliyyətləri üçün mühüm bilik və bacarıqlar qazanırlar.

Layihənin uğurla həyata keçirilməsində Azərbaycan Respublikasının



Gənclər və İdman Nazirliyinin, AmCham-ın (Amerika Ticarət Palatası) və "Humayun" Sosial Problemlərin Həllinə Kömək İctimai Birliyinin mühüm dəstəyi nəticəsində tələbələrin ABŞ-a səfəri üçün aviabiletlər təmin edilmiş, proqram müddətində onların sosial təminatı yaradılmış, hər ay təxminən Camphill Village USA tərəfindən 180 ABŞ dolları məbləğində təqaüd ayrılaraq gənclərin bütün diqqətlərini peşəkar inkişaflarına yönəltmələri üçün əlverişli şərait formalaşdırılmışdır.

Düşünürəm ki, əldə olunan nəticə təkcə iki tələbənin uğuru deyil, bütövlükdə Kollecin, Azərbaycan təhsilinin, dövlətimizin gənclər siyasətinin və eləcə də fəxarətlə deyə bilərəm ki, mənim 34 illik pedaqoji fəliyyətimin uğurudur. Əsas məqsəd isə gələcəkdə daha çox tələbənin beynəlxalq proqramlarda iştirakını təmin etmək, yeni tərəfdaşlıqlar qurmaq və gənclərimizin xarici ölkələrdə peşəkar təcrübə qazanmaları üçün daha geniş imkanlar yaratmaqdır.

Bu ilk uğur bir daha sübut edir ki, təhsil, könüllülük fəaliyyəti və beynəlxalq əməkdaşlıq bir-birini tamamlayan mühüm amillərdir.

Dünyanın inkişaf etmiş ölkələrində qazanılan bilik və təcrübə gələcəkdə Azərbaycanın inklüziv təhsil sisteminin inkişafına, sosial xidmətlərin keyfiyyətinin yüksəldilməsinə və peşəkar kadr potensialının gücləndirilməsinə mühüm töhfə verəcəkdir.

İyun ayının 3-dən etibarən ABŞ-ın Nyu-York ştatında yerləşən Camphill Village USA icmasında fəaliyyət göstərən tələbələrimiz üç aylıq proqramı uğurla davam etdirir, peşəkar bacarıqlarını daha da təkmilləşdirir və zəngin beynəlxalq təcrübə qazanırlar.

**Azərbaycan Dövlət Pedaqoji Kollecinin tələbələrinin ABŞ-a uzanan bu uğur yolu gənclər üçün yeni perspektivlər açmaqla yanaşı, bir daha nümayiş etdirir ki, əzm, məqsədyönlü fəaliyyət və düzgün qurulmuş beynəlxalq əməkdaşlıq böyük nailiyyətlərin əsasını təşkil edir. Bu uğur həm təhsil müəssisəsi, həm də Azərbaycan gəncliyi üçün qürurverici hadisə olmaqla yanaşı, gələcək beynəlxalq layihələrin həyata keçirilməsi üçün də mühüm stimul yaradır.**

**Sevda Axundova**
**ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə direktor müavini**

Vaqif YUSİFLİ
Filologiya elmləri doktoru



# "Xəzan"ın solmayan yarpaqları

**Azərbaycanda ən uzunömürlü ədəbi jurnal "Azərbaycan"dır. 1923-cü ildən bəri bu jurnal "ədəbiyyatımızın güzgüsü" kimi neçə nəslin ədəbi zövqünü formalaşdırıb. Bülə deyək: bu jurnal 103 ildir ki, ədəbi sələf rolunu oynayır. "Azərbaycan"dan sonra onun yolunu davam etdirən ədəbi jurnallar meydana şıxdı. Təbii ki, o jurnalların əksəriyyəti uzunömürlü olmadı - bircə "Ulduz"dan başqa. Amma o ənənəni davam etdirən bir jurnaldan söz aşmaq istəyirəm - hələlik nəşri davam edən və 10 yaşəna çatan "Xəzan" jurnalı yoluna davam edir. ("Yurd", "Ədəbi ovqat", "Yazarlar" jurnallarını da unutmayaq) .**

Məlumdur ki, "Azərbaycan" və "Ulduz" jurnalları Azərbaycan Yazıçılar Birliyinin ədəbi orqanlarıdır. "Azərbaycan" jurnalı ədəbi prosesin yönünü, istiqamətini doğru-düzgün əks etdirir, bu jurnalda müasir ədəbiyyatımızın - nəsrimizin, şeirimizin, dramaturgiyamızın, tənqidimizin, publisistikamızın və tərcümə sənətinin seşmə nümunələri öz əksini tapır. "Ulduz" jurnalında isə əsasən ədəbi gənclik təmsil olunur.

Bəs "Xəzan" jurnalı? Bu jurnal təkcə tanınmışları deyil, nisbətən az tanınan müəlliflərin də yazılarını gen-bol çap edir. Mövzu baxımından da əziyyət çəkmir - şeir, nəsr, tənqid və publisistika nümunələri (həmçinin digər mövzularda yazılan əsərlər) bu jurnalda öz yerini tapır. Təkcə qaynar ədəbi həyatdan (Bakı ədəbi mühitindən) deyil, bölgələrdən gələn SƏSlər də jurnalda öz nəfəsini hiss etdirir.

Söhbətimizə jurnalın baş redaktorundan - Əli Bəy Azəridən başlayaq. Əli Bəy Azəri müasir nəsrimizdə bir sıra maraqlı, oxunaqlı hekayələrin, povestlərin müəllifidir. Onun nəsri özünəməxsus üslubu ilə seçilir. Nədən yazırsa - yazsın Əli Bəy Azəri bu üsluba sadiq qalır: həyat həqiqətini bədii həqiqətə çevirmək, maraqlı obrazlar yaratmaq, təbii dil stixiyası ilə diqqəti cəlb etmək... Əli Bəy Azərinin nəsri barədə ədəbi tənqiddə ciddi bir araşdırma nəzərə çarpmayıb (buna ümüd bəsləyək). "Xəzan" jurnalında isə biz onun baş redaktor kimi "dirijor çubuğu"nu izləyirik.

Əli Bəy Azəri bizə "Xəzan" jurnalının 2024-2026-cı illərdə çapdan çıxan 5 nömrəsini təqdim etdi ki, fikrimizi bildirək. Biz bu beş nömrədə dərc edilən bütün yazılardan yox, bəzi yazılardan söza çmaq istərdik.

2024-cü il №7(61). Bu nömrədə Lənkəranda yaşayan Əhməd Haqsevərin 70 illiyi qeyd olunur. Əhməd Haqsevər təkcə Cənub bölgəsində deyil, Azərbaycan ədəbi mühitində də tanınır. O, çoxtərəfli, çoxjanrlı müəllifdir. Əruzu yaxşı bilir, gözəl qəzəlləri var. Heca və sərbəst vəzndə müxtəlif mövzuları əhatə edən şeirləri, həmçinin sonetləri də onun istedadını nümayiş etdirir. Şeirlərində metaforalar və digər bədii təsvir vasitələrinə rast gəlirik - bunlar onun şeirlərinin naxışlarıdır. Baxın:

***Yağış yağır***
***Pəncərə baxır***
***və gözlərindən yaş axır.***
***havalar soyuq keçir,***
***Payız üşüyə bilər.***
***Payız özü bir ağacdır,***
***Yarpaq kimi düşür***
***hər gün***
***bir gün***
***bu ağacdan.***

Həmin nömrədə istedadlı şairlər kimi tanıdığımız Təranə Dəmirin, Daməd Salmanoğlunun, Ələsgər Talıboğlunun, Zaur Ustacında şeirləri verilib və hər bir adını çəkdiyimiz şair Səsi və Nəfəsiylə seçilməyə can atıb.

2025-ci il №6 (69). Bu nömrədə Sarı Aşıq ədəbi məclisinin təcəssümü olan şəkil ön plandadır. Yenə də şeirlər, nəsir əsərləri və ədəbi-tənqidi yazılar... Bu dəfə də az-çox tanınan müəlliflərin yazıları ilə rastlaşırıq: Xosrov Natil, Məhəmməd Əli, Hafiz Əlimərdanlı, Vahid Məhərrəmli, Təranə Musayeva, Arzu Nehrəmli... Amma Naxçıvanda yaşıyan Xanəli Kərimlinin "Bayrağını uca qaldır, Ana Vətən" poemasından sərf-nəzər etmək olmaz. Qoy oxucular bu poemanı oxusunlar, Vətəni sevsinlər.

2025-ci il №7 (70). Bu nömrədə müasir Azərbaycan poeziyasının görkəmli nümayəndələrindən biri - Firuzə Məmmədlinin 85 yaşı qeyd olunur. Ədəbiyyatşünas Məxrux Dövlətzadənin "Ömür bir uzyun şeirdir" məqaləsində Firuzə xanımın yaradıcılığı haqqında təəssüratlar öz əksini tapıb. Və ardınca Firuzə xanımın şeirləri gəlir:




***Dilimin canında söz şirinliyi,***
***Məni söz düzündə yaşatdı dilim.***
***Dilimin varlığı - öz diriliyim,***
***Yağıya söz ilə daş atdı dilim.***
***Dilim güvəncimdi əlim yalınsa,***
***Dilini yaşadan xalq ölə bilməz.***
***Qadağa qoyulsa, dönər qılınca,***
***Dil ağa tanımaz, dil kölə bilməz.***

Firuzə xanım da bütün şeirlərində dilin saflığını, gözəlliyini qoruyub.

2026-cı №2 (72). Bu nömrədə Hafiz Əlimərdanlının qəzəlləri daha çox diqqəti cəlb edir. Nəyə görə? Hafiz müəllim səhv etmiriksə, görkəmli alimdir, amma onun qəzəlləri Hafiz müəllimin şairlik ömrünün bədii simvollarıdır.

Baxın:

***Yetməyə vəslinə yarın, gözlərəm mən nə zamandır,***
***Nigaran qalsa da könlüm, dözərəm, mən nə zamandır.***
***Dedilər yar səni gözlər, hicrinə son qoyar yəqin,***
***Hələ ki, pəjmürdə olub, gəzərəm mən nə zamandır.***

2026-cı il №1 (71). Bu nömrədə biz müasir poeziyada öz yazı manerası ilə seçilən Xosrov Natilin "Poeziya çələngi"ilə tanış oluruq. Bu "Çələngdə" onun bir şair kimi özünəməxsusluğunu hiss edirəm. İbrahim Yusifoğlunun şeirləri də onun bir şair kimi inkişafınfdan xəbər verir Özünəməxsus deyim tərziylə seçilir bu şeirlər. Amma bu nömrədə Zeynəb Cəmaləddinin öz poetik ahəngiylə seçilən şeirləri də yaxşı təsir bağışlayır. Xüsusilə, "Yeddi qızılgül" şeiri... Amma bu nömrənin şeir bəzəyi zənnimizcə Gülnarə İsrafilin şeirləridir.

Gülnarə İsrafil müasir şairlər sırasında bir kimsəyə bənzəmir, necə deyərlər, öz ritmi, öz intenadsiyası və öz bədii təsvir vasitələri ilə seçilir.

Əlbəttə, bizə irad tuta bilərsiniz ki, siz ancaq "Xəzan" jurnalında dərc edilən şeirlərdən söz aşdınız, bəs nəsr əsərləri və digər yazılar necə olsun? Darıxmayın, yaxın aylarda bu əsərlər barədə də söz açacayıq.

**"Xəzan" jurnalının bütün əməkdaşlarına, onun ayrı-ayrı nömrələrində çap olunan müəlliflərə yaradıcılıq uğurları arzulayırıq! "Xəzan" heç vaxt yolundan qalmasın!**



***Akif Əhmədgil***

## *Fırtınanın fatehisən Fatimə*

*Xəzər dənizində iki nəfərin həyatını xilas edən Fatimə Kuxmazovaya ithaf olunur*

**Fırlatmısan fırtınadan fəqiri**
**Fırtınanın fatehisən Fatimə**
**Fərasətin fərmanını fələyin?!.**
**Fövqündəsən fırtınanın. Fatimə.**

**Fırlanırmi Fatimənin faytonu?**
**Fərqindəmi faytonun filankəs?**
**Faytondakı firondumu. Fatimə?**
**Faytonunla filarmonyaya fırlanaq.**

**Fırlanırıq fərmanıyla fələyin**
**Filarmoniyada ""Fiqaro"",**
**Fısıldayır fleyta.**
**Filankəsin Fidanısan Fatimə!**
**Fərqindəmi fincandakı falının?!..**
**Filarmoniyada fasiləmi, Fatimə?..**

**Fayton fani, fincan fani, fal fani.**
**Fikrimizcdə ""Fatihəmi"", Fatimə?!.**
**Fırlanırıq fərmanıyla fələyin,**
**Fırlanırıq fəsillərdən fəsilə.**

**Fındıqburun Fatimənin fotosu**
**Feysbukda faytonuyla fırlanır.**
**Fövqündəsən fırtınanın, Fatimə...**
**Fatehisən fırtınanın Fatimə. ..**

## *Mən Qəribəm, Qəlbinur*

*Murad Köhnəqalanın sifarişi ilə Paşa Qəlbinura həsr olunur*

**Qədləmisən qələmini, Qəlbinur,!**
**Qəm qüssəyə, qüssə qəmə qarışıq...**
**Qədərimdə qara qızın qəmzəsi,**
**Qara qaşlı qara qızı qarşıla...**

**Qəm qönçəsi qəlbimdədi qədimdən,**
**Qisqanasan, qıvrılasan qəzəbdən.**
**Qədəmində qara qaşlı qara qız...**
**Qan qaralda qaldırdığın qədəhlər.**

**Qədərində qırovdumu, qardım?..**
**Qəm qırova, qar qarğışa qarışa...**
**Qəm qalası - Qız qalası. - Qıfılbənd...**
**Qaçhaqaçda qəm - qüssəni qarşıla.**

**Qədərində qarayanız Qəmərdi,**
**Qızıldandir qılıncinon qəbzəsi.**
**Qaraltmazmi qanınızı, Qəlbinur,**
**Qarabəniz qızlarının qəmzəsi...**

**Bəhram Bilaloğlu**

# Çıraqçı



Bir kənddə qədim bir çıraqçı yaşayırdı. Ömrü boyu insanların yolunu işıqlandırmışdı. Heç kimdən nə şöhrət ummuşdu, nə də alqış. Onun inancı bir idi:

"Bildiyini gizlədən işığını söndürər."*

Bir gün qapısını tanımadığı bir adam döydü.

- Mənə yol göstər, - dedi. - Elə bir iş görmək istəyirəm ki, heç kimin haqqına girməyim.

Çıraqçı bildiyi hər şeyi danışdı. Hansı qapının necə açıldığını, hansı yolun çıxılmaz olduğunu, hansı addımın insanı ucaldacağını bir-bir söylədi. Düşündü ki, xeyir paylaşdıqca çoxalar.

Bir neçə gün sonra həmin adam öz nümayəndəsini göndərdi. Çıraqçı onu hörmətlə qarşıladı. Çünki onun gözündə qonaq Allah əmanəti idi.

Amma qaranlıq həmişə işığın arxasınca gəzər deyə düşünürdü.

Bir salam, bir görüş, bir qarşılanma dillərdə başqa rəng aldı. Sözlər böyüdü, həqiqət isə kiçildi. Niyyət soruşulmadı, hökm verildi.

Günlərin birində həmin adam yenidən gəldi. Bu dəfə üzündə minnətdarlıq yox idi.

- Sənin işdən ayrılmağın daha doğru olar.

Cümlə qısa idi, amma illərin zəhmətini içində daşıyırdı.

Çıraqçı heç nə demədi. Çünki bilirdi ki, özünü hər kəsə izah etməyə çalışan adam axırda həqiqəti yox, yorğunluğunu sübut edir.

Bir müddət sonra onun yerində başqaları işləməyə başladı. Dünən məsləhət istəyən adam bu gün istədiyinə çatmışdı. Dünən yolu soruşan bu gün yolu sahiblənmişdi.

Çıraqçı isə başqa bir yerdə, əvvəlkindən də az maaşa işləyirdi. Hər səhər ailəsinin ruzisi üçün yola çıxır, hər axşam yorğun çiyinləri ilə geri dönürdü. Maaşı azalmışdı, amma ən ağır yük cibində deyildi.

Ən ağır yük ürəyində idi.

Çünki insanı yoxsulluqdan əvvəl dəyərsiz sayılmaq yorur.

Bəzən çörək azlığı insanı sındırmır. Bir "sağ ol"un, bir "haqqını halal et" sözünün olmaması sındırır.

Bir axşam yol kənarında qurumuş bir ağacın altında dayandı. Ağacın budaqlarına baxdı. Nə kölgəsi qalmışdı, nə meyvəsi.

Elə bu zaman külək yarpaqsız budaqları dilləndirdi:

"İnsanlar çox vaxt meyvənin dadını sevir, kökün çəkdiyi əziyyəti yox."

Çıraqçı gözlərini yumdu. O an anladı ki, dünyanın tərəzisi həmişə haqqı ölçmür. Bəzən mənfəəti ağır gələn gözlər vicdanı görə bilmir.

Amma başqa bir tərəzi də var.

Orada salam qarşılığında ittiham yazılmır.

Orada səmimiyyət zəiflik hesab edilmir.

Orada zəhmətin qiyməti maaşla deyil, niyyətlə ölçülür.

Həmin gündən sonra çıraqçı heç kimə kin saxlamadı. Çünki bildi ki, kin insanın içində yanan elə bir oddur ki, əvvəl sahibini yandırır.

O yenə də bildiyini paylaşdı, yenə də insanlara yol göstərdi. Tək bir fərqlə...

Artıq mükafatını insanlardan gözləmirdi.

Çünki öyrənmişdi...

# "Yazı, fikir adamı oxucunun, xalqın istədiyinimi yazmalıdır?"

**"Məncə, bunu etmək onun mənəvi intiharı olar. Xalqın istədiyi şey xalqın özünün düşünə və yaza bildiyi şeydir. Yazı, fikir adamı xalqın düşünə və yaza bilmədiyini düşünməli, xalqın yaza bilmədiyini yazmaldır. Əks halda, onun işi folklordan başqa bir şey olmayacaq".**

Adalet.az xəbər verir ki, bunu yazıçı Aqşin Yenisey deyib. O, bizim hələ cəmiyyət olaraq yazının bəşəri missiyasını dərk etmədiyimizi bildirib: "İnsanın tanrılara qurban edilməsi yazının icadından sonra başa çatdı. Yazıya qədər dünyada uğultu vardı. İnsan bu uğultunun əsiri idi. Yazı insanı bu uğultunun əlindən aldı. Barbarlıqdan mədəniyyətə, fundamentalizmdən sekulyarizmə keçmək üçün əlimizdə yazıdan başqa alət yoxdur. Yazmayan cəmiyyət hansı əsrdə yaşamasından asılı olmayaraq barbardır. Orada sözün təmkini, fikrin sükutu yoxdur, səs var, küy var, uğultu var.Yazı, fikir adamının öhdəliyi bu vəhşi uğultunu susdurmaqdır. Əgər o da bu uğultuya qoşulacaqsa, ortaya çıxan şeyin adı müasir Azərbaycan ədəbiyyatı, fəlsəfəsi, təhsili olacaq".

**Vasif ƏLİHÜSEYN**



BAYAT

№ 91 (951)



# Bu dünyadan Nəriman keçmədi... BİZİMLƏDİR!



Nəriman HƏSƏNZADƏ

## Nərdivan

Bu dünya nərdivandı.
Qalxanda mehribandı
Enəndə nə yamandı.
Görüşdük pillələrdə,
Yolun yarısında biz.
O qalxırdı bu dəmdə,
Mən enirdim xəbərsiz.
Onu arzularına
Qaldırıdı nərdivan,
Məni xatirələrə endirirdi.
Bu zaman,
birimiz-günçıxana,
birimiz-günbatana
Qalxa bilməzdim daha,
Nə o güc, nə o taqət.
O da enə bilməzdi.
Haqlı-haqsız, vermişdi
öz hökmünü təbiət.
Gərək ya düşməyəydi
Bu görüş heç araya.
Ya o əvvəl gələydi,
Ya mən sonra dünyaya.

## Elə dayanırsan

Elə dayanırsan, elə baxırsan,
Elə bil qarşında quru bir daşam.
İpək saçlarını bir vaxt oxşayan
Elə bil hardasa mən olmamışam.

Səni dostlarımla, tanışlarımla,
Mən tanış edərdim nə vaxtsa bir-bir.
İndi özgələri yad ehtiramla,
Deyirlər tanış ol
Nə qəribədir?!

Yuxuda görərdin nə vaxtsa hər dəm,
Yolumu gözlərdin yollardan uzaq.
Mən sənin yuxundan çıxıb gəlmişəm,
Bu da bir yuxudur, gəl tanış olaq.

Qoluna girərdim bu, yadındadır,
gedərdik yolumuz, arzumuz şərik.
Qolum qollarının lap yanındadır,
toxunsa biz indi üzr istəyirik.

Hayanda oldumsa səhər, ya axşam,
Aradın sən məni, gördün sən məni.
İndi gözlərinin qabağındayam,
Hayanda durum ki,
Görəsən məni?

## Saraya

Mən səni həyatda daşa dəyişdim,
Torpağa dəyişdim, məzara döndün.
Mən öz baharımı qışa deyişdim,
Çinara dönmüşdün, hasara döndün.

Bir ana bənd imiş bu əbədiyyət,
Duydum buza dönən nəfəsimi də,
Anamı əlimdən alan təbiət
Gözü götürmədi, aldı səni də.

Mən bir xəcalətdən çıxa bilmədim,
Bu gizli dərdimi açıq desəm də.
Sənə - sənə layiq baxa bilmədim,
Səni - sənə layiq dəfn eləsəm də.

Yerə söykədilər mərmər üzünü,
Qışqırdım dayanın,əl saxladılar
Mən özüm örtərdim evdə üzünü,
Burda, qəbristanda torpaqladılar.

Sən getdin, dəyişdi həyatın özü,
Getdi dadı-tamı, hər şeyi getdi.
Evi bəzərdin ki, gözəl görünsün,
Evimin ən gözəl bəzəyi getdi.

Gedib dost-qohumun qəbri üstünə,
Gül-çiçək qoyurduq ikilikdə biz.
Mən sənsiz ölərəm! Demişdim sənə,
Hamısı yalanmış, yaşadım sənsiz

Sənə sədaqətdi bütün həyatım
Deyərdim, baxardın gülümsəyərək.
Səni qəbristanda qoyub qayıtdım,
Sədaqət şüarım bu imiş demək.

Bu gün qəbristanda gecikib səhər,
Üstünə nur səpir qızıl dan yeri.
Torpaq ot bitirər, ağac bitirər,
Burda daş bitirir qəbristan yeri.

Bir gözəllik itib duman içində,
Dünya imtahanmış, işləri ovsun.
İlahi, bu qədər insan içində,
Bir insan tapılmır söz demək olsun.

Fikirli qalxıram üzüyuxarı,
Nə qədər yaxınsan, nə qədər uzaq.
Təzə ot göyərib örtür cığırı,
İtirmək istəyir qəbrini torpaq.

Mənsiz darıxardın evdə hər dəfə,
Dözümsüz olmuşdu gecə-gündüzün.
Gedəndə deyərdin tez qayıt evə,
Bəs niyə qayıdıb gəlmirsən özün?!

Gözüm yolda qalıb, qulağım səsdə,
Gedibsən, qalmışam mən qonaq kimi.
Sən yerin altında, mən yerin üstə,
Biz ayrı düşmüşük kök budaq kimi.

***

Mən səni sevəndə yaz havasıydı,
Neyləyim, taleyin gözü tökülsün.
Həyatım əlində quş yuvasıydı,
Quran özün oldun, uçuran özün.

Mən səni sevdim ki, yoldaş olasan,
Həyatın ən ağır, dar yollarında.
Demədim axırda bir daş olasan,
qədim qəbirstanda, yol kənarında.

Mən səni sevdim ki, yüyür, qaç, oyna,
Yenə seçilməsin ətrin bahardan.
Demədim təzədən gizlənpaç oyna,
Axşam yuxuma gir, səhər qaç ordan.

Yadıma nə düşür! - sənin ad günün
Biz qoca deyirdik, dünya təzəymiş
İli yox həyatda insan ömrünün
Anı da tarixidə bir hadisəymiş.

## Ürəyim ananı istəyir, qızım

Ürəyim ananı istəyir qızım,
Sən yaşa, dünyada qəmsiz kədərsiz,
Bir səs qulağıma döz deyir, qızım,
Mən dözdüm, yaş ötdü məndən xəbərsiz.

Qaşlarım qaradı, saçlarım ağdı,
Təbiət şəkilimi çəkir yenidən.
Hamı bu dünyada qocalacaqdı,
Amma tək qocalmaq dərd verir hərdən.

"Dağlar" deyə-deyə mən dağ aşmışam,
Hanı tale dostum, ürəkdən gülən?!
Dünyada yaşayıb dünyalaşmışam,
Dünyayla düz gəlmir daha mən deyən.

Daddım acısını şirin həyatın,
Hələ bu acıdan doyan olmayıb.
Qızım qardaşınla sən olmasaydın,
Deyərdim dünyada anan olmayıb.

Daha yaş artdıqca, səbrim azalır.
Yaş aşdı   Neyləsin yaş əyir, qızım,
Qadınsız ata da anasız, qalır
Ürəyim ananı istəyir, qızım...

## Dözmür Nəriman

Sən məni bu qədər gözlətməmişdin,
Belə qoymamışdın gözümü yolda.
Bu qədər özünü gizlətməmişdin,
Gizlənpaç oynayan vaxtımızda da.

Hayana getsən də, dönmüşdün yenə,
Qayıdıb gəlmişdin mənsiz darıxıb.
Bu dəfə bilmirəm nə olub sənə,
Gedibsən, qayıtmaq yadından çıxıb.

Qalıb evimizdə palın-paltarın,
Tələsik gedəndə kimə deyibsən?!
Qapının ağzında başmaq tayların,
Yolda ayağına bəs nə geyibsən?!

Solub pianonun üstündə güllər,
Təzə pərdələri yandırıbdır gün.
Sənin bişirdiyin o mürəbbələr
İçilib qurtardı hardasan özün?!

Bu axşam qəribə bir hiss keçirdim,
Nə tez ömür ötdü, yaş əlli oldu,
Sənin ad gününü sənsiz keçirdim,
Şəkilin yeganə təsəlli oldu.

Şirin söhbətindən olmayıb doyan,
Çağır qonşuları doyunca gülək:
Mənsiz gördünüzmü dözmür Nəriman
Sənə qurban olum sən görmədin tək

## Qızlardan oğlanlara

Oğlanlar, qızlara hörmət eləyin,
Ya sevin qızları, ya rədd eləyin.
Aldadıb atmayın, günahdı qızlar
Sabahkı ən əziz anadı qızlar.

Səsində həya var, gözündə ovsun,
Evdə dilavərdi, çöldə lal olur.
Gözünüz qızların gözündə olsun,-
O gözdə daimi bir sual olur.

Qızlar anadılar, oğlanlar ata,
Kim deyir, bu işi bir əyən olmur?!
Qızların qız baxtı gözəl olsa da
Gəlinlik vaxtları müəyyən olmur.

Fikirə öyrəşir, qəmə qatlaşır,
Qəlbində yaşadır, sirrini təkcə.
Öz ata evində qızlar yadlaşır
Yad oğlan evinə meyl eylədikcə.

Qəlbini sevdiyi oğlana deyir,
Ancaq rəfiqəsi soruşsa, danar.
Özgə anasına qız ana deyir,
Özgə atasına qız olan qızlar.

Qızlar aldananadı, siz aldatmayın,
Aldanıb yananın qanı buz qalar.
Qolları üstündə gedib yatmayın,
Yazıqdı, əbədi yuxusuz qalar.

Görüşə getməyin ürək sevməsə
Sözümü, a qızlar, ucuz tutmayın.
Ürəkdən çəkirik nə çəkiriksə,
Bunu da həyatda siz unutmayın.

## Tələbəlik

Durur ayrıldığım kölgəli çinar,
Durur Gəncədəki bizim institut.
Xəyalım bir yerdə tutmadı qərar,
İlləri andırdı bir anlıq sükut.

Neyləyim, unutmur insan ürəyi,
Yaşadım dünyadan könlü yanıqlı.
Düz dörd il geyindim köhnə pencəyi,
Qolu gödək oldu, boynu yamaqlı.

O pencək saxladı məni soyuqdan,
Doğru danışmağı çoxu ar bilir.
Əynindən çıxardıb vermişdi atan,
Heç kim bilməsə də qonşular bilir.

Bəzən ac da qaldım daha nə danmaq,
Danışıb gülməyə könlüm olmadı.
Şerim qəzetdə çap oldu, ancaq
Bir qəzet almağa pulum olmadı.

Lakin bu dərdimi bilmədi heç kim,
Mən bildim qədrini sevincin, qəmin.
Arabir xəlvəti baxıb sevindim,
Təzə yamağına köhnə çəkməmin.

Gülmə, görməmisən o sevinci sən,
Xoşbəxt böyümüsən, xoşbəxt ol, anam.
Bir də bilirsənmi mən o sevincdən
Dünyada heç kəsə arzulamıram.

Oldu sevincim də, oldu qəmim də.
Bir tələbə qıza könlümü verdim.
Onun hər sözünü öz aləmimdə
Seminar dərsitək əzbərləyirdim.

Deyirdim, nə qədər baha olsa da,
Gərək üzük alım, bu bir adətdir.
Ancaq avtobusun keçib yanından,
Piyada gedirdim dərsə arabir.

Qoy indi ağrısın vicdanın varsa -
Girdi aramıza onda bir nəfər.
Bir gəncin taleyi alt-üst olursa,
Ağırdır dağılan ailə qədər.

Fikir ver hökmünə sən misalların,
Deyir su quyunun dibində olur.
Hayıf ki, ürəyi bəzi qızların
Başqa oğlanların cibində olur.

Qoy bir sözdə deyim, çıxarma yaddan,
Bu da, necə deyər, bir məsləhətdi.
Çalış ki, əvvəlcə yanılmayasan,
Təəssüf ikinci məğlubiyyətdi.

Ömrün yolları da pilləkan kimi
Gendən ucalara lap çox baxmışam.
Mən o pillələrlə bir insan kimi
Gör ki, necə gəlib, necə qalxmışam.

## Yenə də gözlərim gözündə qalıb

Yenə də gözlərim gözündə qalıb
gördüyüm mənaya qurban olaram.
Əgər həqiqətsən, mən həqiqətə,
röyasan, röyaya qurban olaram.

Söhbətin şirindi, gülüşün təzə,
Saldın ürəyimi eşqə, həvəsə.
Sən ayaq basdığın o yola, izə,
çəmənə, səhraya qurban olaram.

Çatsın hər muradın başa dünyada,
bir arzun dəyməsin daşa dünyada,
Bu dünya gözəldi, yaşa dünyada,
sən olan dünyaya qurban olaram.

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 29 (2501) 7 avqust 2026-cı il

# BİZ MÖHTƏŞƏM QƏLƏBƏNİ ŞƏHİDLƏRİMİZİN QANI HESABINA QAZANDIQ



**Heç bir qələbə, heç bir mücadilə asanlıqla əldə olunmur. Başqa sözlə demiş olsaq, əgər torpağını işğaldan azad etmək istəyirsənsə, bunun üçün sənin hər bir vətəndaşın, hər bir əsgərin, hər bir zabitin və hər bir generalın böyük döyüşə və müharibəyə hazır olmalıdır. Əgər bu yoxsa heç şübhəsiz, düşmən üzərində qələbə qazanmaq mümkün olmayacaq. Amma bu dediyimiz elementlər varsa, gec-tez yağı düşmən üzərində qələbə qazanılacaq, işğal altında olan torpaqlar azad olunacaq və həmin yerlərdə sənin bayrağın sancılaraq dalğalanacaq.**

Bax, 30 ildən çox Azərbaycan ərazisinin 20 faizi işğal altında qalmışdır. Və ermənilər də düşünürdülər ki, bu işğal uzun müddət qalacaq və onlar da zəbt etdikləri yurdlarımızda, yuvalarımızda, torpaqlarımızda çox rahat və firavan yaşayacaqlar. Belə baxanda onlar 30 il bizim torpaqlarımızın altını üstünə çevirdilər, ev-eşiklərimizi tari-mar elədilər. Hətta onun inşaat materiallarını sataraq çoxlu pul qazandılar. Hələ bu da hamısı deyildi, onlar Azərbaycan meşələrinin faunasını və florasını məhv etdilər. İşğal altında olan torpaqlarımızın təbii sərvətini, var-dövlətini apardılar. Meşələrimizdəki nadir və qiymətli ağacları qırıb tikinti materialı kimi istehsal etdilər, hətta xarici ölkələrə ixrac olundu. Amma hər bir qaranlıq günün işıqlı anı və hər bir cinayətin də ağır cəzası var.

Baxmayaraq ki, ermənilərin havadarları dünyanın çox böyük süper dövlətləri idi və onlara arxa dururdu, üstəlik də BMT-nin dörd qətnaməsi icra olunmurdu, amma bütün bunların həlli yolunu Azərbaycanın Ali Baş Komandanı, prezident İlham Əliyev çox yaxşı tapdı. Ulu Öndər Heydər Əliyevin və prezident İlham Əliyevin beynəlxalq təşkilatlardakı müdrik çıxışları dünyanı inandırdı ki, Azərbaycan ədalətli mövqe tutub, beynəlxalq hüququn normalarına uyğun hərəkət edir və buna görə də heç bir xarici ölkə dövlətimizə bir söz deyə bilməz. Çünki Azərbaycanın 20 faizindən artıq ərazisi düz 30 ildən çox işğal altında idi. Artıq dünya buna inandı və əsl həqiqəti qəbul etdi.



Ali Baş Komandan, prezident İlham Əliyevin əmri ilə 2020-ci ilin sentyabrın 27-də ordumuz ermənilər üzərində əks hücuma keçdi. Ona görə "əks hücuma" deyirik ki, onlar tez-tez işğal olunmuş ərazilərimizdən hərbi mövqelərimizi və yaşayış məntəqələrimizi fasiləsiz olaraq atəşə tuturdu. Təbii ki səbrin də bir həddi vardır və artıq bu səbr tükənmişdir. Ona görə də ordumuzun sentyabrın 27-də ermənilərə qarşı əks hücumu başladı. Düşünmək olardı ki, ermənilər nəsə müqavimət göstərəcək. Düzdür, onlar müqavimət də göstərirdi, mübarizə də aparırdı, döyüşürdülər də.

Azərbaycan Ordusu təpədən-dırnağa qədər silahlandırılmış erməni ordusuna qarşı böyük döyüşə başladı. Və bu döyüş elə-belə döyüş deyildi, yəni ölüm-qalım mübarizəsi idi. Öz yurdunu işğaldan azad edən Azərbaycan əsgəri ilə işğalçı erməni əsgəri üzbəüz döyüşürdü. Əlbəttə, Vətən eşqi, torpaq həsrəti və bir də Allahın verdiyi güc bizim əsgərləri qələbəyə aparırdı. Artıq bir neçə gündə əsgərlərimiz bu qələbə sevincini yaşadılar. İşğal altında olmuş Füzulinin və Cəbrayılın səkkiz kəndi iki-üç gündə azad olundu.

Düzdür, bu kəndlərimiz uğrunda gedən ağır döyüşlərdə şəhidlərimiz oldu, əsgərlərimiz güllə yarası aldı. Amma onları nə şəhidlik, nə də güllə yarası qorxutdu. Əksinə, bizim əsgərlərin hər biri and içirdi ki, şəhid olan əsgərlərin və yaralı oğullarımızın qisasını ermənilərdən üç-dörd qat alacaqlar. Və elə belə də oldu, Cəbrayıl və Füzuli istiqamətində şiddətli döyüşlər getdi. Ermənilərin keçilməz səddi olan "Ohanyan səddi" darmadağın oldu.

Bu yaxınlarda Cəbrayıldan qayıdarkən "Ohanyan səddi"ni gördüm. Düz beş-altı səddən ibarətdir, dərin kanallar qazılıb, keçilməz sədlər qurulmuşdu. Heç həmin sədləri tanklar, ağır texnikalar belə keçə bilməzdi. Keçsə də minalanmış ərazidə həmin texnikalar sıradan çıxmalı idi. İndi siz Azərbaycan ordusunun əsgərlərinin, zabitlərinin və generallarının peşəkarlığına baxın ki, döyüşə-döyüşə həmin yerlərdən minaları necə təmizləyib, ağır texnikalarımız və əsgərlərimiz o döyüş mövqelərini necə ələ keçirib. Həmin yerlərə baxanda sanki hər şey film kimi canlanırdı. Çünki bu səddi keçmək, həmin ərazilərdəki minaları təmizləmək ən yüksək peşəkarlığa malik olan orduya aid ola bilərdi. Azərbaycan Ordusu bunu bacardı və dünyada heç bir ordunun göstərmədiyi şücaəti, mücadiləni və möhtəşəm qələbəni tarixə yazdı.

Artıq ağır döyüşlər zamanı Cəbrayıl şəhəri erməni işğalından azad olundu Sonra strateji əhəmiyyətli Xudafərin körpüsü azad edildi Hadrut azad edildi Füzuli şəhəri azad edili Artıq yol Qubadlıya gedirdi Zəngilana gedirdi Laçına gedirdi

Azərbaycan Ordusu və Azərbaycan əsgəri döyüşə-döyüşə ən yüksək zirvəyə - noyabrın 8-də Azərbaycanın and yeri olan Şuşaya çatdı. O qayalardan, o daşlı-kəsəkli yerlərdən qalxaraq xüsusi təyinatlılarımız və əsgərlərimiz Şuşa qalasına daxil oldu. Hansı ki həmin yerlər minalanmışdı və kameralarla nəzarətdə saxlanılırdı. Vallah, bu mücadiləni və bu döyüşü Azərbaycan əsgərindən başqa heç bir əsgər bacara bilməz. Çünki həmin an ermənilər vahiməyə düşmüşdülər, başlarını itirmişdilər və çıxış yolu tapa bilmirdilər. Xırda silahla hücuma keçən xüsusi təyinatlılarımız şəhərin içərisində erməni ordusunu çaş-baş salmışdı. Onlar çaşıb bizim əsgərlərə atəş açmaq əvəzinə özlərini vururdular. Yüksək peşəkarlıq göstərən xüsusi təyinatlılarımız onların ağır texnikalarını, tanklarını, BTR-lərini ələ keçirib özlərinə qarşı çevirmişdilər.

**Ancaq filmlərdə belə ola bilərdi. Amma Azərbaycan əsgəri İkinci Qarabağ savaşında, 44 günlük möhtəşəm döyüşdə bu əməliyyatları həyata keçirdi. 44 günlük əməliyyat dünya hərb tarixində misli görünməmiş bir hərbi əməliyyat idi. O hərbi əməliyyat ki Ali Baş Komandan, prezident İlham Əliyevin və Azərbaycan Ordusunun rəhbərliyi ilə həyata keçirildi və tarixə qızıl hərflərlə yazıldı!**

**Emil FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Türkiyə sahillərində ruhu dinləndirən mavi səyahət

**Su məkanları uzun illərdir insan üçün gündəlik həyatın tempindən uzaqlaşmağın və dincəlməyin ən təsirli yollarından biri hesab olunur. Son dövrlərdə isə suyun insanın fiziki və psixoloji rifahına müsbət təsiri daha çox diqqət çəkir. Bu yanaşma son illərin diqqətçəkən səyahət trendlərindən biri olan "Blue Mind" konsepsiyasının geniş yayılmasına səbəb olub. Təbiətlə təmasda olmağı və həm fiziki, həm də zehni baxımdan yenilənməyi hədəfləyən səyahətlərə maraq artır. Bu istirahət anlayışında intensiv sağlamlıq proqramlarından daha çox su üzərində və sahil boyunca yaşanan sadə, təbii təcrübələr ön plana çıxır. Sahil boyunca qayıqla səyahət etmək, səhər saatlarında dənizdə üzmək və ya dəniz kənarında sakit gəzintiyə çıxmaq istirahətin ən yaddaqalan anlarına çevrilir. Elmi araşdırmalar da suya yaxın məkanda qısa müddət keçirməyin stressin azalmasına, əhval-ruhiyyənin yaxşılaşmasına və zehni aydınlığın artmasına müsbət təsir etdiyini göstərir.**

Egey və Aralıq dənizi sahilləri boyunca uzanan minlərlə kilometrlik sahil xətti Türkiyəni "Blue Mind" təcrübəsini yaşamaq üçün əlverişli istiqamətlərdən birinə çevirir. Burada mavi səyahətin çoxəsrlik ənənəsi ilə dənizin sakit ritminə uyğun istirahət etmək, gizli koylar boyunca üzmək, firuzəyi rəngli körfəzlərdə lövbər salmaq və təbiətlə baş-başa qalmaq mümkündür. Türkiyənin ən maraqlı mavi səyahət marşrutları dəniz, təbiət və sakitliyi bir araya gətirərək ziyarətçilərə fərqli istirahət təcrübəsi təqdim edir.

Türkiyənin qərb sahilləri boyunca şimaldan cənuba uzanan mavi səyahət marşrutu hər dayanacaqda fərqli mənzərə və təəssürat təqdim edir. Səyahət Egey dənizinin sərin mehinin, mənzərəli sahil şəhərlərinin və kristal kimi təmiz körfəzlərin bir araya gəldiyi İzmir şəhərindən başlayır. Egeyin incisi kimi tanınan İzmir möhtəşəm yelkən marşrutları ilə də diqqət çəkir. Şəhər zeytun və şərab marşrutları, Egey mətbəxi və "MICHELIN" ulduzlu restoranları ilə yanaşı, füsunkar kurort şəhərləri ilə də seçilir. Onların arasında ən məşhurlarından biri Çeşmədir. Burada Ilıca, Ayayorgi, Pırlanta, Boyalık körfəzləri və Eşək adası kimi göz oxşayan məkanlarda lövbər salaraq dənizin və günəşin dadını çıxarmaq mümkündür. Çeşmədə olarkən dünyanın aparıcı külək sörfü məkanlarından biri hesab olunan yaxınlıqdakı Alaçatı şəhərini də ziyarət etmək tövsiyə olunur.

Gününüzü Çeşmə yarımadasının digər incilərindən biri olan Urla şəhərində yaddaqalan axşamla tamamlaya bilərsiniz. Buradakı "MICHELIN" tərəfindən tanınan restoranlarda yerli və üzvi məhsullardan, təzə dəniz məhsullarından və Egey otlarından hazırlanan "fermadan süfrəyə" konsepsiyalı yeməkləri yerli şərablarla birlikdə dadmaq mümkündür.

Marşrut Muğla istiqamətində davam etdikcə növbəti əsas dayanacaq Türkiyədə mavi səyahət ənənəsinin yarandığı Bodrum olur. Lüks hotelləri, təmiz çimərlikləri və "MICHELIN" tərəfindən tanınan restoranları ilə seçilən Bodrum, eyni zamanda Egey dənizinin ən gözəl yelkən marşrutlarına çıxış imkanı yaradır. Gümüşlük, Bitez, Yalıkavak, Göltürkbükü və Orak adası ətrafındakı sular bu baxımdan xüsusilə diqqət çəkir. Ənənəvi türk qayıqlarından olan qayıqla - qületlə səyahət edənlər firuzəyi rəngli koylarda lövbər salaraq günlərini sakit şəkildə keçirə, dənizdə üzə, şnorkellə dalış edə və sualtı aləmin zənginliyini kəşf edə bilərlər. Bodrumdan sonra marşrut Gökova körfəzinə doğru uzanır. Burada Maden körfəzi, İngilis limanı, Dovşan adası və Akyaka kimi təbiət və sakitliyi ilə seçilən məkanlar səyahətçiləri gözləyir.



Bougainvillea çiçəkləri ilə bəzədilmiş küçələri və ağ rəngli evləri ilə tanınan Bodrum yalnız dəniz istirahəti ilə məhdudlaşmır. Mavi Bayraqlı çimərlikləri, zəngin Egey mətbəxi və tarixi abidələri şəhərin əsas cazibə məkanları sırasındadır. Səyahətə məşhur Sualtı Arxeologiya Muzeyinin yerləşdiyi Bodrum qalasını ziyarət etməklə başlaya, daha sonra Qədim Dünyanın Yeddi Möcüzəsindən biri hesab olunan Halikarnas Mavzoleyinin qalıqlarına baş çəkə bilərsiniz. Günün sonunda isə zeytun yağlı Egey mətbəxinin özünəməxsus təamlarını və təzə dəniz məhsullarını dadmaqla Bodrum səyahətini tamamlayın.

Qədim zeytun bağları və badam ağacları ilə əhatələnən Datça ənənəvi daş evləri, daş döşənmiş küçələri və toxunulmaz sahil xətti ilə sakitliyi sevənlərin diqqətini çəkən füsunkar yarımadadır.

Sahil boyunca dəniz səyahəti zamanı Palamutbükü, Hayıtbükü və Akvarium körfəzi kimi gözdən uzaq və sakit koylar kəşf olunur. Kristal kimi şəffaf suları ilə seçilən bu məkanlar üzgüçülük, şnorkellə üzgüçülük və dalğıclıq üçün əlverişli imkanlar yaradır. Səyahət buradan Marmarisə doğru davam edir. Kumlubük, Sərçə limanı, Sedir adası və Bördübet kimi mənzərəli lövbər dayanacaqları isə sakitlik, təbiətin gözəlliyi və macəra hissini bir arada yaşamaq istəyənlər üçün fərqli təcrübələr vəd edir.

Knidos sahillərinə çatdıqda dənizə açılan möhtəşəm mənzərəsi ilə seçilən qədim şəhəri kəşf edə bilərsiniz. Burada Afrodita məbədi və dənizə baxan qədim teatrın qalıqları yerləşir. Bu məkan Egey sahillərində gün batımını izləmək üçün ən yaddaqalan ünvanlardan biri hesab olunur. Marmarisdə isə sahilə çıxaraq şəhərin tarixi simvollarından biri olan Marmaris qalasını ziyarət etmək mümkündür. Hazırda burada fəaliyyət göstərən Marmaris Muzeyində bölgənin zəngin dənizçilik və arxeoloji irsi ilə yaxından tanış olmaq olar.

Muğlada mavi səyahət marşrutunun ən diqqətçəkən dayanacaqlarından biri Fəthiyə körfəzidir. Bu dəniz səyahətinin mərkəzində isə dünya səviyyəli marinaları ilə tanınan Göcek yerləşir. Buradan Göcek adası, Yassıca adaları, Bedri Rəhmi körfəzi, Tərsanə adası və Boynuzbükü körfəzi kimi kristal təmiz suları ilə seçilən məkanlara doğru yola çıxmaq mümkündür.

Yaxınlıqda yerləşən Kleopatra hamamlarının su altında qalmış qalıqları isə üzgüçülük və şnorkellə dalış üçün fərqli təcrübə təqdim edir. Göcekdən sonra səyahəti Fəthiyə istiqamətində davam etdirmək, Katrancı körfəzi, məşhur Ölüdəniz laqünü və sakitliyi ilə seçilən Kabak körfəzi kimi təbiət möcüzələrini kəşf etmək olar.

Göcek yaxınlığındakı Dalyan qəsəbəsi ziyarətçilərə qədim Kaunos şəhərini kəşf etmək imkanı yaradır. Qayalara oyulmuş məzarları ilə tanınan Kaunosun ardınca Aralıq dənizinin nəsli təhlükə altında olan Caretta caretta dəniz tısbağalarının əsas yuvalama məkanlarından biri olan İztuzu çimərliyinə baş çəkmək mümkündür. Fəthiyədə isə firuzəyi suların üzərində yamac paraşütü ilə uçaraq Ölüdənizin möhtəşəm mənzərəsini yüksəklikdən seyr etmək səyahətin ən yaddaqalan anlarından birinə çevrilə bilər.

Türkiyə Rivierasının mərkəzi olan Antalya mavi səyahəti başa vurmaq üçün ən ideal istiqamətlərdən biridir. Firuzəyi rəngli dənizlə Aralıq dənizinin möhtəşəm təbiət mənzərələrinin qovuşduğu bu bölgədə Kaş və Kekova arasındakı marşrut xüsusi diqqət çəkir. Səyahət Limanağzı, Göyərçin adası, Aperlay, Tərsanə körfəzi, Üçağız və Kaleköy kimi sakit koylar və mənzərəli dayanacaqlardan keçir. Yol boyunca kristal təmiz sularda üzmək, zəngin sualtı aləmi kəşf etmək və dənizin altında qorunan tarixi irslə tanış olmaq səyahətə xüsusi rəng qatır. Dünyanın ən məşhur dalğıclıq məkanlarından biri olan Kaş rəngarəng rifləri və tarixi gəmi qalıqları ilə sualtı kəşflər üçün geniş imkanlar yaradır. Kekovada isə məşhur Batıq Şəhərin üzərində dəniz kayakından istifadə etməklə bölgənin qədim tarixinə fərqli rakursdan nəzər salmaq mümkündür.

**Antalya yalnız sahil və dəniz istirahəti ilə məhdudlaşmır. Bölgə möhtəşəm Aspendos qədim teatrı, Pataranın zəngin arxeoloji irsi, Mavi Bayraqlı çimərlikləri və Likya yolu boyunca uzanan füsunkar mənzərələri ilə də seçilir. Səyahəti isə Aralıq dənizi mətbəxinin özünəməxsus ləzzətləri ilə tamamlamaq olar. Təzə dəniz məhsulları, mövsümi məhsullar və yerli dadlarla zəngin mətbəx Antalya səfərinin sonuna xüsusi dad qatır.**

## Dilarə: "Məhv olmağa hazır idim"

**Gənc ifaçı Dilarə Kazımova şəxsi həyatı ilə bağlı maraqlı məqamları açıqlayıb.**

Adalet.az bildirir ki, o, artıq sevə bilmədiyini söyləyib: "Üç dəfə ciddi sevmişəm. Artıq sevəndə həyəcanlanmıram. Həmin o üç dəfədə həyəcanlanırdım. Hər bir insanın sevgi limit olur. Məncə 3 dəfə məndə limt bitdi. Ürəkdən sevmişdim. Məhv olmağa da hazır idim. İndi sevməyə qorxuram. Düşünürəm ki, sevsəm məhv olaram. Sevgi ilə məhvolma hissi- birinə düşməndir".

**Əntiqə**



## *TƏBRİK!*



**Bu gün, yəni avqustun 8-i onun dünyamıza gəldiyi və artıq 3 ildir bizi sevindirdiyi tarixdir. 3 ildir ki, biz - onu sevənlər, gəlişinə sevinənlər Fateh işığında doğum gününü qeyd edirik. Ömrümüzün dadı-duzu, balı-şəkəri, dilimizin sözü, könlümüzün sevinci Fatehdir. Bu xoşbəxtliyi bizə bəxş edən Allaha minnətdarlıqla biz də onun üçün dua edir, atalı-analı böyüməsini diləyirik! Allah onu sevənləri və sevdikləri üçün qorusun. Sayılıb-seçilən FATEHLƏRDƏN biri olsun!**

**Fatehi doğum günü münasibətilə qardaşı Atilla, bacıları Nigar, Aysu və Nərgiz, atası, anası, dayısı Babək, bibisi Fəridə, xalası Nilufər, əmisi Anar, nənəsi Zərnigar və babası Əbülfət Mədətoğlu ürəkdən təbrik edir və onu öpürlər. Allah qorusun!**

**Gəlişinə sevindiyim bu günü**
**Yaddaşıma ÜRƏK! - deyib, yazmışam.**
**Sənin üçün qurulacaq düyünü -**
**Hamılıqla GÖRƏK! - deyib, yazmışam!**

**Dünya geniş, bizə düşən bircə lək,**
**Sən Vətənin şərəfini önə çək!**
**Bərəkətin ən müqəddəs rəmzi tək -**
**Halal olsun, ÇÖRƏK! - deyib yazmışam.**

**Dəyişsə də mən gördüyüm bu dövr,**
**Ümidlər də sənlə birgə boy verir...**
**Ad günündə dinlə, baban nə deyir: -**
**Yurda FATEH GƏRƏK! - deyib yazmışam!**

## *Elnarə Xəlilova: "Böyük oğlumdan hər gün şikayət edirlər"*

**Müğənni Elnarə Xəlilova dörd övladla həyatının necə keçməsindən söz açıb.**

Adalet.az xəbər verir ki, o, övladlarının hiperaktivliyindən gileylənib: "Övladlarım da mənə bənzəyiblər. Əsla sakit uşaq deyillər. Böyük oğlum olduqca dəcəldir. Məktəbdən olduqca çox şikayət eşidirəm. Müəlliməsi artıq direktora şikayət edəcəyini bildirir. Məsələ budur ki, direktor da böyük oğlum çox istəyir (gülür). Qızım da oğlanlarına baxıb dəcəllik edir. Böyük oğlum olduqca hiperaktivdir. Həyatım onlarla rəngarəng keçir. Evdə təmizlik işləri görürəm, hamısına tapşırıram ki, heç bir yeri çirkləndirməyin. Bir gün sonra baxıram ki, təmizlədiyim hər yer çirkabdır".

**Əntiqə**

**Xasayeva Şəlalə Vaqif qızına etibarnamə ilə verilmiş qızı Hümbətova Səadət Ələsgər qızına məxsus Jasmin yaşayış massivi ev 7, mənzil 15 ünvanına aid alqı-satqı müqaviləsi itdiyi üçün etibarsız sayılır.**

Aqil Abbas və İradə Tuncay Xalq şairi
**Nəriman Həsənzadənin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əbülfət Mədətoğlu **Nazim Həsənzadəyə** atası, Xalq şairi
**Nəriman Həsənzadənin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Aqil Abbas **Səyyad Arana** qardaşı
**Elçay Salahlının**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Əbülfət Mədətoğlu **Səyyad Arana** qardaşı
**Elçay Salahlının**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Hüsniyyə Əlizadə və Aysu Quliyeva **Atabala Nurməmmədova, Səidə Nurməmmədovaya və Mənzər Məmmədovaya** əzizləri
**İrşad Məmmədovun**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**
**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı şəhəri, Neftçilər 67, mənzil 21 A
**Telefon: (012) 491-23-53**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 1500**
**Sifariş: 289**
Çapa imzalanmışdır: 06.08.2026